# Sülhün “durğunluq” dövrü

**İlin sonu yaxınlaşdıqca Azərbaycan və Ermənistan arasında sülh prosesinin gələcək aqibəti ətrafında suallar çoxalmaqdadır. Bu sualları doğuran səbəblər isə birbaşa İrəvanın son aylar sərgilədiyi “sürüşkən diplomatik gedişləri” və bunun müqabilində sülhdənqaçma cəhdləri ilə bağlıdır. Məhz Paşinyan hökumətinin günahı ucbatından hazırda iki ölkə arasında vasitəçisiz danışıqlar prosesi özünün aydın sezilməkdə olan “durğunluq” mərhələsini yaşamaqdadır.**

Rəsmi İrəvan həm baş nazir, həm də xarici işlər naziri səviyyəsində sülh sazişi mətninin 90 faizinin artıq razılaşdırıldığını, 17 bənddən 15-i üzrə ortaq məxrəcə gəlindiyini bəyan etsə də, danışıqlarda “Qordi düyünü”nə çevrilmiş məqamlar barədə susmağa üstünlük verir. Belə məqamlardan biri də Bakının Ermənistanın əsas qanununu Azərbaycana qarşı ərazi iddialarından təmizləmək üçün İrəvandan konstitusiya islahatının aparılması tələbidir. Bu barədə çox yazılsa və danışılsa da, hələlik problem “ölü nöqtə”dən tərpənmir.

*(ardı 5-ci səhifədə)*



## Azərbaycan interregional güc kimi



Səhifə ⇨ 6

## “Böyük manipulyator”




Səhifə ⇨ 6


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 280 (30684) 19 dekabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan sivil, bəşəri dəyərlərə daim sadiqdir

Prezident İlham Əliyev “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın “RİA Novosti” Agentliyi üçün “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, “Rossiya-1” televiziya kanalında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibə verib.**

*(ardı 2-ci səhifədə)*

# Ermənistanın militarizasiyasında Qərb amili

*Prezident İlham Əliyevin “Rossiya Seqodnya”ya müsahibəsi kontekstində*

**Prezident İlham Əliyev “Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində bir çox maraqlı məqamlardan söz açıb. Həmin məqamlardan biri Ermənistanın silahlandırılmasıdır.**



Əminliklə deyə bilərik ki, Ermənistanın silahlandırılması Cənubi Qafqaz regionunun acı reallığıdır. Bu, həm də ona görə acı reallıqdır ki, ölkə otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti yürüdüb və yenə avantürizmindən qalmır. Belə bir mahiyyətə malik məmləkət silahlandırılırsa, deməli, dünyanın düzəni yerində deyil. Prezident İlham Əliyev də müsahibəsində mövcud məqama özünəxas tərzdə münasibət açıqlayıb. Dövlətimizin başçısı dünyanın əsaslı şəkildə dəyişdiyini və İkinci dünya müharibəsi nəticəsində yaranmış reallıqların, müəyyən edilmiş oyun qaydalarının artıq işləmədiyini, hətta qlobal aktorların da bunu gizlətmədiklərini vurğulayıb.

Azərbaycan Cənubi Qafqazın lider dövlətidir və bu məkandakı siyasi transformasiyaları ciddi şəkildə izləyir. Ölkəmiz Ermənistanın sürətli silahlandırılmasına da dünyanın dəyişən reallıqlarının regiona təsiri prizmasından yanaşır. Rəsmi Bakı İrəvanın canfəşanlığını baş nazir Nikol Paşinyan administrasiyasının sözügedən qlobal transformasiyalar şəraitində Ermənistanın öz avantürizmini gerçəkləşdirmək fürsəti kimi dəyərləndirir.

*(ardı 5-ci səhifədə)*

## Suriyanın suverenliyi və ərazi bütövlüyünə dəstək artır



Səhifə ⇨ 14

## İrəvan daşı ətəyindən tökmək istəmir

**Dünyanın harasında qəbul edilməsindən asılı olmayaraq, Qarabağ avantürasının hansısa şəkildə davamına hesablanmış istənilən sənəd Ermənistanda ümid yaradır. Buna ümid yox, illüziya demək daha münasibdir.**

Əminliklə söyləyə bilərik ki, İsveçrə parlamentinin aşağı palatası olan İsveçrə Milli Şurasının “Dağlıq Qarabağ: sülh konfransı” adlı qətnaməsi də eyni effekti verib. Sözügedən qətnamənin qəbulundan sonra haylar əməlli başlı hərəkətə keçiblər. Hərəkətdə isə üç əsas istiqamət var. Birincisi, Ermənistanın idarəçilik sisteminə adi qurumların fəaliyyəti, ikincisi, baş nazir Nikol Paşinyana müxalif qüvvələrin fəallığı, üçüncüsü, İrəvanda məskunlaşmış separatçıların canfəşanlığı.

*(ardı 7-ci səhifədə)*



## TAP hidrogen nəqlinə uyğunlaşdırılacaq




Səhifə ⇨ 11

## Aqrar büdcə bir az da böyüyür



Səhifə ⇨ 10

# Azərbaycan sivil, bəşəri dəyərlərə daim sadiqdir

(əvvəli 1-ci səhifədə)

**– Cənab Prezident, Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinə və “RİA Novosti” agentliyinə müsahibə verməyə razı olduğunuza görə Sizə ürəkdən təşəkkür edirəm. 2022-ci ildə, sözün əsl mənasında, xüsusi hərbi əməliyyatın başlamasına bir neçə gün, sözün əsl mənasında bir neçə saat qalmış Moskvada Prezident Putinlə Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladınız. O vaxtdan bəri dünya əsaslı şəkildə dəyişib. İndi Azərbaycanla Rusiya arasında müttəfiqlik nə deməkdir?**

– Bəli, Siz tamamilə haqlısınız. Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə 2022-ci il fevralın 22-də imzalanıb. Siz düzgün qeyd etdiyiniz kimi, regionumuzda və bütövlükdə dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib, lakin bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib. Mən hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman, əlbəttə, deyərdim ki, belə bir sənəd tarixi hadisədir.

Əlbəttə ki, biz müttəfiqlər olaraq dərhal müxtəlif, hətta ikitərəfli formatımızın hansısa kölgədə qalan istiqamətləri üzrə də fəal işə başladıq.

Bəyannamənin imzalanmasından ötən illər ərzində Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana çox əlamətdar, həm də tarixi səfəri baş tutdu. O, dəfələrlə bizim ölkəyə gəlib, amma bu səfər xüsusi idi. Bu, dövlət səfəri ilk dəfə bu ilin yayında həyata keçirilib. Həmin səfər çərçivəsində biz nəinki münasibətlərimizin müttəfiqlik xarakterini təsdiqlədik, həm də ikitərəfli qarşılıqlı fəaliyyətin inkişaf yollarını müəyyənləşdirdik. Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur. Artıq dediyim kimi, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq.

Əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik, ticarət dövriyyəsi artır, bəlkə də bizim istədiyimiz sürətlə deyil, lakin bununla belə, dinamika mövcuddur. Rusiyalıların Azərbaycana səfərləri baxımından da biz COVID-dən əvvəlki səviyyəyə çıxırıq ki, bu da həm siyasi, həm də sırf insani mühitin maksimum müsbət olduğunu göstərir, çünki bu səfərlər və qarşılıqlı səfərlər insanların özlərini rahat hiss etdikləri istiqamətlərdə həyata keçirilir. Son 2-3 il ərzində qarşılıqlı səfərlərin əhəmiyyətli dərəcədə artdığını görürük. Hazırda ölkələrimiz arasında reyslərin sayının artması buna əsas sübutdur. Düşünürəm ki, indi onlar sovet illəri ilə müqayisədə azı iki dəfə çoxdur.

Odur ki, biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk və əminəm ki, bu müsbət dinamika gələn ildə də qorunub saxlanılacaq.

**– Bununla belə, Rusiya üçün indi müharibə dövrüdür. NATO-da bildirirlər ki, blok yaxın 5-7 il ərzində Rusiya ilə müharibəyə hazır olmalıdır. Bunun üçün praktiki hazırlıq gedir. Səfərbərlik sistemi dəyişdirilib, Andrey Belousov bazar ertəsi Rusiya Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bu barədə danışıb ki, 10 gün ərzində Rusiya sərhədləri yaxınlığında 100 min, 30 gün ərzində 300 min və 180 gün ərzində isə 800 min NATO əsgəri olmalıdır. NATO 2026-cı ildə Almaniyada ortamənzilli raketlər yerləşdirməyi planlaşdırır, Putinin NATO bunu etmədikcə Rusiyanın bunu etməyəcəyi ilə bağlı xəbərdarlığına baxmayaraq. Rusiyanın müdafiə naziri Andrey Belousov bazar ertəsi Prezidentin iştirakı ilə Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bildirib ki, Rusiya yaxın onillikdə NATO ilə müharibəyə hazır olmalıdır. Bu, Azərbaycanla Rusiya arasında müttəfiqlik münasibətləri üçün nə deməkdir?**



– Mən yenə də ümidvar olduğumu bildirmək istəyirəm ki, işlər NATO ilə Rusiya arasında belə açıq-aşkar qarşıdurmaya gətirib çıxarmayacaq.

Birincisi, ona görə ki, hamı bunun bütün dünya, bütün ölkələr və əlbəttə, regionla həmsərhəd olan ölkələr üçün fəlakətli nəticələrini dərk edir. İkincisi, mən yenə də ümid edirəm ki, Birləşmiş Ştatlarda administrasiya dəyişikliyi həm də xarici siyasət istiqamətlərində dəyişiklik olacaq. Cənab Trampın birinci prezidentlik dövründəki təcrübəsi, eləcə də onun və komandasının üzvlərinin seçkiqabağı kampaniyası zamanı və ondan sonra verdikləri bəyanatlar buna ümid etməyə imkan verir. Buna görə də NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək. Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin.

Azərbaycanın öhdəliklərinə gəlincə, biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər, bir az unudulmuş sözdür, – gərginliyin azaldılması – “detente”. Düşünürəm, bu sözə indi beynəlxalq leksikonda tələbat var və ümid edirəm ki, ondan istifadə olunacaq. Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir.

Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər. Axı bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Rusiyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr çox deyil. Buna görə də, əgər belə bir ehtiyac olarsa, biz gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq.

**– Rusiyada bu müharibə Ukrayna ilə müharibə kimi deyil, dünyanın yenidən qurulması uğrunda Ukrayna ərazisində Qərblə sivilizasiya döyüşü kimi qəbul edilir, çünki istənilən sülh müharibənin nəticəsidir və əlbəttə, Azərbaycan bunu çox gözəl bilir. Siz Türkiyə ilə müttəfiqlik münasibətlərindən danışırsınız. Azərbaycanda Türkiyənin hərbi bazasına ehtiyac varmı?**

– Xeyr, qısa desək, lazım deyil. Vaxtaşırı müəyyən mediada belə məlumatların yayımlandığını nəzərə alaraq əgər cavabımı azca genişləndirsəm, deməliyəm ki, buna ehtiyac yoxdur. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 1992-ci ilin əvvəlindən Türkiyə ilə hərbi əməkdaşlıq edir. Bu hərbi əməkdaşlıq o vaxt başlayıb və bu günə qədər davam edir. Təbii ki, zərurətdən asılı olaraq formalar dəyişir, amma deməliyəm ki, bu 30 ildən artıq müddətdə Türkiyə və onun hərbi strukturları Azərbaycan Ordusunun müasirləşdirilməsində və onun həm döyüş qabiliyyətinə, həm də əməliyyatların planlaşdırılmasına, vəziyyətin təhlilinə, hərbi kəşfiyyatın potensialına uyğun olaraq yüksək standartlara çatdırılmasında böyük rol oynayıblar. Yəni, belə yardıma görə türk dostlarımıza çox minnətdarıq.

Azərbaycan ilə Rusiya arasındakı Bəyannamədən bir il əvvəl Türkiyə ilə Azərbaycan arasında imzalanmış Müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni, bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir. Buna görə də, Bəyannamənin həmin bəndi mahiyyət etibarilə bu və ya digər ərazidə hər hansı daimi hərbi infrastrukturun yaradılmasını tamamilə lüzumsuz edir. Bir daha informasiya müdaxiləsinə qayıdaraq demək istərdim ki, bu gün dünyanın heç bir yerində heç bir hərbi bazanı gizlətmək, demək olar ki, mümkün deyil. Ona görə də bu informasiya müdaxilələri, sadəcə, siyasi möhtəkirlik xarakteri daşıyır. Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk - yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib və İkinci Dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər. Siyasi istəklərdə yenidən güc amili ön plana çıxır. Bunu daha tez dərk edən ölkələr bu gün özlərini daha təhlükəsiz hiss edə bilərlər. Halbuki, müasir dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz.

**– Azərbaycan bundan sonra da Rusiya silahı almağı planlaşdırırmı və hansı həcmdə?**

– Bəli, amma deməliyəm ki, ən azı son üç ildə Rusiya silahlarının alınması ilə bağlı yeni müqavilələr imzalanmayıb. Bunun səbəbi isə Rusiya müdafiə sənayesinin, deyək ki, yerli istehlakçı üçün işləməsidir. Bildiyimə görə, Rusiya məlum səbəblərdən müvəqqəti olaraq beynəlxalq silah bazarından çəkilib. Hətta 4 il əvvəl imzalanmış bəzi müqavilələrin də Rusiyanın xahişi ilə icra müddəti təxirə salınıb. Biz vəziyyəti başa düşərək bununla razılaşdıq, bu vəziyyət nəticəsində həmin müqavilələr icra oluna bilməz. Amma biz Rusiyanın müdafiə sənayesinin yeniliklərini də diqqətlə izləyirik. Artıq yeni müraciətlərimiz olub. Biz onları bu yaxınlarda göndərmişik və Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq. Odur ki, mən bu prosesi obyektiv səbəblərdən müvəqqəti olaraq dayandırılmış hesab edirəm.

**– Nikol Paşinyan KTMT ilə münasibətlərində geri dönüşün olmadığını açıqlayıb, Fransa ilə münasibətləri fəallaşdırır. Bu, regional təhlükəsizlik, xüsusən də Azərbaycan üçün nə deməkdir?**

- Bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dır. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, - hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, - ABŞ isə bunu etiraf etmir. Halbuki, biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik.

Təbii ki, biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən beş milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər.

Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı, Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bax, bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik. Odur ki, biz həm danışıqlar prosesi çərçivəsində, həm də Ermənistanla Azərbaycan arasında işləyən delimitasiya komissiyası çərçivəsində və erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın.

**– Amma bir vaxtlar elə görünürdü ki, sülh sazişi tezliklə bağlanacaq. Bəs o, niyə bağlanmır? Sözün əsl mənasında hazır vəziyyətdə dayanmışdılar.**

-Bəli. Qərbdə bu iki proses nə üçünsə bir-birindən ayrıdır. Baxmayaraq, biz hesab edirik ki, bu iki proses birləşdirilməlidir. Sülh sazişi və Ermənistanın eyni vaxtda bizə qarşı silahlandırılması iki fərqli kursdur. Axı, biz əslində sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam. Bu halda...

**– Əgər dəqiqləşdirsək, hansı maddələrdir?**

– Onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır. Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni, işğal illərində vurulan zərərdir. Ona görə də zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbulediləndir. Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...

**– Məhz müşahidəçilərin…**

– Məhz müşahidəçilərin. İki aylığına 40 nəfər yerləşdiriləcək. Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir.

(ardı 3-cü səhifədə)

# Azərbaycan sivil, bəşəri dəyərlərə daim sadiqdir

(əvvəli 2-ci səhifədə)

Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz Konstitusiyasını dəyişməkdir. Çünki Konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də Konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir.

Prinsipcə bunlar hamısıdır, əgər bunlar həll edilsə, daha sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq. Davam edən silahlanma yarışına gəldikdə, bu, əlbəttə, sülh sazişinin bir hissəsi ola bilməz, amma Ermənistanla qarşılıqlı fəaliyyətin sanki başqa formatının bir hissəsi olacaq. Biz gələcəkdə də, ilk növbədə, bu cür hərəkətlərin onlar üçün fəlakətli olacağını erməni tərəfinə çatdırmağa çalışacağıq.

**– Qarabağda nə qədərsə erməni qalıbmı? İndi orada vəziyyət necədir?**

– Təqribən iki ay əvvəl son informasiya ondan ibarət idi ki, orada erməni millətindən olan 20-yə yaxın sakin yaşayır. Hələ 2023-cü ilin sentyabrında, biz birgünlük antiterror əməliyyatı keçirənə qədər Qarabağ ermənilərinin Azərbaycan dövlətinə reinteqrasiyası planını rəsmi olaraq dərc etdik. Bu, açıq şəkildə edildi. Bu, internetdə elan olundu. Çünki erməni ictimaiyyətinin nümayəndələri ilə təmas qurmaq üzrə çoxsaylı cəhdlərimiz uğurla nəticələnmədi. Onlar bizə məhəl qoymur, bizimlə görüşmək, bizimlə danışmaq istəmirdilər. Belə olan təqdirdə orada yaşayanların, necə deyərlər, diqqətinə çatdırmaq üçün biz bunu internetdə yaydıq. Orada kifayət qədər aydın şəkildə hər şey yazılıb, istəyən hər kəs baxa bilər, təhsildən, mədəni mühitin qorunub saxlanmasından, reinteqrasiyadan, inteqrasiya yollarından, yaxud yaşamaq üçün müraciət etmək və ya vətəndaşlıq almaq, yaxud işləməyə icazə verilməsinədək bütün məsələlər. Vəziyyət bundan ibarət idi. Əgər onlardan hər hansı biri bütün bu baş verənlərdən sonra hansısa anlaşılmaz "Dağlıq Qarabağ respublikasında" yaşadığını düşünürdüsə, bu, onların problemidir. Yəni, hər hansı bir insan kimi. Bir insan Azərbaycandan Rusiyaya işləməyə gedir, müvəqqəti yaşayış hüququ və ya çalışma icazəsi alır, qeydiyyatdan keçir, sonra o, vətəndaşlıq üçün müraciət edir. Proses bundan ibarətdir. Biz də bunu təklif etdik, amma heç biri qəbul olunmadı. Belə olan halda orada vəziyyət dəyişdi, orada qalanlar, - onların sayı isə o qədər də çox deyildi, təqribən 30-dan çox insan, bir hissəsi sonra çıxıb getdi, - əvvəlki kimi Azərbaycandan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sosial yardım alırlar, onların müalicəsi, ərzaqla təminatı qarşılanıb, orada həyat tam təmin edilib. Məsələ məhz bundan ibarətdir. Buna paralel olaraq Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda – 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib.

**– Artıq Ermənistana?**

– Artıq Ermənistana. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq. Zənnimcə, əgər bu iki proses paralel kursla gedərsə, onda bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu, həm də ictimai konsensusdur. Bizim işğal illərində aldığımız yaralar isə 30 il keçməsinə baxmayaraq hələ də sağalmayıb. Yəni, bunun üçün vaxt lazımdır. Bu məqsəd üçün isə ictimai fon, ünsiyyət lazımdır, insani dildə danışmaq gərəkdir. Beləliklə, indi vəziyyət bundan ibarətdir.

**– Rusiya şirkətləri Qarabağın bərpasında iştirak edirmi? Bu barədə danışardınız**.

– Bəli, bu yaxınlarda Həştərxan vilayətinin qubernatorunun tapşırığına əsasən



uşaq bağçasının tikintisinə başlanılıb. O, bu yaxınlarda bizi ziyarət etdi, həmçinin bu sosial infrastruktur obyektinin tikildiyi Qubadlı rayonunda oldu. Beləliklə, biz bu cür diqqətə görə çox minnətdarıq. Bərpa işlərində mal və xidmətlərin tədarükçüsü qismində iştirak edən bir neçə Rusiya şirkəti var, həmçinin rusiyalı iş icraçıları da mövcuddur, amma deyərdim ki, onların sayı çox deyil. Zənnimcə, onların sayı daha çox ola bilər, çünki bərpa işlərinin miqyası kifayət qədər genişdir və bu, ilk növbədə, indi infrastruktur layihələrini, yolları, dəmiryol tunellərini, körpüləri əhatə edir, yəni bu sahədə yaxşı təcrübəsi olan çoxlu sayda Rusiya şirkəti var. Buna görə biz...

**– Siz bunu alqışlayardınızmı?**

– Bəli, sözsüz. Biz bunu alqışlayardıq və alqışlayırıq. Həm də kömək göstərilməsi planında, Həştərxan vilayətinin etdiyi kimi, sadəcə layihələrdə iştirak etmək baxımından. İnvestisiya layihələri var. Yeri gəlmişkən, ilk investisiya layihəsi Tatarıstan tərəfindən həyata keçirilib. Bu, Cəbrayıl rayonunda Tatarıstanın rəhbəri və mənim tərəfimdən açılmış "KamAZ" xidmət mərkəzidir. Yeri gəlmişkən, bu gün mənim də Tatarıstan rəhbəri ilə görüşüm olacaq. Tatarıstan nümayəndə heyəti Bakıdadır. Yəni, bu, ilk investisiya, daha dəqiq desək, xarici investisiyalar üzrə birinci layihənin, həmçinin Rusiyaya məxsus olmasıdır. Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq.

**– Çox xoşdur. Azərbaycana atom elektrik stansiyası lazımdırmı?**

– Mən bizim energetika gündəliyini sanki bir az açıqlayardım ki, tamaşaçılara bizim harada olduğumuz və nə etdiyimiz aydın olsun. Azərbaycanda təbii qazın sübut olunmuş ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Nəzərə alsaq ki, otuz il ərzində bizim işlətdiyimiz neft yataqları, resursların yeni qiymətləndirilməsi 500 milyon tondan bir milyard yarım tona çatıbdır, onda bizim qaz və qaz-kondensat yataqlarımız haqqında təxminən eynisini demək olar. Yəni, 2,6 trilyon on il əvvəlki qiymətləndirilmiş ehtiyatlardır. Aydındır ki, bu cür potensial həcmlə və 25 milyard kubmetr ixrac həcmi ilə biz əlavə enerji mənbələrinə ehtiyac duymuruq. Üstəlik, Qarabağda və Şərqi Zəngəzurda son üç ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və iki ildən sonra bu, 500-ə çatacaq. Əlavə olaraq, külək və günəş energetikasını xarici investisiyalar hesabına fəal şəkildə inkişaf etdiririk. Dünya Bankının qiymətləndirməsinə görə təkcə Xəzərdə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək. Yəni, bu, sizin bizə AES-in lazım olması ilə sualınıza cavabın bir hissəsidir. İndi başqa məsələyə keçirəm, zənnimcə, bu, maraqlı olardı. Birincisi, iqtisadiyyatın daha bir sektoru nöqteyi-nəzərindən.

**– Bu, bütövlükdə bir sahədir.**

– Əlbəttə. Bu sahə potensial kadrlar deməkdir, bu, bizim heç vaxt malik olmadığımız tamamilə yeni kadrlardır. İkincisi, hər halda bu, dünyada mövcud olan tendensiyadır və ondan geri qalmaq istəmirik. Ona görə də artıq mənim tərəfimdən tapşırıq verilib ki, elmi təcrübəli strukturların, elmi məqsədlərlə kiçik reaktorların imkanları öyrənilsin ki, bunun məhz bu nöqteyi-nəzərdən bizə nə verəcəyini görə bilək.

Bunun çox bahalı iş olduğunu, günəş, külək enerjisi layihələrinin Azərbaycanda xarici investorlar tərəfindən həyata keçirildiyini, dövlətin heç bir sərmayə qoymadığını, sadəcə, belə bir potensiala malik olacağını nəzərə alaraq, əlbəttə, biz bu sahəyə daha çox investisiya layihələrində maraqlı idik. Əgər hər hansı bir ölkədən hansısa şirkət maraq göstərərsə, biz də birgə investor ola bilərik. Zənnimcə, bu, investisiyalar üçün yaxşı layihə ola bilər. Çünki indi, elə bu günlərdə, yaxın vaxtlarda, yəqin ki, həftələrdə və ya bir-iki ayda buradan, Azərbaycandan Qara dənizin dibi ilə enerji kabellərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması başa çatacaq. İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq. Ona görə də onlara təmiz yaşıl enerji mənbələri lazım olacaq. Yəni, bu, yaxşı aparıcı qüvvə ola bilər. Həmçinin Azərbaycanda elektrik enerjisinin daxili qiymətləri elədir ki, bu sektora investisiyalar və şirkətlər üçün istehlakçılara elektrik enerjisinin satışı kommersiya nöqteyi-nəzərindən tamamilə məqbuldur. Bu baxımdan mən bir növ sizin sualınıza cavab verməyə çalışdım. Bu, "hə" və ya "yox" demək deyil. Bu, daha çox "hə"dir, amma ... Bundan sonra bizim bir növ ev tapşırığımız başlayır.

**– Bu yaxınlarda Azərbaycan nəhəng iqlim sammitinə ev sahibliyi etdi. Hansı çətinliklərlə üzləşməli oldunuz və bu sammitin əsas nəticələri nədən ibarətdir?**

– Başlıca çətinlik ondan ibarət idi ki, bizim vaxtımız az idi. Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə iki-üç gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün bizim cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki biz 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq, - belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur, - qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi. Bunun üçün müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirilməli idi. Bu, çox böyük təşkilati iş idi və biz onun öhdəsindən şərəflə gəldik. Yəni, bildiyimə görə, bu konfransın keçirildiyi bütün vaxt ərzində təşkilatçılıqla bağlı on şikayət olub, amma onlar operativ şəkildə nizamlanıb və belə demək mümkündürsə, bütün qonaqlar razı qalıb.

İkinci çətinlik, əgər onu çətinlik adlandırmaq mümkündürsə, deyərdim ki, müəyyən rahatsızlıqla bağlı olan məsələ tamamilə əsassız aqressiya hissi, bir növ Azərbaycana qarşı paxıllıqla müşayiət olunan qərəz idi. Yəni belə bir ölkə var və birdən-birə bu cür konfransa ev sahibliyi etmək hüququ qazanıb. Müxtəlif Qərb media orqanları bizi "petrostate" adlandırmağa başladı. Halbuki prinsipcə burada pis bir şey yoxdur. Mən açılışda çıxış edərək dedim ki, əgər bizi XIX əsrdə "petrostate" adlandırsaydılar, - o dövrdə biz dünya neftinin 50 faizini tədarük edirdik, - onda bu, normal olardı. Amma indi təqribən bizim 30-a qarşı milyard ton neft hasil edən ölkənin, - mən ABŞ-ı nəzərdə tuturam, - bugünkü feyk xəbərlərində bizi "petrostate" adlandırırlar.

**– Otuz?**

– Bəli. Bizdə neft hasilatı cəmi 30 milyon civarındadır. Bu ölkənin qonşusu, - mən Kanadanı nəzərdə tuturdum, - bizdəkindən 10 dəfə artıq neft hasil edirsə və bizi "petrostate" adlandırırsa, bu, ədalətsizlikdir. Amma bu feyk xəbərlər qrupu, - yeri gəlmişkən, bu, mənim ifadəm deyil, sadəcə, Prezident Trampdan əxz etmişəm və bu, mənim çox xoşuma gəlir, - zənnimcə, çox hərtərəfli və olduqca ünvanlıdır. Onları adlandırdığımız kimi, "yalançı dördlük" – "Washington Post", "New York Times", "Figaro" və "Le Monde". Bax, bu dördlük Dövlət Departamentinin himayəsindəki müxtəlif qeyri-hökumət təşkilatları ilə birlikdə qərəzli kampaniyaya başladılar, hər gün hücum edirdilər.

Hər gün məqalələrin sayı yəqin ki, minimum 20-dən çox olurdu. Bu, çətinlik yaratmadı, amma, sadəcə, ikrah hissi doğurdu. Əlbəttə ki, nəticə əldə etmək çətin idi, çünki biz bu sahədə qlobal aktor deyilik. Qlobal qaz emissiyasında Azərbaycanın payı 0,1 faizdir. Halbuki ABŞ-da bu, 12, Avropa İttifaqında daha çoxdur...

**– Həm də bunu azaldırlar.**

– Bəli, azaldırlar.

**– Onu dəfələrlə azaldırlar. Bu, ayrıca mövzudur.**

– Mən, sadəcə, rəsmi rəqəmləri göstərirəm. Ona görə də biz bütün diplomatik təcrübəmizi işə saldıq, ilk növbədə, Qoşulmama Hərəkatında sədrlik təcrübəmizi. Hər halda orada 120 ölkə var. İslam Əməkdaşlıq Təşkilatında fəal üzvlük də körpülər qurmağa və nəticə əldə etməyə kömək edir. Bu, asan olmadı. Amma hər halda biz bu konfransı təsadüfən "Bakı dönüşü" adlandırmırıq, çünki Paris Sazişinin 6-cı maddəsini razılaşdırmaq mümkün oldu. O, 2015-ci ildən müzakirə olunurdu. Yəni, təxminən 10 il karbon bazarları məsələsi razılaşdırılmamışdı. Biz burada - Bakıda buna nail olduq və o, artıq fəaliyyət göstərəcək. Bu, ölkələrə kvotaları satmağa və bununla da qlobal emissiyanı arzuolunan həddə saxlamağa cəhd göstərməyə imkan verəcək. Bəzilərinin uğursuz adlandırdıqları ikinci bənd üzrə, - amma mən hesab edirəm ki, bu, uğurdur, - biz iqlim mövzularına illik xərclərin məbləğini razılaşdıra bildik. Bu məbləğ 300 milyard dollardır. Məqsəd trilyon idi. Amma aydın idi ki, trilyonu verməyə hazır deyillər. Lakin onu nəzərə alsaq ki, bundan əvvəlki razılaşdırılmış rəqəm 100 milyard idi, burada isə 300 oldu, bunu uğursuzluq adlandırmağa dilim gəlmir. Başqa məsələlər də var idi. Orada Azərbaycan tərəfindən 14 təşəbbüs irəli sürüldü. Ölkələrin mütləq əksəriyyəti bu təşəbbüslərə qoşuldu, Fransa və Lüksemburq kimi dövlətlər istisna olmaqla. Fransa ilə bağlı məsələ aydındır. Lüksemburqun Fransanın ardınca getməsi yəqin ki, məlumdur. Bax, bu konfransı mən təxminən belə xarakterizə edərdim. Əlbəttə ki, 197 ölkə, 80 dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 min iştirakçı. Həm də bu, boykot cəhdlərinin fonunda oldu. Bu, bir növ ölkənin təqdimatı idi.

**– Sözsüz ki, Azərbaycanı bu münasibətlə təbrik etmək olar.**

– Sağ olun.

**– Siz özünüz Fransanı misal çəkdiniz və Azərbaycana qarşı feyk xəbər hücumlarını. Fransa prezidenti hətta BMT-nin Baş Assambleyasında Azərbaycana qarşı hücumlar etdi. Buna cavab olaraq Siz Fransanın dənizaşırı ərazilərini, onların əsl neokolonializmlə üzləşdiyini xatırlatdınız. Onda artıq məsələyə Cozef Borrel qarışdı və Azərbaycana hücum etdi. Məgər Avropanı tənqid etmək olmaz? Bu, nə məsələdir? Ümumilikdə nə baş verir?**

– Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Onlar öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əyirlər, müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə keçmiş kolonial, indi isə bəzi neokolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu, onların şüurunda dərin kök salıb. Prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb. Hətta deyərdim ki, Fransa ilə hər hansı bir Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik. Bu, Fransada Makronun hakimiyyətə gəlişinə qədər idi. Mənim atam 1993-cü ildə Prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya edib. Çünki onlar birinci olaraq onu dəvət edirdilər. Mən Prezident olduqda, 2003-cü ildə, həmçinin ilk ölkə olaraq Fransadan dəvət aldım və birinci səfərim bu ölkəyə oldu. Sonra biz fəal əməkdaşlıq edirdik, burada çoxlu fransız şirkəti işləyirdi. Bizdə Fransanın 13 şəhəri ilə qardaşlaşmış şəhərlər var.

**– Qardaşlaşmış?**

– Bəli, əlbəttə. Amma bu əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Bu, ilk belə siqnal idi ki, münasibətlərimizdə heç də hər şey qaydasında deyil. Lakin onların tərəfindən verilən siqnal idi. Sonra onlar bu nəticələri hər halda qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər. Bu yaxınlarda Baş nazir vəzifəsindən qovulmuş cənab Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Yəni, bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlərimiz, sadəcə, böhran həddinə çatdı, sonradan daha da pisləşdi. 2023-cü ilin sentyabrından sonra onlar beş dəfə bu məsələni Təhlükəsizlik Şurasına daşımağa cəhd etdilər və beş dəfə də uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar başqa yolla getdilər, - necə deyərlər, biz başqa yolla Avropa İttifaqına gedirik, - Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər.

Onların kolonial keçmişinə gəldikdə, bəziləri bunu bizim cavabımız kimi qiymətləndirirlər, amma zənnimcə, bu məsələ ola bilər ki, daha dərin xarakter daşıyır. Əgər ən başlanğıcda haradasa, necəsə bu məsələni nəzərdən keçirmək mümkün idisə, indi bu mövzuya dərindən nüfuz etdiyimiz, fransız kolonializminin iyrənc simasını gördüyümüz, bizim nümayəndələrimizin fransız koloniyalarının sakinləri ilə fəal ünsiyyət saxladıqları, - həm onların ölkələrində, həm Bakıda, həm də digər məkanlarda, - vaxtda, əslində, biz görürük ki, uzun illər ərzində dünya ictimaiyyətindən nələri gizlədiblər. Nə üçün? Çünki heç kim bununla maraqlanmaq istəmirdi. Heç kim başının ağrımasını istəmirdi. Çünki onlar şantaj edirlər. Hətta bizim münasibətlərimiz soyuq müharibə fazasına daxil olduqda əvvəlcə bizə mesajlar gəlirdi ki, "unutmayın, biz böyük ölkəyik".

**– Bəs nəyi gizlədirdilər? Siz xatırlatdınız ki, nəyisə gizlədirdilər. Bu, nədən ibarətdir?**

– Necə yəni nəyi? Təbii ehtiyatların amansız istismarını.

**– Siz Yeni Kaledoniyanı nəzərdə tutursunuz?**

– Təkcə onu deyil. Zənnimcə, orada Yeni Kaledoniya kimi 13, yaxud 15 ölkə var. Elə bu yaxınlarda onların birində - Mayot adasında sunami baş verdi. Dünən "Euronews" xəbər verirdi: Mayot adası əhalisinin 75 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Evlərin 30 və ya 40 faizi yararsızdır. Bu ərazi hüquqi olaraq Fransaya məxsusdur. Hərçənd bu, Qəmər Adalarının bir hissəsidir. Bu, Qəmər dövlətinin adalarından biridir. Fransa onu qanunsuz olaraq saxlayır və hansı hüquqi əsasla?

Onlar Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanı qətlə yetirdilər, 100-dən çoxunu yaraladılar, 1000-dən artığını həbs etdilər. Həm də xalq etirazlarının liderlərini Fransaya apardılar, həbsxanalarda saxlayırlar. Yəni, bu, Makronun diktaturasıdır. Bu, Makron rejimidir. Mən bu barədə danışdıqda, təbii ki, qeyri-hökumət təşkilatları, yaxud media qismində öz "zəncirli köpəkləri"ni üzərimə salırlar. Yəni, biz yenidən, - mən Azərbaycan ictimaiyyətini nəzərdə tuturam, - bu məsələni cavab qismində gündəlikdə saxlamağa başlayandan sonra indi vəziyyət daha ciddi olub.

(ardı 4-cü səhifədə)

# Azərbaycan sivil, bəşəri dəyərlərə daim sadiqdir



(əvvəli 3-cü səhifədə)

Təbii ki, biz hüquqları olmayan bu xalqlara ürəkağrısı ilə yanaşırıq. Avropanın mərkəzində - Korsikada onlar Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu demokratiyadır? Bu, insan hüquqlarıdır? Yəni, Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir. Baxın, bir neçə misal çəkəcəyəm: Afrikada, Sahel regionunda iflas. Onlara "Əlvida!" dedilər. Niger, Burkino-Faso, Mali. Növbədə Çaddır, bu ölkə artıq onlardan çıxmağı tələb edir. Seneqal - burada prezident dəyişdi və milli ruha malik insan gəldi. Bu, hələ başlanğıcdır. Livanda uğursuzluq, Azərbaycanda tam iflas, Gürcüstanda iflas. Diqqət yetirin, daxili siyasətdə nələr baş verir? Hərc-mərclik! Yeni Baş nazir təyin olunur. Onun əri və ya arvadı, bilmirəm, onlarda bunların hansıdır, xarici işlər naziri təyin edilir. Avropa Parlamentinə seçkilərdə uğursuzluqdan sonra onları "günah keçisi" edirlər. Naftalindən çıxarılmış Barnye təyin olunur və onu da qurban verirlər. İndi yenə kimisə tapırlar. Olmazmı ki, elə özündən başlasın? Əvvəllər sovet dövründə deyildiyi kimi, "özünütənqiddən başlamaq lazımdır". Baxın, "Moody`s" Fransanın reytinqini aydan-aya aşağı salır. Artıq "Triple-A"ya çatıb, orada kiçik "A" mövcuddur. Çox kiçik, güclə görünən.

**– Orada xarici borc həddən artıq yüksəkdir.**

– Bu iflasdır. Həm də uğursuzluq davam edir. Belə bir iflasın müəllifi kimdir? Cənab Makron. Azərbaycana zərər vermək əvəzinə, bax, bu barədə düşünmək lazımdır. Onların bizə batırmaq istədikləri dişləri artıq sınıb. Heç olmasa, qalanları qoruyub saxlasınlar.

**– Hazırda Gürcüstanda baş verənləri Siz necə qiymətləndirərdiniz?**

– Görürəm ki, Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin.

Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir.

**– Bu, Azərbaycanın milli maraqlarına uyğundurmu?**

– Bəli, təbii ki. İkincisi, yardım asılılıq yaratmamalıdır. Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil.

**– O, Rusiyada qadağan olunub.**

– Bizdə hələ qadağan edilməyib, amma zənnimcə, Tramp onu qadağan edə bilər.

**– Rusiyada onu özümüz qadağan etdik.**

– Siz qadağan etdiniz və doğru iş gördünüz. Mən düşündüyümü deyirəm, o, ümumiyyətlə, sıradan çıxa bilər. Bax, onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün.

Beləliklə, Gürcüstan məsələsinə qayıdarkən deməliyəm ki, o, göründüyündən daha genişdir. Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə, bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-fakto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların de-yure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq.

Yeri gəlmişkən, Borrel haqqında danışdıq, mən ona məhəl qoymadım. Bunun ardınca ona hələ bir-iki siqnal göndərmək istəyirəm. Hərçənd mən COP-da çıxışlarımın birində bu barədə danışmışam, hətta Borreldən sitat gətirmişəm ki, o, Avropanın çiçəklənən bağ, qalanların isə cəngəllik olduğunu bildirib.

Mən isə dedim ki, əgər biz cəngəllikiksə, bizdən uzaq durun. Ümumiyyətlə, Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib.

**– Azərbaycan Qafqazın ən rusdilli ölkəsi sayılır. Puşkin adına Rus Dili İnstitutunun tədqiqatları da bunu təsdiq edir. Rus dili sizin üçün xüsusi qayğı predmetidir. Siz buna necə nail olursunuz və bu, Azərbaycana nə verir?**

– Çox asan. Çünki ona ictimaiyyət tərəfindən tələbat var və heç vaxt hər hansı məhdudiyyət olmayıb. Hər halda mənim atamın dövründə və mənim dövrümdə olmayıb və olmayacaq. Əksinə, biz hər vəchlə çalışırıq ki, insanların rus dilini daha yaxşı bilmələri, ona mükəmməl yiyələnmələri üçün əlavə şərait yaradaq. Bizdə tədris rus dilində olan 320-dən artıq məktəb var. Bütövlükdə şagirdlərimizin bir milyona yaxını rus dilində təhsil alır və ya onu ikinci dil kimi öyrənir. Səkkiz yüz min nəfər rus dilini ikinci dil kimi öyrənir. İki universitet – MDU və Seçenov Akademiyası fəaliyyət göstərir. Yaradıcı kollektivlər, əsasən teatrlar demək olar ki, mütəmadi, çox tez-tez gəlirlər. Ona görə də rus dilinə tələbat var, o, yaşayır, necə deyərlər, özünü yaxşı hiss edir. Bu, bizə nə verir? Birincisi, sırf praktiki nöqteyi-nəzərdən hər hansı dili bilmək səni zənginləşdirir. Dili yaxşı bilmək sənə həm ədəbiyyata, həm də hər hansı elmi əsərlərə tam nüfuz etmək imkanı verir. Axı, bizim alimlərimiz, məsələn, bir çox informasiyanı Rusiya mənbələrindən alırlar. Bu, insanlarımıza təkcə rusiyalı dostları və həmkarları ilə deyil, həm də digər MDB ölkələrində olanlarla ünsiyyət qurmağa imkan verir. Yəni, bu ünsiyyət rus dili vasitəsilə aparılır. Bizdə bütün MDB ölkələri ilə, mən prezidentlərlə rus dilində danışırıq. Komandalarımız rus dilində ünsiyyət qurur. Biz görüşlər zamanı rusca danışırıq. Yəni, rus dili bunları verir. Əlbəttə ki, bu, Azərbaycanda rus icması üçün daha bir rahatlıq amilidir. Bu, ölkələrimiz arasında müsbət dövlətlərarası münasibətlərin amillərindən biridir. Bu onu göstərir ki, yenə danışdığımıza qayıdaraq demək istəyirəm: rus dilinə bu cür münasibət Azərbaycan dilinə, bizim kimliyimizə, mədəniyyətimizə heç bir zərər vermir. Qətiyyən. Əksinə, bu, dost ab-havası yaradır. Təsadüfi deyil ki, biz təkcə bu sahədə deyil, həm də dinlərarası qarşılıqlı fəaliyyət, mədəniyyətlərarası əlaqələr məsələlərinin həyata keçirilməsində də fərqlənirik. Bakının Mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumunun keçirildiyi məkana çevrilməsi də təsadüfi deyil. Yəni, hər şey qarşılıqlıdır. Zənnimcə, bizim siyasətimiz haqlı olduğunu sübut etdi. Dili siyasi motivlər üzrə sıxışdırmağa cəhd edənlər isə böyük səhvə yol verirlər.

**– Siz, həmçinin demişdiniz ki, Rusiyada məqsədli təxribatçı fəaliyyətə yönəlmiş emiqrant yuvasına Azərbaycanda imkan verməyəcəksiniz. Bu, belə də oldu. Bunun üçün səylər tələb olundu?**

– Xeyr, mənim deməyim kifayət idi. Mənə qulaq asdılar və qonşuluqdakı başqa bir istiqaməti seçdilər.

**– İlham Heydəroğlu, qarşıdan gələn ildə rusiyalılara qısaca nə arzu edərdiniz?**

– İlk ağlıma gələn, əlbəttə, sülhdür, 2025-ci ildə müharibə başa çatsın, insanlar evlərinə qayıtsınlar və sülh şəraitində yaşasınlar. Əlbəttə, bir-birini başa düşməyi öyrənsinlər. Təbii ki, Rusiyaya qarşı belə sanksiya siyasətini nəzərə alaraq, rəhbərliyə öz gücünə, qətiyyətinə inam arzulayıram, Prezidentin komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi diləyirəm. Çünki aydındır ki, bütün bunlar fəsadsız ötüşməyəcək. Rusiya cəmiyyəti hər hansı bir cəmiyyət kimi ağır dövrdə birləşir və biz Rusiyada bu konsolidasiyanı görürük. Arzu edirəm ki, belə də davam etsin.

Suallardan birinə cavab verərkən artıq qismən toxunduğum daha bir məqamı qeyd etmək istərdim: ölkələrimizi, xalqlarımızı və rəhbərliklərimizi daha çox birləşdirən nədir? Bu, öz milli köklərinə və ənənəvi dəyərlərinə sadiqlikdir. Bu gün bu, demək olar ki, bəzi regionlarda çox nadir haldır. Gah xarici idarəçilik, gah tam mənəvi deqradasiya, yaxud onların biri digəri ilə birlikdə. Yəni, bu, bizi sərfəli şəkildə fərqləndirir. Dünyada gördüyümüz tendensiyalar, o cümlədən Trampın Prezident seçilməsi məhz onu göstərən amildir ki, o, elə bizimlədir. Necə deyərlər, ənənəvi dəyərlərə münasibətdə bir qayıqdayıq. Zənnimcə, bəşəriyyət üçün fəlakətli olan tendensiyanı tərsinə çevirə biləcəyik, bax bu, pozğunluq, nümayişkaranə iblislik ki, biz onu Paris Olimpiadasının açılışında gördük. Bu halların qarşısı alınmalıdır. Bunu liderlərə inanan cəmiyyət edəcək, bunu biz edəcəyik. Mütləq. Yoxsa biz azlıqda qalacağıq. Biz isə azlıqda qala bilmərik.

Əlbəttə, Yeni ildə bütün rusiyalılara xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

**– İlham Heydəroğlu, bu ətraflı müsahibə üçün çox sağ olun.**

– Siz də sağ olun.

***AZƏRTAC***

## Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

**Əlahəzrət!**

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Qətər dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, dövlətlərarası münasibətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 16 dekabr 2024-cü il**

## 2025-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2025-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 000 000 (bir milyon) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

**3.** "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 18 dekabr 2024-cü il**

## "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamının ləğv edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə qərara alıram:

**1.** "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 175 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 dekabr tarixli 389 nömrəli Sərəncamı) 3-cü və 6-cı hissələri ləğv edilsin.

**2.** "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2013, № 10, maddə 1188 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 17 dekabr 2024-cü il**

## Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən Məhəmməd Əsədov küçəsində dəmiryol xətti və Samur–Abşeron kanalı üzərində yerləşən yeni körpünün tikintisi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən Məhəmməd Əsədov küçəsində dəmiryol xətti və Samur–Abşeron kanalı üzərində yerləşən uzunluğu 100 metr, 6 aşırımdan ibarət yeni körpünün tikintisi məqsədilə 9.960.000,0 (doqquz milyon doqquz yüz altmış min) manat vəsait Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 18 dekabr 2024-cü il**

## YAP-da seçki müşavirəsi

**Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilən bələdiyyə seçkiləri ilə əlaqədar dekabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

YAP-ın mətbuat xidmətindən bildirilib ki, müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiqlənən Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərlə əlaqədar ötən müddət ərzində görülmüş işlər ətrafında müzakirələr aparılıb, onların icra vəziyyətinin təhlili əsasında növbəti dövr üçün konkret vəzifələr müəyyən edilib, müvafiq tapşırıq və tövsiyələr verilib.



***XQ***



## Milli Məclisin sədri Türkiyədə



**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyədə rəsmi səfərdədir.**

Səfər çərçivəsində Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən "2024 TÜBA və TÜBİTAK Elm Ödülləri Mərasimi"ndə iştirak edib.

Milli Məclisin sədri mərasimdə Türkiyə Prezidenti ilə görüşüb.

***

**Milli Məclisin sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş arasında görüşdən sonra spikerlər mətbuat üçün bəyanatla çıxış ediblər.**

Numan Kurtulmuş səfərin parlamentlərarası əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. Azərbaycan və Türkiyənin regionda sülh və sabitliyin, inkişafın təmin olunmasına mühüm töhfələrini qeyd edən TBMM sədri, ölkələrimizin liderliyi ilə Türk dünyasının daha da güclənməsi, Türk dövlətləri arasında birliyin möhkəmlənməsi istiqamətində atılan addımları təqdir edib. O, Azərbaycanın bu istiqamətdə atdığı addımları i yüksək qiymətləndirib. N.Kurtulmuş Zəngəzur dəhlizinin açılmasının önəmini vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova qardaş Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında bütün sahələrdə hərtərəfli inkişaf etdiyini, böyük nailiyyətlər qazandığını, artıq qlobal miqyasda gedən proseslərə təsir göstərdiyini, sülhə və sabitliyə töhfə verdiyini deyib.O qeyd edib ki, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi, qətiyyəti və birgə səyləri sayəsində bu münasibətlər özünün ən yüksək zirvəsinə - müttəfiqlik səviyyəsinə yüksəlib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, qanunverici orqanlarımız arasında əlaqələr hazırda çox yüksək səviyyədədir və müttəfiqlik ruhuna uyğun olaraq bütün istiqamətlər üzrə genişlənməkdədir.

**XQ**

# Ermənistanın militarizasiyasında Qərb amili

**(əvvəli 1-ci səhifədə)**

Çünki ölkənin rəhbərliyi sülhdən yayınır. Erməni iqtidarının dörd ildir barış mühitinin formalaşması üçün heç bir əsaslı addım atmaması, səmimiyyətdən uzaqlığı beynəlxalq müstəvidəki dəyişikliklərlə əlaqədardır. İrəvan ümidvardır ki, yeniliklər onun üçün sərfəli status-kvo formalaşdıracaq, 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri nəticəsində itirdiklərini bərpa etmək şansı qazanacaq. Paşinyan iqtidarı müxtəlif hiyləgərlik metodlarını işə salaraq, gözləmə mövqeyini məhz bu səbəbdən tutub.

Azərbaycan isə necə deyərlər, daim ayıq-sayıqdır, əli tətikdədir. Gələn il üçün hərbi büdcəmiz 5 milyard dolları keçəcək. Səbəb sadədir – Ermənistan və havadarları regionda yeni eskalasiya mühiti yaratmağa kökləniblər. Prezident İlham Əliyev bildirib ki, Emmanuel Makron Fransası Ermənistana müxtəlif növ silahlar tədarük edir və açıqlanmış məlumatların əksinə olaraq, həmin silahlar heç də müdafiə məqsədli deyil, hücum xarakterlidir, öldürücüdür. Parisin bu addımı isə “Azərbaycan üçün praktiki təhlükə yaradır”. Ölkəmizin liderinin praktiki təhlükə nöqteyi-nəzərdən hansı məqamları açıqladığına nəzər salacağıq. Hələlik isə bir məsələyə toxunaq.

Məlum olduğu kimi, bu günlərdə Ermənistanın müdafiə naziri Suren Papikyan Fransada, ölkə parlamentinin sədri Alen Simonyan isə Hindistanda səfərdə olublar. Hindistan və Fransa Ermənistanın başlıca silah tədarükçüləridir. Deməli, iki yüksək ranqlı erməni iqtidarı təmsilçinin eyni vaxtda adıçəkilən ölkələrdə olmaları adi sayıla bilməz və bu, heç şübhəsiz, bölgədəki duruma təsirsiz ötüşməyəcək. Nəzərə alaq ki, Ermənistanın silahlandırılmasının ABŞ seqmenti də aktuallığını qorumaqdadır. Deməli, prosesin Azərbaycan üçün praktiki təhlükəlilik fazasına ciddi yanaşılmalıdır.

Prezident İlham Əliyev Ermənistanın silahlandırılmasının təhlükəli olduğuna aydınlıq gətirərkən bildirib ki, ölkə ilə Azərbaycanın sərhədlərinin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələrimiz sərhədə yaxın yerləşir və həmin yaşayış məntəqlərinin əksəriyyətinə keçmiş köçkünlər qayıdıblar. Buna görə də rəsmi Bakı İrəvanın hərəkətlərini kənardan müşahidə etməklə kifayətlənə bilməz. “Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma, təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir”, – deyə dövlətimizin başçısı vurğulayıb.

Bəli, Ermənistanın silahlandırılması qlobal maraq və mənafelərdən qaynaqlanır. Məhz buna görədir ki, İrəvan illüziya bataqlığından çıxa bilmir, avantürizmindən əl çəkmir. ABŞ, Fransa və Hindistan kimi ölkələrin Cənubi Qafqazla bağlı planları var. Birləşmiş Ştatların hazırda fəaliyyətdə olan administrasiyasının ölkəni düçar etdiyi acınacaqlı durum göz önündədir. Nəzərə alaq ki, Ukraynanı Rusiya ilə müharibəyə cəlb edən kollektiv Qərbin başlıca hərəkətverici qüvvəsi sayılan ABŞ-dır. Ukraynanın düşdüyü durum isə ortadadır. Hindistana gəldikdə, ölkə bir vaxtlar Azərbaycanda da seyr edilən hind filmlərinin qeyri-real məzmuna köklənmiş durumdadır. Nyu-Dehli silah satışı bazarları əldə etmək və dünyaya özünü hegemon qüvvə kimi göstərmək əzmindədir.

Yenidən gələk Fransanın üzərinə. Makron administrasiyası ölkə tarixi üçün ləkədir. Prezident İlham Əliyev müsahibəsində bu fikirləri əbəs yerə bildirməyib: “Avropanın mərkəzində – Korsikada onlar (Fransa - red) Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu demokratiyadır? Bu, insan hüquqlarıdır?”

Həqiqətən, Fransanın hazırda düşdüyü durum son dərəcə acınacaqlıdır. Makron administrasiyası isə təkcə insan hüquq və azadlıqlarına əhəmiyyətsiz yanaşması ilə hiddət doğurmur. Dövlətimizin başçısı deyib: “Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir”.

Əsl məsələ həm də ondadır ki, Makron uğursuzluğunu aradan qaldırmaq üçün Fransanı kollektiv Qərbin planlarının gerçəkləşməsi katalizatoru obrazında təqdim edir. O, yaxşı anlayır ki, Cənubi Qafqaz siyasi platformasına aktivliyini gücləndirən Qərb Rusiyanı bölgədən sıxışdırmaq niyyətindədir. Mövcud durumda Fransa Prezidenti özünü, necə deyərlər, Roma papasından daha artıq katolik kimi aparmağa girişib. Ermənistan məhz buna görə silahlandırılmaqdadır və görünən odur ki, rəsmi İrəvan qarşıdakı müddətdə daha çox azğınlaşma yolu tutacaq. Diqqət yetirək, Paşinyan administrasiyasının təmsilçiləri xarici siyasət prioriteti baxımdan üstünlük verməyəcəklərini açıqladıqları qondarma “erməni soyqırımı” məsələsini yenidən qabardırlar. Üstəlik, Qarabağ avantürizmini “etnik təmizləmə” adlandırır və Qarabağ ermənilərinin bölgəyə qayıdışı klişelərini dövriyyəyə buraxırlar.

Sonda onu deyək ki, Prezident İlham Əliyevin “Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Ermənistanın silahlandırılması və prosesdə Fransanın, ABŞ-ın, Hindistanın və digər ölkələrin rol oynamalarına dair səsləndirdiyi ayrı-ayrı fikirlər, eyni zamanda, onu göstərir ki, Azərbaycan heç bir dövlətdən çəkinmir və istənilən təhdidə qarşı həm layiqli cavab vermək hüququnu özündə saxlayır, həm də bunun üçün əzm və iradəyə malikdir. Dövlətimizin başçısı, hər zamankı kimi, qəti əminlik formalaşdırır.

***Ə.RÜSTƏMOV***
***XQ***

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Məzahir Pənahovun sədrliyi ilə dekabrın 18-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə Komissiyanın 13 dekabr 2024-cü il tarixli iclas protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb. Diqqətə çatdırılıb ki, bildirişdə seçicinin soyadı, adı və atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı göstərilir, habelə seçicilərin məlumatlandırılması məqsədilə səsvermə qaydaları illüstrasiyalarla aydın izah olunur. Komissiya üzvlərinin bildirişlə bağlı müzakirəsinin ardınca səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 6 milyon 52 min 721 bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verilib.

Mərkəzi Seçki Komissiyasının iclasında daha sonra qarşıdan gələn bələdiyyə seçkilərində Klassik Xalq Cəbhəsi Partiyası və Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb və Komissiya sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxsləri səlahiyyətli nümayəndələr kimi qeydə alıb.

Media subyektləri nümayəndələrinin geniş iştirak etdiyi iclasda, həmçinin bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə məlumat verilib, namizədlərin irəli sürülməsi və qeydə alınması ilə bağlı statistik göstəricilər elan olunub və cari məsələlərə baxılıb.

***XQ***

# Sülhün “durğunluq” dövrü

## *Yaxud “avrokəşfiyyatçılar”ın missiyasının müddətinin uzadılması bölgəyə nə verəcək?*

**(əvvəli 1-ci səhifədə)**

Hayların baş naziri bu məsələyə kompleks baxılacağını və konstitusiya islahatı proqramının qarşıdakı iki il ərzində işçi qrup tərəfindən hazırlanacağını açıqlayıb. Yəni, 2027-ci ilədək – Ermənistan hökumətinin konstitusiya referendumunu təyin edəcəyi tarixə qədər bu məsələdə irəliləyiş gözləməyə dəyməz.

Bundan başqa, sülhü əngəlləyən məqamlardan biri də Avropa İttifaqının Ermənistandakı casus missiyasıdır. Adı mülki gedən bu missiyanın qaranlıq fəaliyyəti barədə Bakının bəyanatlarını, eləcə də ekspertlərin açıqlamalarını təhlil edərək belə nəticəyə gəlmək olar ki, bu məqam danışıqlar prosesində müzakirə predmeti olmasa da, reallıqda ikitərəfli təmaslara mənfi çalarlar qatır. Məhz bu məqamın üzərində bir qədər ətraflı dayanmağa lüzum görürük.

* * *

Son vaxtlar Azərbaycan Aİ missiyasının fəaliyyətindən, ümumiyyətlə, onun mövcudluğundan narazılığını daha aydın şəkildə ifadə etməkdədir. Bu barədə Prezident İlham Əliyev “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib. Onun sözlərinə görə, başqa ölkələrin nümayəndələrinin Azərbaycanla sərhəddə yerləşdirilməsi qəbulolunmazdır: “Bu məsələ niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...”.

Dövlət başçısı müsahibəsində onu da xatırladıb ki, ilkin olaraq 40 nəfərin yerləşdirilməsindən söhbət gedirdisə, sonra onların sayı 200 nəfərdən çox artırıldı: “Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi. Sonra oraya Kanadanın nümayəndələri qoşuldu”.

Fakt ondan ibarətdir ki, bu başabəla missiyanın müddəti uzadılanda heç kim Bakı ilə məsləhətləşmədi. İndi isə onun müddətinin artırılması ilə bağlı danışıqlar aparılır. Ermənistan və Azərbaycan arasındakı şərti sərhəddə Qərbin “binokl diplomatiyası”na qətiyyən ehtiyac yoxdur. Bu amil Azərbaycanın Aİ ilə onsuz da kövrək münasibətlərinə yalnız xələl gətirir.

Bir qədər bundan əvvəl Prezidentin köməkçisi – Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ-nin Ermənistan–Azərbaycan şərti sərhədində missiyasının fəaliyyətinin yekunlaşmalı olduğunu bildirərək, bu missiyanın qısamüddətli olaraq planlaşdırıldığını qeyd etmişdi: “Aİ-nin missiyası regionda sülhün bərqərar olmasına töhfə verən amil deyil. Sərhəddə üçüncü tərəfin olması yalnız gərginliyin artmasına səbəb olur. Bəzi Avropa ölkələri isə Aİ missiyası adından çıxış edərək Ermənistanda öz planlarını həyata keçirirlər”.

* * *

“Sülh danışıqlarında müşahidə edilən durğunluğun səbəbləri Azərbaycandan asılı deyil”. **Bunu mövzu ilə bağlı açıqlamasında XQ-yə bildirən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** sülh prosesindən müəyyən irəliləyişin olmasına da diqqət çəkdi: “Hər halda, tərəflər sülh sazişinin 17 maddəsindən 15-ini razılaşdırıblar. Yerdə qalan iki maddədən biri Avropa İttifaqının müşahidəçilərinin şərti sərhəddə dayanmasıdır. Digəri isə beynəlxalq müstəvidə bir-birimizə qarşı iddialarla çıxış etməməklə bağlıdır. Bu məqamı dövlətimizin başçısı “Rossiya Seqodnya”ya müsahibəsində xüsusi olaraq vurğulayıb. Azərbaycan və Ermənistan rəsmiləri arasında Kazanda baş tutmuş məlum görüşdə rəsmi İrəvanın bu məsələdə yumşaq mövqe nümayiş etdirməsi nəzərdən qaçmadı. Əslində, bunu müsbət tendensiya kimi qiymətləndirə bilərik. Amma təbii ki, Azərbaycanın digər tələblərinin aradan qaldırılması üçün konkret addımlar atılmır. Əsas tələbimiz isə Ermənistanın konstitusiyasında, müstəqillik bəyannaməsinin preambula hissəsində Azərbaycana ərazi iddiaları ilə bağlı bəndlərin çıxarılmasıdır. Orada Qarabağın Ermənistan ərazisi kimi qələmə verilməsi ilə necə razılaşa bilərik? Qəti surətdə qəbulolunmaz iddiadır. Yəni, Bakının bütün şərtləri beynəlxalq hüquqa və normalara əsaslanır. Əgər İrəvan, doğrudan da, sülhə nail olmaq istəyirsə, bu şərtlərə əməl etməlidir. Ortada Ermənistanın maraqlarına zərbə vuracaq, ona toxunacaq məsələ yoxdur. Bunlar öz həllini tapana qədər nə sülh sazişinin imzalanmasından, nə də təhlükəsizliyin təmin olunmasından danışmaq olar”.



Hazırda İrəvan qəribə vəziyyətə düşüb. Onun Bakıdan Aİ-nin müşahidə missiyasının varlığına son qoyulması ilə bağlı aldığı ciddi siqnalların fonunda “binokllu diplomatlar”ın səlahiyyət müddətinin uzadılması barədə Brüsselə müraciəti heç də məqbul variant sayıla bilməz. Çünki Ermənistan hakimiyyəti bu addımı ilə sülh prosesinə ciddi zərbə vuran tərəf kimi bölgədə maraqları olan bəzi kənar aktorların da qınağına tuş gələ bilər. Bundan daha maraqlı məqam isə Paşinyan hökumətinin bu halda konkret hansı addımı atacağını əvvəlcədən proqnozlaşdırmağın qeyri-mümkünlüyüdür.

“Sülh müqaviləsinin bəndlərindən biri iki ölkə arasında sərhədin müəyyən edilməsi prosesindən bəhs edir. Azərbaycan şərti sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsinə qarşıdır. Bu zaman həmin qüvvələrin silahlılardan, yaxud “mavi jiletlilər”dən ibarət olmasının Bakı üçün fərqi yoxdur”. **Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri Fərhad Məmmədov** bunu özünün “Opinion FM” teleqram kanalında dərc etdirdiyi məqaləsində vurğulayıb.



F.Məmmədovun sözlərinə görə, burada məntiq sadədir: Əgər danışıqlar masası arxasında üçüncü tərəf yoxdursa, deməli, ərazidə də əlavə heç kim olmamalıdır: “Nikol Paşinyan bu yaxınlarda bəyan etdi ki, Avropa İttifaqının mülki müşahidəçiləri bundan sonra sərhədin delimitasiya və demarkasiya edilən hissələrində görünməyəcəklər. Yəni, onun sözündən dolayısı ilə belə çıxır ki, “avrokəşfiyyatçılar” hələ uzun müddət Azərbaycanla sərhəddə qalacaqlar. Ermənistanın Azərbaycanın narazılığına səbəb olan məsələyə bu cür yanaşması ilə sərhədin müəyyənləşdirilməsi üzrə hökumətlərarası komissiyanın apardığı işin effektivliyini şübhə altına almış olur. O, bununla komissiyanın fəaliyyətini iflic vəziyyətinə sala bilər. Rəsmi İrəvan nəzərə almalıdır ki, bu halda Azərbaycan da hökumətlərarası komissiyanın öz işini davam etdirməsi üçün Aİ-nin mülki missiyasının Ermənistandakı fəaliyyətinə son qoyulması şərtini rəsmi şəkildə irəli sürə bilər”.

Əslində, Prezidentin köməkçisi Hikmət Hacıyevin yuxarıda diqqətinizə təqdim etdiyimiz açıqlamasını bunun ilk siqnalı olduğunu deyə bilərik.

Siyasi icmalçı F.Məmmədov diplomatik və digər missiyaların işçilərinin sayının əvvəlcədən elan olunmasına baxmayaraq, Aİ-nin xarici siyasət fəaliyyətində prioritet kimi Ermənistanı seçdiyinə diqqəti çəkdi: “Eyni zamanda, Ermənistan iqtidarı son vaxtlar Aİ-nin dörd minlik patrul xidməti barədə xəbərləri həvəslə tirajlayır. Üstəlik, Fransanın İrəvandakı səfiri Dekotini ölkəsinin dəstəklədiyi missiyanın naməlum fəaliyyətini cəsarətlə tərifləyir, onu “Türklərin hücumu qarşısında erməni xalqının təhlükəsizliyi” üçün, az qala, xilasedici rolundan danışır”.

Aydın məsələdir ki, İrəvanın bütün bu hərəkətləri “kollektiv Qərb”də məmnunluq yaratmaqla yanaşı, Bakıya Aİ missiyasının bölgədən getməyəcəyi barədə mesajı çatdırmaq məqsədini daşıyır. Xatırladaq ki, Ermənistan hakimiyyəti gələn ilin fevralında səlahiyyət müddəti başa çatacaq Aİ-nin mülki missiyasının fəaliyyətinin uzadılması ilə bağlı hələlik Brüsselə müraciət göndərməyib.

* * *

Ümumiyyətlə, rəsmi İrəvanın son davranışları göstərir ki, o, münaqişənin yekun və hərtərəfli həllinə müqavimətini gücləndirmək üçün xarici amillərdən yararlanmaq taktikasına sadiqdir. Bu zaman Cənubi Qafqazda öz maraqlarını güdən xarici qüvvələrin Ermənistandan bölgədə sabitliyi pozmaq üçün ona fürsət vermək kimi məkrli planlarından əl çəkmədiklərini də müşahidə edirik. Konkret indiki durumda Paşinyan iqtidarının “xəstə üçün ölümcül sayılan simptomların birləşməsindən” əziyyət çəkdiyini deyə bilərik. Yəni, Ermənistan həm Azərbaycanla sülhə gəlmək yolunda cəsarətsizliyini, həm də müstəqil qərarların qəbulunda siyasi iradəsizliyini növbəti dəfə nümayiş etdirir. İrəvanın sülh danışıqları üzərində manipulyasiyalarını davam etdirməsi fonunda ərazisində yerləşdirdiyi Avropa İttifaqının müşahidə missiyasının “faydalı xidmətini” qabartmağa çalışması təsadüfi sayıla bilməz. Azərbaycan hakimiyyəti lap əvvəldən bu missiyanı bölgə üçün faydasız bir qurum hesab edib. Axı, bu buqələmun missiyanın kimi-kimdən və nədən qoruduğu, Ermənistanın təhlükəsizliyinə hansı formada töhfə verdiyi, şərti sərhəddə nələri müşahidə etdiyi heç İrəvanın özünə də məlum deyil. Həmin kontingentin istefada olan fransız və alman jandarm və hərbçilərdən, yəni xüsusi xidmət orqanlarının agentlərindən təşkil olunduğu da sirr deyil. Onların iki ölkənin sərhəd zolağında “kollektiv Qərb” üçün məxfi məlumatlar toplamaqla məşğul olmaları müzakirə mövzusudur.

Nəhayət, Paşinyan özü də yaxşı anlayır ki, Ermənistanı Aİ-yə, yaxud NATO-ya qəbul edən yoxdur. Bu kimi məsələlər gündəlikdə durmur. Parisdən, Brüsseldən və Vaşinqtondan aldığı təlimatlar əsasında hərəkət edən həmin təşkilatların Azərbaycana qarşı qərəzli mövqedən çıxış etmələri hamıya yaxşı məlumdur. Əslində, bütün bunlar Paşinyanın sülh dasnışıqlarını durğunluq zolağına salan, prosesi tormozlayan siyasətinin təzahürləridir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan interregional güc kimi



## II MƏQALƏ

**Mən inanıram, əminəm ki, biz müstəqilliyin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

### Türk dünyasında interregional təcrübə

Bu təcrübənin başlıca xüsusiyyəti ortaq etnik mənsubluğa, tarixə, dinə, mədəniyyətə malik xalqların müasir mərhələdə müstəqil dövlətlər kimi perspektivli əməkdaşlığını qurmaq fəlsəfəsinə əsaslanır. Burada mühüm şərt kimi, dövlətlərin Türk dünyası üçün ortaq olan aktual problemləri obyektiv müəyyən etməsi vacib idi. Çünki müasir təcrübə göstərir ki, heç də hər bir regionlararası təşkilatlar uğurlu olmur. Bundan başqa, türk dövlətləri uzun fasilədən sonra müstəqil dövlətlər olaraq bir araya gəlməlidirlər. Bu baxımdan, Azərbaycanın regional güc kimi (Cənubi Qafqaz nəzərdə tutulur) təcrübəsi əhəmiyyətli rol oynamaqdadır. Bakı bu təcrübə əsasında Türk dünyası miqyasında aktual ortaq problemlərin müəyyən edilməsi və onların həlli ilə bağlı fəallıq göstərir. Üzv dövlətlərin hər biri bu fəallığı qəbul edirlər, çünki Azərbaycanın Cənubi Qafqaz təcrübəsi mövcuddur. Hətta bu təcrübəni TDT-də nümunə kimi qəbul edirlər.

Bunlarla yanaşı, Türk dünyası miqyasında bizim qəbul etdiyimiz anlam kontekstində interregional güc olmaq ayrıca keyfiyyətlər də tələb edir. Məsələ belədir ki, interregional güc olmaq üçün problemlərin müəyyən edilməsində fəallıq yetərli deyildir, onların həllində faydalı olmaq xüsusi əhəmiyyət kəsb edir. Çünki dövlət real gücünü hansı istiqamətdə – mədəniyyət, siyasət, iqtisadiyyat, ticari, informasiya, humanitarlıq, təşkilatlanma və s., göstərə biləcəyini də dəqiq müəyyənləşdirməlidir. Ola bilsin ki, bu istiqamətlərin müəyyən qrupuna və ya bütövlükdə, hamısına aid olan məsələlər üzrə dövlət gücünü nümayiş etdirə bilsin.

Digər tərəfdən, TDT üzvü olan ölkələr və xalqlar bir-birinə nə qədər yaxın olsalar da, realpolitika müstəvisində müəyyənedici kriteriya konkret göstəricidir. Buna görə də Azərbaycanın TDT-də güc kimi seçimi çox əhəmiyyətlidir. Faktlar göstərir ki, rəsmi Bakı TDT-də, demək olar ki, ortaq problemlərin hər birini əhatə edən siyasət yeritməkdədir. Bura təşkilatlanma mexanizmindən tutmuş müxtəlif sferalara aid ortaq proqramlar, kommunikasiya sahəsi və milli təhükəsizliyin təmini də daxildir. Onların heç birini arxa plana atmaq doğru deyil.

Lakin interregional güc kontekstində iki faktoru ayrıca vurğulamaq istərdik. Onlardan biri Türk dünyasına daxil olan ölkələrin milli təhlükəsizliyinin təminidir. Digəri isə humanitarlıqdır. Çünki milli təhlükəsizlik və humanitarlıq müasir mərhələdə interregional güc olmanın universal prinsipləri kimi qiymətləndirilir. Bura hər hansı etnik faktor aid deyildir. Ümumiyyətlə, dövlətlərin münasibətlərində milli təhlükəsizlik və humanitarlığı universal bəşəri dəyərlər kimi qəbul edib, realpolitikada tətbiqini interregional güc olmanın başlıca şərti kimi təsəvvürə gətiririk.

Məsələnin bu cür qoyuluşunun vacibliyini qısa müqayisədə izah edək. İndiki mərhələdə hətta böyük güclər belə milli təhükəsizlik və humanitarlıqda obyektivliyi və ədaləti tam gözləyə bilmirlər. Bununla bağlı politoloqların apardıqları araşdırmalar göstərmişdir ki, bu, faktiki olaraq, dünya düzənini pozur və bəşəriyyəti yanlış istiqamətə sürükləyir. Bütövlükdə vəziyyət elə kəskinləşir ki, dünyanın mövcud olub-olmaması məsələsi meydana çıxır.

Bundan başqa, əgər hazırda dünyaya regionların sistemi kimi baxılırsa, onda hər bir regionda milli təhlükəsizlik və humanitarlığın etibarlı təmininin yekunda qlobal miqyası üçün strateji məna kəsb etdiyi qənaətinə gəlirik. Bu tezisin dərk edilməsi interregional güc anlayışının başqa bir əhəmiyyətini anlamağa yardım edir.

Biz, faktiki olaraq, qlobal miqyasda təhlükəsizlik və humanitarlığın təminində interregional güclərin həlledici rol oynaya biləcəyi tezisini nəzərdə tuturuq. Bu mexanizm regionlararası miqyasdan qlobal miqyasa geosiyasi transformasiyanın özəlliyini ortaya çıxarır. Deməli, Azərbaycanın regional və TDT çərçivəsində ortaq problemləri uğurla həll etmək təcrübəsi həm onun interregional güc kimi, həm də qlobal miqyasa müsbət təsiri baxımından malik olduğu potensial fonunda son dərəcə əhəmiyyətlidir.

Müşahidələr göstərir ki, rəsmi Bakı uğurla bu təcrübəni interregional mühitə və qlobal miqyasa proyeksiya edə bilir. Fəlsəfi və politoloji prizmada bizim üçün həmin məqam olduqca əhəmiyyətlidir. Həm də ona görə ki, artıq Azərbaycanın interregional güc kimi qlobal miqyasda ortaq problemlərin həllində aktiv iştiraka imkan verən təcrübəsi mövcuddur. Həmin təcrübə maraqlı formada milli təhlükəsizliklə humanitarlığı sintez etmək nümunəsi ola bilər. Biz Qoşulmama Hərəkatında (QH) Azərbaycanın fəaliyyətini nəzərdə tuturuq.

### QH sınaq meydanı kimi

Sözün həqiqi mənasında, QH Azərbaycan üçün interregional güc olmaq fəlsəfəsini daha geniş geosiyasi məkanda sınaqdan çıxarmaq üçün fəaliyyət meydanı oldu. Bura İslam Konfransı Təşkilatını (İKT) da aid edə bilərik. Lakin QH-nin fərqi ondan ibarətdir ki, ona müxtəlif sivilizasilayar, dinlər, mədəniyyətlər, hərbi sistemlər daxildir. QH obrazlı şəkildə "Qlobal Cənub" da adlandırılır. Bu da coğrafi baxımdan faktiki dünyanın yarısı deməkdir. Buna görə də Azərbaycan dünyanın yarısına TDT-dəki interregional güc olmaq təcrübəsini necə proyeksiya edə bilərdi?

Bizim qənaətimizə görə, rəsmi Bakı məhz milli təhlükəsizlik və humanitarlığı başlıca istiqamət kimi götürdü və uğurlu addımlar atdı. QH üzvü olan ölkələrin milli təhlükəsizlikləri onlara qarşı aparılan neokolonialist siyasətin neytrallaşdırılması kontekstində diqqət mərkəzində saxlandı. Humanitarlıq isə üzv dövlətlərə ədalətli yanaşma ilə qarşılıqlı yardımlaşma və paylaşmanın uyğunlaşdırılması fonunda təzahür etdi. Azərbaycan Prezidenti hər iki aspekt üzrə elə sistemli, ədalətli və davamlı addımlar atdı ki, BMT miqyasında əks-səda verdi. Dünya üçün ən kəskin vaxtda rəsmi Bakı ədalətlilik, humanitarlıq və təhlükəsizliyin təmini üçün real addımlar atdı. Bu, TDT-də güc olmaq təcrübəsinin daha geniş miqyasda maraqlı bir tətbiqi və həm də onun sınağı idi. Eyni zamanda, Azərbaycan digər regionlararası təşkilatlar kontekstində uğurlu fəaliyyətin güc statusunda aparılması təcrübəsi əldə etdi.

Beləliklə, TDT-də interregional güc olmaq təcrübəsinin QH-də fəaliyyətlə sintezi Azərbaycana elə bir təcrübə qazandırdı ki, o, daha mürəkkəb şərtlər altında interregional güc kimi özünü təsdiq etməkdə mühüm rol oynadı. Bu, konkret olaraq, Suriya məsələsində özünü göstərdi.

### Bakının Suriya məsələsində interregional rolu

Bəlkə də əksər siyasilər, politoloqlar və ekspertlər üçün məsələnin bu cür qoyuluşu real və inandırıcı olmaya bilər. Çünki zahirən Azərbaycanın Suriyada proseslər gedəndə ona heç bir müdaxiləsinin olmadığı təəssüratı möhkəm yer almışdır. Ancaq situasiyaya geniş və müasir geosiyasətin özəllikləri prizmasında baxanda maraqlı məqamları görə bilərik.

Öncə onu vurğulayaq ki, Azərbaycan bu məsələdə siyasi-diplomatik çərçivəni aşan heç bir addım atmadı. Ancaq, eyni zamanda, diplomatik fəaliyyəti ilə bir çox məsələlərin həllinə ciddi təsirlər etdi. Bu qənaəti Suriya məsələsi həll olunandan sonra baş verən proseslər və onlara verilən qiymətlər təsdiq edir. Həmin sırada Prezident İlham Əliyevin Türkiyə Prezidentinə Suriya ilə bağlı mövzuda zəng etməsini və Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin İsrail və Türkiyəyə səfərlərini vurğulamaq olar.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında Suriyanın ərazi bütövlüyünü dəstəklədiyini, sakit, sabit və təhlükəsiz ölkə quruculuğunu doğru hesab etdiyini bildirmişdir. İlham Əliyev bu istiqamətdə Azərbaycanın hər cür humanitar yardıma hazır olduğunu da bəyan etmişdir. Yəni Azərbaycan Respublikası Suriya məsələsində artdığı interregional güc təcrübəsi olan dövlət kimi, orada aparılacaq quruculuq işlərində humanitar aspektdə fəaliyyət göstərəcək.

Buna paralel olaraq, Azərbaycan diplomatiyası özünü reklam etmədən Yaxın Şərqdə milli təhlükəsizliyin təmini üçün fəallıq göstərmişdir. Bu baxımdan Azərbaycan Prezidentinin atdığı addımlar ictimaiyyətə çoxdan məlumdur. KİV-də verilən məlumatlara görə, Prezidentin köməkçisi Hikmət Hacıyevin İsrail və Türkiyədə apardığı danışıqlar, bütövlükdə, Yaxın Şərqdə təhlükəsizlik, sülh və barışa aiddir. O cümlədən, Suriya məsələsində Türkiyə ilə İsrailin ortaq mövqeyə gətirilməsinə xidmət edir. Ümumi səviyyədə bu, interregional kontekstdə milli təhlükəsizliyin və humanitarlığın təmini istiqamətində fəaliyyət deməkdir.

Maraqlıdır ki, Azərbaycan, eyni zamanda, Yaxın Şərqi də əhatə edən və enerji təhlükəsizliyi əsasında mili təhlükəsizliyə xidmət edən addımları davamlı olaraq atır. Bakının təşəbbüs etdiyi enerji layihələri İraqı, Suriyanı və Yaxın Şərqin digər dövlətlərini əhatə edir. Enerji layihələrinin nəqliyyat-logistika proyektləri ilə qarşılıqlı əlaqədə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Belə alınır ki, rəsmi Bakı Azərbaycanın TDT və QH-dəki interregional güc təcrübəsini növbəti dəfə Yaxın Şərqdəki situasiyaya tətbiq edir. Bu, vacib bir gedişatdır. Bir tərəfdən, Azərbaycan müstəqil dövlət kimi regionlararası miqyasda geosiyasi rolunu yeni səviyyəyə yüksəldir, digər tərəfdən isə qlobal miqyasda uğurlu fəaliyyət üçün təcrübəsini zənginləşdirir.

Bütün bunlardan əhəmiyyətli və aktual saydığımız bir qənaət əldə də bilərik: Azərbaycan yeni tarixi mərhələdə regional, interregional və qlobal miqyaslarda geosiyasi güc kimi özünütəsdiqin növbəti mərhələsinə qədəm qoymuşdur.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

## Mark Endeveld

**(əvvəli qəzetin 17–18 dekabr tarixli saylarında)**

Gələcək prezident, seçki kampaniyasında Sarkozistlərdən və ya Hollandçılardan kömək alsa da, V Respublikanın sirlərini yaxşı bilən köhnə şəbəkələrdən də məharətlə istifadə etdi. Belə bir şəraitdə heç də təəccüblü deyil ki, Aleksandr Benalla kimi və ya Mitt eranın hakimiyyətinin ilk illərində onun siyasi rəqiblərinin telefon danışıqlarına qulaq asmaqda günahlandırılan və cəzalandırılan Yelisey sarayının jandarm qrupunun keçmiş rəisi Kristian Pruto kimi şübhəli adamlar onun ətrafında peyda oldular. Onların ikisi də Yeliseydə prezidentin təhlükəsizliyini yenidən təşkil etmək üçün icraçı rəhbər seçildilər.

### "Şeytanın təbəssümü"

Rotşild bankında işləyəndə, Emmanuel Makron Əlcəzair Mərkəzi Bankının keçmiş direktoru Abderrahman Hacı-Nacerlə tanış olmuşdu. Keçmiş bank direktoru bu cavan oğlanı ilk dəfə ortaq bir dostu ilə nahar zamanı görmüşdü. Yeməkdən sonra Əlcəzairli iqtisadçı Fransanın gələcək prezidenti haqqında belə bir ifadə işlətmişdi. "Onun üzündə şeytan təbəssümü var!". Bu təbəssümün arxasında ideal kürəkən obrazı bağışlayan Emmanuel Makron onun düşmənlərinin o qədər də fərqinə varmadığı bir sərtlik və zalımlıq gizlədir. 2017-ci ilin mart ayında, prezident seçkiləri kampaniyasının qızğın çağında Manuel Vallsın ona qarşı ikiüzlülük etdiyini başa düşən gələcək prezident, yaxın dostlarından birinə demişdi: "Hiss olunur ki, o, məni başa düşmür. Eybi yox, indi biz ona, real döyüş sursatı ilə hücum edərik". Fransua Hollandın "mülayim və ürəyiyumşaq Emmanuel" adlandırdığı bu adam – düzdür, bəzən tabeliyində olan qeyri-rəsmi məsləhətçilərindən hansınasa bir qutu şokolad hədiyyə edə bilər – əslində, kinli, başqalarına yuxarıdan aşağı baxan, həyasız, verdiyi salamı da məqsədlə verən bir adamdır. Makron prezident seçiləndən sonra onun əsl təbiəti haqqında danışanların sayı az da olsa, artıb. Düzdür, onlar prezidentin necə xarakterli bir adam olduğunu nə kamera qarşısında, nə də mikrofon önündə açıqlamırlar. Ancaq öz çevrələrində, yaxın dostlarının yanında etiraf edirlər ki: "Makron özünü insanlara şirin satır, onlardan istifadə edir, sonra da əlini sildiyi kağız dəsmal kimi onları kənara atır". "Makron ona kölgə salan adamları – istər, dostu olsun, istərsə də, düşməni – tapdalayıb əzir", – deyə onun keçmiş həmkarlarından biri etiraf edir. "Makron kimisə irəli çəkməkdə, kimisə səhnəyə çıxarmaqda əla mütəxəssisdir. Lakin sonra irəli çəkdiyi, səhnəyə çıxartdığı adamın başına bir güllə vurub onu məhv edir", – deyə onun başqa bir keçmiş həmkarı təşviş içərisində pıçıldayır.

Fransanı "Nümunəvi Respublika" kimi təqdim edən Emmanuel Makronun cəlbedici görüntüləri və gözəl çıxışları arxasında, onun yaratdığı bulanıq siyasi super-prezidentlik, Qərb demokratiyasından seçilən, respublika monarxiyasına daha çox bənzəyən bir sistem dayanır.

Bu arxaik siyasi mexanizmlər, prezidentin lap yaxın çevrəsindəki adamlar tərəfindən tamamilə qəbul olunub və mükəmməl bir şəkildə həyata keçirilir. Aleksandr Benalla murdar hərəkəti ilə bütün ölkədə böyük qalmaqala səbəb olan bu adam da prezidentin yaxın çevrəsinə daxildir. "Əslində, Yelisey sarayında hər şey, sizin prezidentlə nə qədər yaxın olub-olmadığınız üstündə qurulub. Məsələn, prezident sizi görəndə gülümsəyirmi, sizi adınızla çağırırmı və sairə... Bu şah sarayına mənsub olan bir fenomenidir". Bu sözləri Arian Şeminin və Fransua Krüqun may ayının 1-də baş verən skandal haqqında yazdıqları məqalədən bir neçə gün sonra prezidentin keçmiş "missiya icraçısı" Le Monde qəzetinə verdiyi müsahibəsində deyib. Bu məsələ (Benalla məsələsi) sadəcə bir "yay serialıdır" deyə prezidenti dəstəkləyənlərdən biri, bu skandalı minimuma endirməyə cəhd edir. Bu hadisə həm prezidentin özünü, həm onun çevrəsini, eləcə də bütün dövlət qurumlarını əməlli-başlı vəlvələyə salmışdı. Biz bu məsələ barəsində sonrakı səhifələrdə ətraflı danışacağıq.

İyulun sonunda, mayın 1-də baş verən hadisənin ortaya çıxmasından bir müddət sonra indiyə qədər bu məsələ barəsində heç bir fikir bildirməyən dövlət başçısı Latın Amerikası Evindəki toplantıda ona sadiq adamların qarşısında Aleksandr Benalla haqqında danışıb ona haqq qazandırandan sonra gurultulu alqışlar altında qətiyyətlə əlavə edir: "Bu məsələdə yeganə cavabdeh ancaq və ancaq mən özüməm. Nə istəyirlər qoy mənə eləsinlər". Bir neçə həftə sonra bu sözləri deyən adam "Avropa" radiosunun mikrofonu qarşısında jurnalistlərdən




xahiş etdi ki, onun keçmiş həmkarına (Benalla) qarşı bir az "mərhəmətli" olsunlar. Nə səbəbə prezident əvvəl dediyini indi inkar edir?

Məsələ burasındadır ki, istintaq zamanı ortaya çıxdı ki, Aleksandr Benalla prezidentliyə namizəd Makronun seçki kampaniyası zamanı istifadə etdiyi bütün gizli şəbəkələrin sirrini bilir. Ona görə də o vaxt prezidentliyə namizədin Çad ölkəsinə səfəri ilə bağlı qalmaqallı məsələlərin, eləcə də onun şübhəli Fransa-Afrika əlaqələrinin qəflətən ortaya çıxması, dövlət başçısının danışıq tonunda bəzi dəyişikliklər yaratdı. Prezidentin mətbuat xidməti ölkəyə çatdırdı ki, Aleksandr Benalla Yelisey sarayında "heç vaxt nə rəsmi, nə də qeyri-rəsmi vasitəçi olub".

Göründüyü kimi hakimiyyətdə olan şəxs, heç üzdə də olsa, özünün keçmiş missiya icraçısına dayaq durmur. Ancaq buna baxmayaraq, birbaşa hakimiyyətə ünvanlanan bir çox suallar cavabsız qalır: "nəyə görə Yelisey sarayı mayın 1-də baş verən qalmaqallı məsələdən sonra prezidentin keçmiş köməkçisini müdafiə etdi? Aleksandr Benallanın evindəki seyf niyə yoxa çıxdı? Onu kim və nə üçün aradan götürdü? Hansı səbəblərə görə bu adamda iki diplomatik pasport və iki xidmət pasportu olub? Niyə həm prezidentin özü, həm də onun bəzi yaxın əməkdaşları Aleksandr Benalla prezident sarayından birdəfəlik gedəndən sonra onunla əlaqə saxlamaqda davam ediblər?".

Ümidvarıq ki, əlinizdəki bu kitab sizə bu cür çoxsaylı sualların cavablarına aparan yeni-yeni yollar göstərəcək.

2019-cu ilin fevralında senatorların mətbuatda nəşr olunmuş hesabatlarından məlum oldu ki, Aleksandr Benalla ilə bağlı bu skandal, prezident sarayında baş verən "əsas disfunksiyaların" üstünə çox güclü və gözqamaşdırıcı bir işıq salır. Mediapart saytı üzə çıxardı ki, Vəncan Qras və onun "şilləvuranı" Aleksandr Benalla rus oliqarxları İsgəndər Mahmudov və Fərhad Əhmədovla 2,2 milyon avro müqabilində təhlükəsizlik müqavilələri imzalayıblar!

Bu ifşaların qarşısında prezidentin yaxın köməkçiləri və onun mətbuat xidməti bütün günahları keçmiş "missiya icraçısı" Aleksandr Benallanın boynuna qoydular – hər şeyin günahı ondadır. Mediada onların bu texnikasını "yeganə fiksasiya nöqtəsi" adlandırdılar. Benalla serialında hər gün yeni faktların ortalığa çıxması nəticəsində, dövlət başçısının cavabdehliyi onun yaxın və sadiq adamları tərəfindən tədricən kənara qoyuldu.

17-ci əsrdə qələmə alınan "Saray adamı" əsərinin müəllifi Baltasar Qrasian yazırdı: "İnsanı dostlarına görə mühakimə edərlər".

**(ardı var)**

# Bir haypərəst də o yandan çıxdı

**Ermənistan iqtidarının yürütdüyü siyasətin ziddiyyətli olması heç kəsə sirr deyil. Bugünlərdə bu ziddiyyət özünü bir daha aydın şəkildə göstərdi. Söhbət dekabrın 12-13-də İrəvanda “Soyqırımı cinayətlərinə qarşı” V qlobal forumun (?) keçirilməsindən gedir. Ziddiyyət bir tərəfdən rəsmi İrəvanın Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə danışıqlar apardığı, eyni zamanda, Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışdığı halda Ermənistan paytaxtının Bakı və Ankara üçün belə həssas mövzuda toplantıya evsahibliyi etməsi ilə bağlıdır. Yəni, iki ölkə ilə həm əlaqələr qurmağa çalışmaq, həm də onları tarixdə heç vaxt olmayan məsələlərdə ittiham etmək bir çərçivəyə sığmır.**

Burada digər ziddiyyət Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın bir müddət əvvəl, daha doğrusu, 2024-cü il oktyabrın 31-də ölkəsinin parlamentində verdiyi bəyanatla bağlıdır. O bildirmişdi ki, qondarma “soyqırımı”nın tanınması Hayastan XİN üçün prioritet məsələ deyil: “Ermənistan Türkiyə ilə dinamik və müsbət dialoq aparır. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistanla münasibətlərin normallaşması prosesini Ermənistan–Azərbaycan sülh prosesi ilə əlaqələndirir. Fikrimizcə, bu o qədər də konstruktiv yanaşma deyil. Ermənistan Türkiyə ilə ilkin şərt olmadan dialoq aparır”. Mirzoyan yaxın gələcəkdə Ermənistan–Türkiyə münasibətlərində mümkün irəliləyişlə bağlı nikbin olduğunu vurğulamışdı. Qondarma “erməni soyqırımı”nın beynəlxalq səviyyədə tanınması məsələsinin Ermənistan xarici siyasət idarəsinin gündəmində olub-olmaması ilə bağlı suala A.Mirzoyan belə cavab vermişdi: “Bu məsələ Ermənistanın xarici siyasət gündəmində prioritet deyil. Tarixin faciəvi ləkələrini, “erməni soyqırımı”nı öyrənmək və ya bunu bir nömrəli prioritet etmək, təbii ki, xarici işlər nazirliyinin işi deyil”.




Ancaq indi Ermənistan rəhbərliyinin İrəvanda belə bir forum keçirməsi, orada A.Mirzoyanın da iştirak və çıxış etməsi əvvəl bəyan edilmiş mövqeyə tərs mütənasibdir. Həmin forumda iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən ermənipərəstlər İrəvana təşrif buyurublar. Onlardan biri də BMT-nin milli azlıqların işləri üzrə sabiq xüsusi məruzəçisi Fernan de Varendir. Forumda iştirakı çərçivəsində Ermənistanın dövlət informasiya agentliyi – “Armenpress”ə müsahibə verən Varen deyib ki, Qarabağda baş verənləri “hərbi cinayət və ya insanlığa qarşı cinayət” hesab etmək olar. O, iddia edib ki, beynəlxalq hüquq baxımından Qarabağda baş verənləri asanlıqla “etnik təmizləmə” ilə də eyniləşdirmək olar.

“Armenpress”in müxbiri Varendən hayların xeyrinə olan daha bir neçə kəlmə “qoparmağa” çalışıb. Ona “Azərbaycanın 2023-cü ilin sentyabrında Qarabağda törətdiyi əməllər “soyqırımı” kimi qiymətləndirilə bilərmi?” məzmunda sual ünvanlayıb. Sabiq xüsusi məruzəçi isə deyib ki, əslində, soyqırımı beynəlxalq hüquqda müəyyən edilməsi çox çətin olan cinayətdir, çünki bu, xüsusi niyyət tələb edir: “Qiymətləndirmə üçün Qarabağda baş verənlərin bütün təfərrüatları barədə məlumatlı olmaq lazımdır. Mən isə belə məlumatlara malik deyiləm. Lakin soyqırımı cinayətinin, əslində, beynəlxalq hüquqda sübut edilməsi çox çətin cinayət olduğunu xatırlamaq lazımdır. Çünki bunun üçün xüsusi niyyət tələb edilir. Qarabağda yaşayan erməniləri fiziki cəhətdən məhv etmək niyyəti olubmu, yoxsa məqsəd onlardan qurtulmaq, bölgədən çıxarmaq olub? Əgər sonuncudursa, bu, beynəlxalq hüquqda soyqırımı cinayətinə uyğun gəlmir. Lakin bunlar başqa cinayət növləri də ola bilər”.

Bununla belə Fernan de Varen İrəvanda olmasını, erməni lobbisinin, necə deyərlər, cibinə pul basmasını, paytaxtın mərkəzindəki beşulduzlu “Marriott” hotelində qalmasını və digər nüansları nəzərə alaraq “məzlum ermənilər”i sevindirəcək sözlər düzüb-qoşmağı bacarıb. Deyib ki, Qarabağda “etnik təmizləmə”nin olması ilə heç kəs razılaşmaya bilməz. “Bu, soyqırımı deyil, amma istənilən halda “hərbi cinayət və ya insanlığa qarşı cinayət” hesab oluna bilər. Ona görə də beynəlxalq hüquq nöqteyi-nəzərindən hesab edirəm ki, Qarabağda baş verənləri çox asanlıqla “etnik təmizləmə” kimi müəyyən etmək olar” – deyə BMT-nin milli azlıqlar üzrə sabiq xüsusi məruzəçisi çərənləyib.

Eyni zamanda, “1915-ci il soyqırımı” mifinə gəlincə, Varen hətta, Türkiyənin bu cəfəngiyyatı gələcəkdə tanıya biləcəyi iddiasını da irəli sürüb: “Bir müddət sonra Türkiyə tərəfində bu məsələyə münasibətdə müəyyən dəyişiklik ola bilər. Fərqli siyasi, sosial və hüquqi kontekstləri olan vəziyyətlər ola bilər ki, nəticədə Türkiyə hökumətinin bunu “soyqırımı” kimi tanıması daha asan olacaq. Başqa sözlə, bu, bəlkə indi deyil, gələcəkdə baş verə bilər. Ona görə də təslim olmaq lazım deyil”.

Beləliklə, Hayastan mediası bir neçə gündür sevincək olaraq, daha bir cəfəngiyyatı, daha bir təxribatçı bəyanatı, yəni Fernan de Varenin sözlərini həvəslə tirajlayır. BMT-nin sabiq xüsusi məruzəçisinin Azərbaycan və Türkiyə ilə bağlı qərəzli açıqlamaları göstərir ki, Varen bir sıra beynəlxalq strukturlardakı çoxsaylı “həmkarları” kimi öz pulunu qazanan erməni lobbisinin növbəti alətidir. O, argentinalı həmkarı, Beynəlxalq Cinayət Məhkəməsinin sabiq (2003-2012) prokuroru Luis Moreno Okampo kimi artan xərclərini bu yolla qarşılamaq qərarına gəlib. BMT-nin sabiq xüsusi məruzəçisinin Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü olaraq tərk etmiş ermənilərin hüquqlarını bu qədər canfəşanlıqla müdafiə etməsini, lakin bir vaxtlar BMT-nin müstəqil eksperti statusuna malik olmasına baxmayaraq, indi Ermənistan adlanan Qərbi Azərbaycandan qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının kobud şəkildə pozulması, ermənilərin işğal etdiyi Azərbaycan əraziləri barədə bir kəlmə də olsun danışmamasını başqa necə izah etmək olar? Cavab aydındır. Uzun müddətdir ki, Qərb strukturlarının, o cümlədən BMT-nin ayrılmaz tərkib hissəsi olan ikili standartlar, eləcə də şəxsi mənfəət hissi bu cür şəxsləri yeri gələndə susmağa, lazım olanda isə necə deyərlər, bülbül kimi ötməyə sövq edir. Ona görə də Ermənistanın işğalı dövründən ikili standartlarla üzləşən ölkəmizin Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası məsələsini beynəlxalq ictimaiyyətin diqqət mərkəzində saxlamaqda, BMT-yə müraciətdə davam etməsi tamamilə ağlabatandır. Bu günlərdə Qərbi Azərbaycan İcması BMT-nin müvafiq strukturlarını Ermənistandakı azərbaycanfobiya problemini diqqət mərkəzində saxlamağa və Ermənistanla bağlı müzakirələr zamanı Qərbi azərbaycanlıların hüquqlarının pozulması məsələsinə baxmağa çağırıb.

BMT-nin müvafiq strukturlarının tədbirlərinin nə dərəcədə təsirli olub-olmayacağı, əlbəttə, ritorik sualdır. Burada yada salmaq yerinə düşər ki, Azərbaycan ərazilərinin işğalı dövründə rəsmi İrəvan Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə açıq-aşkar etinasız yanaşıb. Lakin indi Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Ermənistan tərəfi tələblərini kobud formada pozduğu bu qurumun, yəni BMT-nin hətta, indiki deyil, keçmiş xüsusi nümayəndələrinin xidmətinə müraciət etməkdən çəkinmir. Ona görə də Ermənistan üçün BMT platforması yalan təbliğat aparmaq üçün növbəti imkandır.

Digər bir vacib nüans isə ondan ibarətdir ki, Azərbaycanın, guya, Qarabağ ermənilərinin hüquqlarını pozması barədə az qala hər küncdə-bucaqda haray-həşir salan İrəvan yaxşı olardı ki, Ermənistanda yaşayan yezidi kürdlərin hüquqlarının təmin olunmasının qayğısına qalsın. Hələ 2021-ci ilin avqustunda BMT-ni təmsil edən hüquq müdafiəçiləri İrəvanı Ermənistandakı yezidi icmasının hüquqlarını müdafiə edən fəal və İnsan haqları üzrə yezidi mərkəzin təsisçisi Saşik Sultanyana qarşı təqibləri dayandırmağa çağırıblar. Maraqlısı odur ki, o zaman BMT-ni təmsil edən hüquq müdafiəçilərinin Ermənistan hakimiyyətinə çağırışları şəxsən BMT-nin xüsusi məruzəçisi Fernan de Varen tərəfindən dəstəklənib. Aydın olur ki, Ermənistanda yezidi azlıqların hüquqlarının pozulmasına gələndə, Varen onları müdafiə etmək üçün dərhal ayağa qalxıb, lakin Ermənistandan qovulan azərbaycanlıların hüquqları tapdananda lal-dinməz olub. Bu isə Qərbin ikili standartlarının daha bir göstəricisidir.



**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, Fernan de Varenin söylədiyi fikirlərin, ümumiyyətlə, reallıqla heç bir əlaqəsi yoxdur. Onun sözlərinə görə, bu mənada onun çıxışlarını ciddiyə almamaq daha doğru olardı: “Bəlkə də öz qohumları, yaşadığı məhəllədə heç ona salam vermirlər. Görün ermənilər nə günə qalıblar ki, kimə gəldi pul buraxır və həmin şəxsləri, o cümlədən Varen kimiləri danışdırırlar. Təbii ki, burada da məqsəd bəllidir. Ümumiyyətlə, dünyada Azərbaycana qarşı təbliğatın arxasında erməni lobbisi dayanır. Bu zaman çirkli pulların yuyulması prosesi də baş verir. Bilirsiniz ki, dünyanın ayrı-ayrı ölkələrində, əsasən Qərb dövlətlərində mövcud olan erməni lobbisinə həmin ölkələrdə yaşayan ermənilər tərəfindən hər il milyonlarla dollar köçürülür. Qarabağ erməniləri məsələsi, Azərbaycanla Ermənistan arasında bu və ya digər məsələlərin müzakirəsi olmasa, o zaman diasporun ianə toplaması məsələsi sual altına düşə bilər. Ona görə də xaricdəki müəyyən erməni dairələri Ermənistan və Azərbaycan arasında münaqişə səhifəsinin bağlanmasını, bu məsələnin tarixə qovuşmasını istəmirlər. Hər zaman Ermənistanın Azərbaycanla probleminin mövcud olmasını istəyirlər. Süni, saxta informasiyalar yaymaqla onların hesabına ətrafdakı ermənilərdən ianələr alır və bunun böyük hissəsini şəxsi məqsədləri üçün istifadə edirlər”.

Varen kimilərin cəfəngiyyatına gəldikdə isə politoloq qeyd etdi ki, Azərbaycan Ordusu Qarabağda beynəlxalq hüquqa və humanitar hüquqa uyğun hərəkət edib. Azərbaycan Ordusu heç bir ölkə, eləcə də Ermənistanın özü tərəfindən tanınmayan separatçı xunta rejiminin, faktiki olaraq terrorçuların varlığına son qoyub: “Mülki əhaliyə qarşı tədbirlərdən, ümumiyyətlə, söhbət gedə bilməz. Ordumuz istər 44 günlük müharibə, istərsə də antiterror tədbirləri zamanı bir mülki əhalinin belə burnunu qanatmayıb. Bu mənada heç bir dəlil olmadan Azərbaycanı nədəsə ittiham etmək mümkün deyil. Ona görə də Varen kimilərin bu cür ittihamları tamamilə ciddilikdən uzaqdır. Azərbaycan dövləti kimin nə deməsindən asılı olmayaraq, doğru hesab etdiyi yolla davam edəcək. Bu yol isə Azərbaycanda erməni separatizminin bir daha baş qaldırmasına imkan verməməkdən ibarətdir”.

*Səxavət HƏMİD*
*XQ*

---

# İrəvan daşı ətəyindən tökmək istəmir

**(əvvəli 1-ci səhifədə)**

Sonuncudan başlayaq. Qagik Bakunç adlı biri peyda olub. Sən demə, “Artsax Milli Assambleyası”nın spikeri imiş. Adam İsveçrə parlamentinin “aşağı palataçılarının” qətnaməsindən sevincək olub və təşəkkürünü bildirərək deyib ki, sənəd “Artsax xalqının” hüquqlarının, xüsusən, təhlükəsiz və layaqətli qayıdışının təminatı istiqamətində mühüm addımdır. Əlbəttə, “spiker qırığı”nın nə deməsi o qədər önəmli deyil. Əsas olan belə bir adamın İrəvanda oturub çərənləyə bilməsidir. Onun və onun kimilərin hər dəfə ağızlarına gələni dillərinə gətirmələri o deməkdir ki, Ermənistan hakimiyyəti ölkə daxilində Azərbaycana qarşı ərazi iddiasını əsas götürən qruplaşma saxlamaqdadır. Hər halda, Bakunçun Qarabağ ermənilərinin yaşadıqları yerlərə təhlükəsiz və ləyaqətli qayıtmaq “formulunun” Azərbaycan vətəndaşlığının qəbuluna əsaslanmadığı gün kimi aydındır. Aydındır ki, məsələdə separatçılıq təmayülü var. Deməli, Paşinyan administrasiyası bakunçlara meydan verməklə, separatizmə dəstək göstərir ki, yazımızda bu tendensiyanın daha qabarıq formasından söz açacağıq.



Keçək ikinci mətləbə. Ümumən, xaricdə Qarabağ avantürasına hansısa formada dəstək göstərilməsinə hesablanmış istənilən məsələ Ermənistanın hazırkı hakimiyyətindən narazı qütbləri hərəkətə gətirir. Hərəkətə gələnlərdən biri də ölkə parlamentinin “Ermənistan” blokundan olan deputatı, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın “gülməşəkər oğlu” Levon Koçaryandır. Koçaryan özünün “Telegram” kanalında yazıb ki, ABŞ, Avropa İttifaqı ölkələri və Rusiya, bir sözlə hamı (?) “Artsaxa” qayıtmaq hüququndan danışır, yalnız Paşinyan administrasiyasının şəxsində Ermənistan hakimiyyətindən başqa.

Həqiqətən, L.Koçaryan haqlıdır. O anlamda ki, rəsmi İrəvan açıq şəkildə Qarabağ ermənilərinin bölgəyə qayıtmaları ritorikasına üstünlük vermir. Ancaq, bu, o demək deyil ki, Paşinyan və siyasi ortaqları məsələni ikinci plana atıblar. Onlar, sadəcə olaraq, hiyləgərliklə məşğuldurlar və anti-Azərbaycan “fəaliyyətlərini” ölkəmizin adını çəkməməklə davam etdirirlər. Niyə? Ona görə ki, birincisi, özlərini dünyaya sülhsevər kimi göstərmək istəyirlər və elə fon yaradırlar ki, sanki, beynəlxalq hüquq prinsipləri onlar üçün müstəsna əhəmiyyət daşıyır. Axı hansı səmtə çevirsən, Qarabağ Azərbaycan ərazisidir və rəsmi İrəvan da bunu tanıyıb. İkincisi və ən əsası, hazırda ölkəmizə qarşı açıq ittihamlar irəli sürməmək Qərbin Paşinyan administrasiyası qarşısında qoyduğu başlıca tələbdir.

Məlumdur ki, Qərbin Cənubi Qafqazda sülh məsələsinə öz baxışı var. Bu baxış Rusiyanı və regiona maraqlı digər ölkələri sıxışdırmaq niyyətinə köklənib. Ermənistan isə alətdir. Qərb çalışır ki, Bakı İrəvanla diqqətə çatdırdığımız vəzifənin reallaşmasına razılığın olduğu sülhə gəlsin. Ermənistan rəhbərliyinə köhnə ritorikadan uzaqlaşmaq göstərişi məhz buna görə verilib. Təsəvvür edin ki, İrəvanda soyqırımı ilə bağlı forum keçirilir, tədbirə dünyanın müxtəlif bölgələrindən ermənipərəstlər dəvət olunurlar, onlar Azərbaycana “etnik təmizləmə”, “soyqırımı” reallaşdıran ölkə damğası vururlar, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə çıxışında bütün bunları ad çəkmədən deyir, subliminal mesajlar verir. Hamıya yaxşı bəllidir ki, Mirzoyanın hədəfi ölkəmizdir. Yeri gəlmişkən, L.Koçaryan bunu qorxaqlıq kimi qələmə vermişdi. Əslində, ortada qorxaqlıqdan başqa ciddi hiyləgərlik də var ki, bunu diqqətə çatdırdıq.

O ki qaldı L.Koçaryanın İsveçrə parlamentinin saxta qətnaməsinə münasibət kontekstində Ermənistan hakimiyyətini qınamasına, bir məqamın üzərində dayanmağa ehtiyac var. Məlumdur ki, nə İsveçrə parlamentinin aşağı palatası, nə də digər hansısa Avropa ölkəsinin Qarabağ avantürasının davamına hesablanmış sənədi özfəaliyyət məhsulu deyil. Burada söhbət Paşinyan administrasiyası ilə razılaşdırılmış hərəkətdən gedir. Başqa sözlə desək, belə qətnamələr İrəvanda hazırlanır və Avropanın kosmopolit, beynəlxalq hüquqdan anlayışı olmayan pensioner deputatlarının masalarının üzərinə çıxarılır. Təbii ki, müvafiq bəxşişlərlə birgə. Başqa cür mümkün də deyil. Guya, avropalılar “Artsax”ın nə olduğunu bilirlər? Əlbəttə, bilmirlər, heç bilməyəcəklər də. Ermənistan isə bu cür əməlləri ilə gələcək üçün, bir növ, hüquqi baza formalaşdırır ki, nə zamansa yenidən avantürizm ritorikasını gücləndirsin. Ancaq deputat L.Koçaryanın və digər anti-Paşinyan mövqe tutanların reaksiyalarından, ittihamlarından görünür ki, İsveçrə parlmentinin və ya digər qurumun qətnaməsinin avantürist mahiyyəti, konkret olaraq, Qarabağ ermənilərinin bölgəyə qayıtmalarının tələb olunması fonunda rəsmi İrəvanın məsələ barədə söz açmaması sərt ictimai reaksiya doğurur. Yəni, Ermənistan hakimiyyəti qaş düzəltdiyi yerdə göz çıxarır. Deməli, hiyləgərlikdən uzaq durub, səmimi davranmaq şərtdir. Ancaq belə yanaşma Paşinyan iqtidarı üçün tamamilə yaddır. Elə isə rəsmi İrəvan sərsəm koçaryanların ittihamları ilə baş-başa qalmalıdır və qalır da.

Keçək üçüncü məqama. Görünür, Ermənistanın idarəçilik sistemində Qarabağ ermənilərinin qayıdışı mövzusunda açıq danışmaq icazəsi olan yalnız bir nəfərdir – ölkə ombudsmanı Anait Manasyan. O, NATO-nun Gürcüstandakı Əlaqələr Bürosunun rəhbəri Aleksandr Vinnikovu və ofisin siyasi məsələlər üzrə məsul əməkdaşı Arkadiuş Leqiçini qəbul edərkən, Qarabağ ermənilərindən söz açıb. XİN rəhbəri A.Mirzoyandan və digər rəsmilərdən fərqli olaraq, Manasyan məsələyə bir qədər konkret toxunub. Hərçənd, o da bilavasitə Azərbaycanın adını çəkməyib. Erməni ombudsman deyib ki, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi ilə bağlı beynəlxalq mexanizmlərin daim təkmilləşdirilməsinə baxmayaraq, öz yurd-yuvalarından məcburi köçkün edilmiş və qeyri-insani əzablara məruz qalan insanların (Qarabağ ermənilərinin – red.) hüquqları hələ də bərpa olunmayıb.

Sonda bir məqamı da deyək ki, son günlər Ermənistan və havadarlarının etnik təmizləmə şousunu yenidən gündəmə gətirmələri, eləcə də Qarabağ ermənilərinin bölgəyə qayıdışı fonunda qaldırdıqları isterik durum heç də təsadüfi deyil. Mövcud fonda rəsmi İrəvanın sülhdən yayındığını görürük. Onu da görürük ki, Ermənistan rəhbərliyində təmsil olunanlar Fransaya, Hindistana səfərlər gerçəkləşdirirlər. Yəni, hərbi müttəfiqlik münasibətlərini dərinləşdirirlər. Bunun ölkənin silahlanması baxımından yeni faza olduğunu söyləməyə isə lüzum yoxdur. Çünki hər şey ortadadır. Bilavasitə yuxarıda qeyd etdiyimiz məsələlərin qaldırılmasına gəlincə, məqsəd sülh gündəminə yeni elementlər gətirməklə, barış mühitinin formalaşmasına qarşı çıxmaqdır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Naxçıvanda maliyyə forumu

**Dekabrın 18-də Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş maliyyə forumu keçirilib.**





Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumun iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

"Naxçıvan Saray"da davam edən tədbirdə Ulu öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forum iştirakçılarını salamlayaraq Naxçıvanın muxtariyyət və inkişaf tarixinə nəzər salıb. Qeyd edib ki, Naxçıvan muxtariyyət qazandıqdan sonra 1970-ci ilə qədər məqsədli şəkildə inkişafdan kənarda saxlanılıb. Lakin ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə muxtar respublikanın həyatında yeni mərhələ başlanıb. Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi isə muxtar respublikanı növbəti işğal təhlükəsindən qoruyub, müstəqil dövlətçiliyimizin əsasları bu torpaqda işlənib hazırlanıb. Bu gün 100 illik muxtariyyət tarixini qeyd edən Naxçıvan Zəngəzur dəhlizinin açılması və Dövlət Proqramının icrası perspektivlərində daha böyük inkişaf və tərəqqiyə hədəflənib. Bu da müdrik dövlət xadimi, ölkə Prezidenti İlham Əliyevin liderlik fəaliyyətinin nəticəsidir.

Son 2 ildə muxtar respublikada yeni idarəetmə metodunun tətbiqi sahəsində aparılan islahatların həm də maliyyə sektorunu əhatə etdiyini diqqətə çatdıran səlahiyyətli nümayəndə xüsusilə vurğulayıb ki, ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq maliyyə intizamının gücləndirilməsi, büdcənin düzgün tərtibi və icrası, yerli gəlirlərin artırılması və dotasiyanın azaldılması istiqamətində ardıcıl işlər aparılır. Əgər 2 il bundan öncə Naxçıvan Muxtar Respublikası büdcəsində yerli gəlirlər 20-25 faiz idisə, bu ilin sonunda yerli gəlirlərin həcmi 50 faizdən yüksək olacaqdır. Ötən 2 ildə muxtar respublikada dövlət satınalmalarının qanunvericiliyin tələblərinə uyğun tətbiqi sahəsində də sistemli iş aparılır ki, bu da dövlət vəsaitindən təyinata uyğun düzgün istifadəni təmin edir.

Fuad Nəcəfli maliyyə forumunda yeni hədəflərin müəyyənləşəcəyini və muxtar respublikada dövlət-maliyyə siyasətinin həyata keçirilməsi sahəsində faydalı olacağını bildirib, forumun işinə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə təbriklərini çatdıran Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ölkə başçısının maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqların muxtar respublikanın inkişafı üçün hazırlanan strateji sənədlərdə də öz əksini tapdığını diqqətə çatdırıb. Qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın tədbirlər planında "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" bəndi nəzərdə tutulub.

V.Gülməmmədov vurğulayıb ki, ötən ildən muxtar respublikada aparılan audit və təhlillər bəzi sahələr üzrə irəliləyişlərin olduğunu göstərir. Belə ki, büdcənin icrası barədə və satınalmalara dair hesabatların əsasən vaxtında təqdim olunması, malların, iş və xidmətlərin "Dövlət satınalmaları haqqında" Qanunda göstərilmiş prosedur və metodlar tətbiq olunmaqla alınmasının genişləndirilməsi, əmtəəsiz alış əməliyyatlarının azalması kimi bir çox istiqamətlərdə müsbət dəyişikliklər qeydə alınıb. Bununla belə dövlət auditinin nəticələri hələ də təkmilləşdirilməli sahələrin olduğunu göstərir.

Hesablama Palatasının sədri rəhbərlik etdiyi qurumun 2021-2025-ci illəri əhatə edən Strateji Planında hədəflərdən birinin də maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi olduğunu vurğulayıb. Qeyd edib ki, bu hədəf üzrə görüləcək ən vacib tədbirlər sırasında dövlət orqanları üçün dövlət maliyyəsinin müxtəlif sahələrində təlimlərin keçirilməsi ilə dəstəyin verilməsidir. Gələcəkdə muxtar respublikada fəaliyyət göstərəcək kadr potensialının gücləndirilməsi üçün Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığa başlanılıb. Növbəti ildən "Dövlət auditi" proqramı üzrə praktik təlimlər keçiriləcəkdir.

Azərbaycan Respublikası maliyyə nazirinin müavini Azər Bayramov çıxışında qeyd edib ki, son 22 ildə Naxçıvan Muxtar Respublikasının büdcəsinin həcmi 13,2 dəfə artaraq 539,3 milyon manata çatıb. Bununla yanaşı, muxtar respublikanın büdcəsinin öz gəlirləri 16,5 dəfə artaraq 202,8 milyon manata yüksəlib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda icrası planlaşdırılan tədbirlərin maliyyə təminatı məqsədilə Milli Məclis tərəfindən qəbul edilən gələn ilin dövlət büdcəsində 150 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Gələn il dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən muxtar respublikaya ayrılan dotasiya 285,7 milyon manat təşkil edəcəkdir. Naxçıvan Muxtar Respublikasının öz gəlirləri isə 219,5 milyon manat proqnozlaşdırılır.

Maliyyə nazirinin müavini bildirib ki, bu il Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin Naxçıvan Xəzinədarlıq İdarəsi yaradılıb. Artıq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 15-dən çox mərkəzi icra hakimiyyəti orqanının yerli bölmələrinə xəzinə xidmətlərinin göstərilməsi sözügedən idarə tərəfindən həyata keçirilir. Ümumilikdə idarə tərəfindən il ərzində 500 milyon manatdan çox məbləğdə vəsait üzərində xərc əməliyyatlarının aparılması nəzərdə tutulur. Bununla yanaşı hazırda, muxtar respublikanın dövlət Xəzinədarlığın İnformasiya İdarəetmə Sisteminə və Büdcə Məlumat İdarəetmə Sisteminə qoşulması istiqamətində işlər aparılır.

Forumda Milli Məclisin deputatı Ziyad Səmədzadə və Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxış edib, Naxçıvan Muxtar Respublikasında aparılan islahatların müsbət nəticələrindən bəhs ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx təqdim olunub.

Forum maliyyə və vergi istiqamətləri üzrə panel müzakirələrlə öz işini davam etdirib.

Qeyd edək ki, muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının, iri sahibkarlıq subyektlərinin rəhbərləri və onların maliyyə-mühasibatlıq üzrə məsul şəxslərinin iştirak etdiyi maliyyə forumunun məqsədi mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, vergi münasibətlərinin səmərəliliyinin artırılmasının konkret aspektlərinin vacibliyini nəzərə alaraq bu sahədə maarifləndirmə işi aparmaqdır.

# Dünya Azərbaycanlı Alimlər Birliyi qədim diyarda

**Naxçıvan Dövlət Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi arasında görüş keçirilib, akademik əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.**

Bu münasibətlə keçirilən görüşdə rektor Elbrus İsayev universitetdə təhsilin keyfiyyətinin artırılması üçün görülən işlər





haqqında qonaqlara geniş məlumat verib. Bildirilib ki, əsas məqsəd Azərbaycan və beynəlxalq təhsil sistemləri ilə inteqrasiyanı gücləndirərək, ali təhsil müəssisəsini dünyanın qabaqcıl universitetlərindən birinə çevirməkdir. Diqqətə çatdırılıb ki, tədqiqat potensialını artırmaq, əmək bazarı və sənaye ilə sıx əlaqələr qurmaq, tədqiqatyönümlü tədrisi inkişaf etdirmək universitetin prioritetlərindəndir.

Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, professor Məsud Əfəndiyev elmin və təhsilin inkişafının müasir cəmiyyət üçün əsas prioritet olduğunu vurğulayıb. Professor bildirib ki, elm və təhsil sahəsindəki irəliləyişlər sosial və iqtisadi inkişafın mühüm təməlini təşkil edir. Müasir dövrdə elmi tədqiqatların və akademik fəaliyyətlərin dünya səviyyəsində rəqabətli olması, həm intellektual, həm də texnoloji inkişaf üçün əvəzsiz amildir. Professor, həmçinin universitetlərdə tələbələrin araşdırma üsuluna daha çox cəlb edilməsinin vacibliyini,





eləcə də elmi əsaslarla düşünmə və tədqiqat bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra Naxçıvan Dövlət Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi arasında akademik əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Memoranduma akademik və tədqiqat heyətinin qarşılıqlı mübadiləsi, tərəflərin fəaliyyət göstərdiyi ölkələrin qanunvericiliyinə uyğun olaraq ikili diplom proqramlarının həyata keçirilməsi, akademik tədqiqat məlumatlarının və texniki materialların mübadiləsi, mədəni fəaliyyətlərdə nəşr və yaxud əməkdaşlıq etmək məsələləri nəzərdə tutulub. Həmçinin konfrans, seminar, simpozium, konqres və digər ortaq akademik və elmi tədbirlərin təşkili, eləcə də Dünya Azərbaycanlı Alimlər Birliyinə üzv alimlərin Naxçıvan Dövlət Universitetində mütəmadi olaraq təlim və seminarlarının keçirilməsi planlaşdırılıb. Bu memorandum iki qurum arasında elmi və akademik əlaqələrin genişləndirilməsinə xidmət edəcək.

Sonda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev professor Məsud Əfəndiyevə xatirə plaketi və "Naxçıvan. Şərqin Əfsanəsi" kitabını hədiyyə edib.

***

**Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, professor Məsud Əfəndiyev AMEA Naxçıvan Bölməsinin qonağı olub. Naxçıvan Bölməsi kollektivinin iştirakı ilə keçirilən görüşdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək qonağı salamlayıb. Azərbaycanlı alimlərin dünya elminə verdikləri töhfələri yüksək qiymətləndirən akademik qeyd edib ki, xaricdə yaşayan hər bir azərbaycanlı alim elmə yanaşı, həm də öz vətənini, xalqını uğurla təmsil edir.**

AMEA Naxçıvan Bölməsinin mətbuat xidmətindən "Xalq qəzeti"nə verilən məlumata görə, bölmənin sədri akademik İsmayıl Hacıyev qonağı kollektivə təqdim edib və bildirib ki, Məsud Əfəndiyev Almaniyada yaşayan azərbaycanlı riyaziyyatçı, professordur. O, Almaniya hökumətinin təsis etdiyi dünya elmində ən yüksək təltiflərdən sayılan "Aleksander fon Humboldt" mükafatını almış ilk azərbaycanlıdır. Alim Almaniyanın müxtəlif universitetlərində, o cümlədən Münhen, Ştutqart, Berlin universitetlərində dərs deyib. Həmçinin Dünya Azərbaycanlı Alimlər Birliyinin yaradılmasının təşəbbüskarı və rəhbəri, çoxsaylı elmi əsər və araşdırmalar müəllifidir. Elm sahəsində nailiyyətlərinə və Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 21 aprel 2022-ci ildə "Əməkdar elm xadimi" fəxri adı ilə təltif edilib.

Akademik İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin yaranma tarixi, strukturu, fəaliyyətinin əsas istiqamətləri və əldə olunan elmi nəticələr haqqında qonağı bilgiləndirib, sonda qonağa kitab hədiyyə edib.

Yığıncaqda çıxış edən professor Məsud Əfəndiyev Naxçıvana gəlişinin məqsədindən danışıb, Almaniyada yaşayıb fəaliyyət göstərən azərbaycanlı alimlərlə bağlı bəzi statistik göstəriciləri diqqətə çatdırıb. Ölkədən kənarda yaşayan azərbaycanlı alimlərin təşkilatlanması və əlaqələrinin genişləndirilməsi məqsədilə təsis olunmuş Dünya Azərbaycanlı Alimlər Birliyi barədə məlumat verib. Xoş təəssüratlarını iştirakçılarla bölüşüb.

Sonda alim ona ünvanlanan sualları cavablandırıb. Professor həm də bölmə alimlərinin nəşr olunmuş əsərlərindən ibarət sərgi ilə tanış olub, öz təəssüratlarını bölüşüb.



# "Heydər Əliyev və Azərbaycan həmkarlar ittifaqları"

**Naxçıvan şəhərində muxtar respublikanın 100 illiyi çərçivəsində "Heydər Əliyev və Azərbaycan həmkarlar ittifaqları" mövzusunda konfrans keçirilib.**

Heydər Əliyev Sarayında təşkil edilən məclisin iştirakçılarını salamlayan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, xilaskarlıq missiyasından, dövlət quruculuğu siyasətindən söz açıb, Naxçıvanın həyatında dahi rəhbərin gördüyü işləri, sabitliyin təmin olunması və sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində atdığı mühüm addımları qeyd edib.

Bildirilib ki, 1990-1993-cü illərdə Naxçıvanda fəaliyyət göstərən böyük şəxsiyyət bu il 100 illik yubileyi qeyd edilən muxtar respublikanı bütün təhdidlərdən qoruyub, müstəqil dövlətçiliyimizin əsaslarını məhz burada işləyib hazırlayıb. Muxtar respublikanın inkişafının yeni dövrünə qədəm qoyduğunu diqqətə çatdıran Fuad Nəcəfli qeyd edib ki, bu gün Naxçıvan dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkəmizin siyasi-iqtisadi qüdrətinin yüksəlməsində yaxından iştirak edir.

Konfransda çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov adı tariximizə qızıl hərflərlə yazılan ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz üçün əsrlərə bərabər nəhəng işlər gördüyünü, gələcək nəsillərə zəngin irs, dövlətçilik ənənələri miras qoyduğunu vurğulayıb. Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən sistemli və kompleks tədbirləri qeyd edən Konfederasiya sədri xalqın xahişi və təkidli tələbi əsasında Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtmasından sonra həmkarlar ittifaqlarının da həyatında əsaslı dönüş yarandığını diqqətə çatdırıb. 1994-cü ildə postsovet məkanında ilk dəfə məhz Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" Qanunun qəbul olunması, işçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı normativ-hüquqi aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının ratifikasiyası Ulu öndərin müdrik və uzaqgörən siyasətinin nəticəsi və vətəndaş cəmiyyətinin inkişafına verdiyi dəyərin təzahürüdür.

Konfederasiya sədri Ümummilli liderin siyasi kursunu Prezident İlham Əliyevin böyük uğurla davam etdirdiyini vurğulayaraq ölkəmizin ərazi bütövlüyünün bərpasının, Azərbaycanın sürətli inkişafının Heydər Əliyev ideyalarının reallaşdırılmasının məntiqi nəticəsi olduğunu diqqətə çatdırıb. Ulu öndərin işıqlı ideyalarının təbliği, zəngin siyasi irsinin öyrənilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd edən Sahib Məmmədov Fondun sosial layihələrinin həmkarlar ittifaqları üçün əsl örnək olduğunu vurğulayıb.

AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev muxtar respublikanın 100 illik tarixi inkişaf yolundan, qazanılan uğurlarda Ümummilli liderin misilsiz rolundan bəhs ediblər.

Sonra tədbirdə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü və həmkarlar ittifaqlarına göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Konfrans bədii hissə ilə davam edib.

**Səhifəni hazırladı: Səbuhi HƏSƏNOV, XQ-nin Naxçıvan müxbiri**

Vaqif Fərzəliyev – 85

# Milli kimya elminin yetirməsi

**Mövlana Cəlaləddin Ruminin dillər əzbərinə çevrilən bir deyimi var: “Hər nə olursan ol, ya olduğun kimi görün, ya göründüyün kimi ol”. Bu günlərdə 85 illik yubileyini qeyd etməyə hazırlaşdığımız mehriban, səmimi və gözəl insan, akademik Vaqif Fərzəliyev də olduğu kimi görünən azsaylı alimlərdən biridir.**

Vaqif müəllimin necə böyük intellektə sahib olduğunu bilmək üçün onun keçdiyi çətin, şərəfli həyat və yaradıcılığının bəzi məqamlarına nəzər yetirmək kifayətdir. Ömrünün böyük bir dönəmini Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və rəhbəri olduğu Aşqarlar Kimyası İnstitutu ilə bağlayan AMEA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Vaqif Məcid oğlu Fərzəliyev neft kimyası və üzvi kimya sahəsində görkəmli alimlərdəndir. Sıravi aspirantdan institut direktoru və daha sonra AMEA-nın akademik-katibi vəzifələrinədək böyük və şərəfli həyat yolu keçmiş alimin tərcümeyi-halı istedadlı və zəhmətsevər ziyalılar üçün gözəl bir nümunədir.



Vaqif Fərzəliyev 19 dekabr 1939-cu ildə Bakıda anadan olmuş, 1958-ci ildə Bakı şəhəri 189 nömrəli tam orta rus məktəbini, 1963-cü ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsini fərqlənmə diplomu ilə (Lenin təqaüdçüsü olmuşdur) bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyası Aşqarlar Kimyası İnstitutunun aspiranturasına (doktoranturasına) daxil olmuşdur.

Vaqif Fərzəliyev 1968-ci ildə “Neft kimyası” ixtisası üzrə kimya elmləri namizədi (kimya üzrə fəlsəfə doktoru), 1986-cı ildə isə həmin ixtisas üzrə kimya elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1974-cü ildə baş elmi işçi (dosent), 1987–ci ildə isə professor elmi adına layiq görülmüşdür.

Alim 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir. O, 2018-ci ildə Böyük Britaniyanın Oksford Akademik Birliyinin həqiqi üzvü, 2022-ci ildə isə Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilmişdir.

Vaqif müəllim böyük təşkilatçılıq qabiliyyətinə görə 2007-ci ildə AMEA-nın Kimya Elmləri Bölməsinin akademik-katibi, 2008–2013-cü illərdə AMEA-nın akademik-katibi, 2018-2020-ci illərdə yenidən AMEA-nın Kimya Elmləri Bölməsinin akademik-katibi vəzifələrində işləmişdir.

Akademik V.Fərzəliyevin elmi fəaliyyətinin əsas istiqamətini yüksək təsirli aşqarların sintezi, tədqiqi və onların əsasında yüksək keyfiyyətli yağ, yanacaq və yağlayıcı-soyuducu maye kompozisiyalarının yaradılmasının elmi əsaslarının işlənilməsi təşkil edir. O, yeni aşqarların sintezi, onların funksional təsir mexanizminin, həmçinin tərkib və quruluşlarının effektivliyə təsirinin öyrənilməsi sahəsində sistemli fundamental tədqiqatlar aparır. Son illər Vaqif müəllim fizioloji fəal birləşmələrin sintezi və tədqiqi sahəsində də önəmli tədqiqatlar aparır.

Hörmətli akademikin bilavasitə iştirakı və rəhbərliyi ilə yaradılmış aşqarlar və müxtəlif baza yağları əsasında benzin və dizel mühərrikləri üçün bir sıra sürtkü-kompozisiyaları hazırlanmışdır.

İlk dəfə olaraq Bakı baza yağları əsasında orta gücləndirilmiş və yüksək gücləndirilmiş avtotraktor, gəmi, teplovoz və stasionar dizel mühərriklərində istifadə olunan müxtəlif markalı motor yağları yaradılmışdır.

Vaqif Fərzəliyevin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri ölkənin müdafiə qüdrətinin yüksəldilməsinə yönəlmiş elmi tədqiqat işləridir. Hələ SSRİ dövründə rəhbəri olduğu Aşqarlar Kimyası İnstitutu tərəfindən bir sıra xüsusi təyinatlı sürtkü yağları yaradılmış və istehsalı təşkil olunmuşdur.

Respublikamız suverenlik əldə etdikdən sonra Vaqif Fərzəliyevin rəhbərliyi ilə Bakı baza yağları və mövcud aşqarlardan istifadə edərək yeni motor yağlarının və digər xüsusi təyinatlı sürtkü yağlarının analoqları yaradılmış, həmin məhsulun istehsalı institutun nəzdində fəaliyyət göstərən “Aşqar” Elmi İstehsalat Birliyində təşkil edilmiş və 100 tonlarla Azərbaycan Respublikası Müdafiə Nazirliyinə təqdim edilmişdir. Qeyd olunan xüsusi təyinatlı motor yağlarından Birinci Qarabağ müharibəsində istifadə olunmuşdur.

Sonrakı dönəmlərdə bu xüsusi təyinatlı yağların yeni analoqları yaradılmış, Ukrayna və Azərbaycanın müvafiq qurumlarında uğurla sınaqları keçirilmiş, “Məxfi” qriflə Azərbaycan patentləri ilə müdafiə olunmuşdur.

Strateji material olan xüsusi təyinatlı sürtkü yağlarının yaradılması ölkəmizin müdafiə qüdrətini artırır, xarici ölkələrdən asılılığını azaldır və müdafiə sənayesinin inkişafına yardım edir.

Akademik Vaqif Fərzəliyevin rəhbərliyi ilə yerinə yetirilmiş “Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili” adlı kompleks elmi-texniki iş 2024-cü ildə Azərbaycan Respublikası Dövlət Mükafatına layiq görülmüşdür.

Beləliklə, Vaqif Fərzəliyevin elmi fəaliyyətinin nəticələri həm neft kimyası və üzvi kimya elmi istiqamətlərin nəzəri məsələlərinin həllinə, həm də ölkə iqtisadiyyatının inkişafına və müdafiə qüdrətinin yüksəldilməsinə əvəzsiz töhfələr vermişdir.

Vaqif Fərzəliyevin Azərbaycan, Rusiya, ABŞ, Böyük Britaniya, Almaniya, Rumıniya, Türkiyə, İran və Hindistanın nüfuzlu jurnallarında 1000-dən çox elmi əsəri dərc olunmuşdur. Öz tədqiqat sahəsi üzrə 250 elmi əsəri müxtəlif beynəlxalq elektron sistemlərinə daxil olmuş və onlara dünya alimləri tərəfindən 5000-ə yaxın istinad edilmişdir. Vaqif Fərzəliyevin H-indeksi 30-a bərabərdir. Bütün bu faktlar onun dünya nüfuzlu alim olduğunu bir daha təsdiq edir.

Rus, ingilis və türk dillərini sərbəst bilən Vaqif Fərzəliyev Azərbaycan elmini yaxın və uzaq xarici ölkələrdə yüksək səviyyədə təmsil edir. O, əsasən ABŞ, İngiltərə, Almaniya, Fransa, Polşa, Macarıstan, Rumıniya, Çexiya, Sloveniya, Bolqariya, İran, Türkiyə, Hindistan, İraq, Rusiya, Ukrayna, Özbəkistan və s. ölkələrdə 210-a yaxın beynəlxalq və ümumittifaq elmi konfrans, simpozium, seminar və müşavirələrdə məruzələrlə çıxış etmiş, bir sıra beynəlxalq konfransın təşkilat komitəsinin üzvü olmuş, dəvətli professor kimi plenar iclaslarda məruzələr etmişdir.

Vaqif Fərzəliyev SSRİ Elmlər Akademiyasının məsləhətçisi kimi İraq Neft İnstitutunda 3 ay və UNESCO-nun məsləhətçisi kimi Hindistan Neft İnstitutunda 6 ay çalışaraq sürtkü yağları və aşqarların yaradılmasının nəzəri və tətbiqi sahələri üzrə mühazirələr oxumuş, aşqarların sintezi və sürtkü kompozisiyalarının işlənilməsi üzrə elmi tədqiqatların təşkili ilə məşğul olmuşdur.

Vaqif Fərzəliyev İngiltərənin Birminhem şəhərində yerləşən Aston Universitetində 3 ay çalışmış, Türkiyənin və İranın elmi mərkəzlərində məruzələrlə çıxış etmişdir.

Akademikin təşəbbüsü ilə Aşqarlar Kimyası İnstitutu bir sıra xarici ölkələrin (Rusiya, İtaliya, Ukrayna, Belarus, Türkiyə, İran, Bolqarıstan) elmi mərkəzləri ilə beynəlxalq əlaqələr yaratmış, dünyanın aparıcı neft şirkətləri (“Lubrizol”, “Shell”, “Unikal-76”, “İnfinium”) ilə elmi-praktiki əhəmiyyətli əməkdaşlıq müqavilələri bağlamışdır.

Vaqif Fərzəliyev öz fəaliyyətində milli kimyaçı kadrların və alimlərin hazırlanmasına da böyük önəm vermişdir. O, 1987-ci ildən indiyədək Azərbaycan Bakı Dövlət Universitetində (BDU) pedaqoji fəaliyyətlə məşğul olmaqdadır.

Akademik Vaqif Fərzəliyevin rəhbərliyi ilə 7 elmlər doktoru, 29 fəlsəfə doktoru hazırlanmışdır. Alim doktorluq dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşmış Şuranın sədridir.

Vaqif Fərzəliyev məhsuldar elmi fəaliyyətlə yanaşı, böyük elmi-təşkilatçılıq işləri də görür. O, Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının “Neft kimyası” üzrə Elmi Şuranın üzvü, “Kimya Problemləri” jurnalının baş redaktoru, “Azərbaycan Ensiklopediyası” və bir sıra elmi jurnalların redaksiya heyətinin üzvüdür.

Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutuna uzun müddət – 36 il ərzində rəhbərlik etmək akademik V.Fərzəliyevin istedadının daha bir dəyərli cəhətini, yəni geniş miqyasda elmi-təşkilatçılıq bacarığını da bariz şəkildə göstərmişdir. Mürəkkəb dövrdə – ölkəmiz üçün yeni olan bazar iqtisadiyyatına keçid dövründə – 1990-cı illərin ortalarında o, bir rəhbər kimi institutun elmi potensialını və ənənələrini qoruyub saxlaya bilmişdir. Elmi qurumlar üçün heç də asan olmayan həmin illər ərzində hər cür çətinliklərə baxmayaraq, institutun yaradıcı kollektivi akademik Vaqif Fərzəliyevin rəhbərliyi ilə bütün elmi istiqamətlərdə məqsədyönlü tədqiqatlarını günün tələbləri səviyyəsində davam etdirməyə nail olmuşdur.

Vaqif Fərzəliyevin yüksək səviyyəli elmi, elmi-təşkilati və pedaqoji fəaliyyəti hökumət və AMEA rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. O, “Şərəf” və “Şöhrət” ordenləri, “Fədakar əməyə görə”, “Əmək veteranı”, “BDU-nun 100 illiyi (1919–2019)”, "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921–2021)", "Heydər Əliyevin 100 illiyi (1923–2023)” yubiley medalları, “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adı, Azərbaycan Respublikasının Dövlət Mükafatı, AMEA-nın akademik Yusif Məmmədəliyev adına mükafatı və dəfələrlə AMEA Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Vaqif Fərzəliyev indi də məhsuldar fəaliyyətdədir. Ölkə və əcnəbi alimlər arasında böyük nüfuza malik akademik Vaqif Fərzəliyev hazırda aşqarlar və yağlar sahəsində elmi axtarışlarını müasir tələblər səviyyəsində, müstəqil Azərbaycanın maraqlarını nəzərə almaqla perspektivli istiqamətlərdə davam etdirir.

Haqqında saatlarla danışa biləcəyimiz Vaqif müəllimin 85 yaşı tamam olur. Məsələ ondadır ki, yaş dəyərli alim və böyük insan olanları təkcə qocaltmır, həm də müdrikləşdirir. Elə ona görədir ki, Vaqif müəllimin yaşı üzərinə yaş gəldikcə daha qürurlu, daha məğrur, daha müdrik olur. Onu belə qürurlu edən isə əlbəttə, keçdiyi çətin, ancaq şərəfli həyat yoludur.

Vaqif müəllimin xoşbəxtliyi, həmçinin ondadır ki, geridə qoyduğu illər onu yaddaşında xeyirxahlığın, yaxşılığın, nəcibliyin və vətənpərvərliyin nümunəsi kimi saxlayır. Bəli, çox insan var ki, yubiley yaşlarında ötən günləri yada salanda təəssüf hissi keçirir. Amma Vaqif müəllim keçdiyi ömür yolunun zirvəsindən geriyə baxanda qürur hissi keçirir. Çünki arxada ona şərəf gətirən illər görünür.

Biz görkəmli alimimizi yubiley yaşı münasibəti ilə təbrik edir, ona cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Arif HƏŞİMOV,*
*AMEA-nın akademik-katibi*

# Goranboyun Olimpiya mükafatçısı

**Goranboy Rayon İcra Hakimiyyətində tanınmış idmançı Həsrət Cəfərovla görüş keçirilib. RİH başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevin sərəncamına əsasən, XXXIII Yay Olimpiya Oyunlarında qazandığı nailiyyətlərə və Azərbaycan idmanındakı xidmətlərinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunması münasibətilə onu təbrik edib.**



Məlumat üçün bildirək ki, Həsrət Valeh oğlu Cəfərov 5 oktyabr 2002-ci ildə Goranboy rayonunun Qaradağlı kəndində anadan olub. Altı yaşından güləşlə məşğul olmağa başlayan Həsrət əvvəlcə doğma Qaradağlı qəsəbəsində məşq edib, 2015-ci ildən isə məşqlərini Respublika Olimpiya idman liseyində davam etdirib. 2020–2024-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb.

Həsrət Cəfərov yeniyetmələr arasında Azərbaycan Güləş Federasiyasının Kubokunun və 17 yaşlı güləşçilər arasında Avropa çempionatının qalibi olub. Karyerası ərzində mübarizə apardığı 22 beynəlxalq turniri 11 qızıl, 1 gümüş və 7 bürünc medalla başa vurub. Çıxdığı 12 final görüşünün 11-də qalib gəlib. 2024-cü ildə Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında 67 kq çəki dərəcəsində III yeri tutub. Hazırda Azərbaycan yığma komandasının üzvü, Beynəlxalq dərəcəli idman ustasıdır.

Onu da əlavə edək ki, Goranboy rayonu 2026-cı ilin “Gənclər paytaxtı” seçilib.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

# “Böyük Azərbaycan naminə. ƏZİZ ƏLİYEV”

**Bu günlərdə tədqiqatçı alim Adıgözəl Məmmədovun Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, tibb elmləri doktoru, professor, Azərbaycanın Əməkdar həkimi Əziz Əliyevin ictimai və siyasi fəaliyyətinə həsr olunan “Böyük Azərbaycan naminə. ƏZİZ ƏLİYEV” kitabı işıq üzü görüb.**




Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutunun yaradılmasında Əziz Əliyev böyük rol oynayıb. 1932-ci ildə həmin institutun direktoru təyin edilən Ə.Əliyev azərbaycanlı kadrları işə cəlb edib, ana dilində dərs vəsaitləri və monoqrafiyaların yazılmasına nail olub.

Ə.Əliyev həm də qısa müddətdə başqa dillərdə olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsini təşkil edir. Onun təşəbbüsü ilə İ.Berberinin “Boğaz, burun, qulaq xəstəlikləri”, A.Qaltiçinin “Uşaq xəstəlikləri”, V.Skvortsovun “Farmakologiya kursu”, E.Freyzeldin “Histologiya” kitabları və digər dərsliklər ana dilimizə tərcümə edilib. Ümumiyyətlə, 1930–1945-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun əməkdaşları tərəfindən 80 adda dərslik və dərs vəsaiti nəşr olunub ki, bunların da 55-i Əziz Əliyevin instituta rəhbərlik etdiyi 5 illik dövrə təsadüf edir.

Əziz Əliyev1937-ci il yanvarın 1-dən iyunun 26-dək Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işləyib. Naxçıvan MSSR-in Culfa dairəsindən SSRİ Ali Sovetinin, birinci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub. O, 1939-cu ilin sentyabrından 1941-ci ilin martınadək Azərbaycan Respublikasının Xalq Səhiyyə komissarı olub. Əziz Əliyev 1941-ci ilin aprelindən 1942-ci ilin sentyabrına qədər Azərbaycan KP MK-nın üçüncü katibi vəzifəsində işləyib.

Məhz o illərdə də Böyük Azərbaycan layihəsinin əsası qoyulurdu və 1941-ci ildə Əziz Əliyevin başçılıq etdiyi azərbaycanlılardan ibarət böyük bir qrup İrana göndərilir. Hərbi Şuranın qərarı və Zaqafqaziya ordusu komandanının əmri ilə sentyabrın 16-da polkovnik-komissar Əziz Əliyev Təbrizə daxil olan 47-ci ordunun Hərbi Şurasının üzvü seçilir.

Əziz Əliyev sovet ordusunun hissələrinin yerləşdiyi bütün şəhərlərdə və yaxın kəndlərdə əhali arasında geniş təbliğat işləri aparıb. O, Bakıya göndərdiyi məlumatında bildirir: “Yayılan təbliğat vərəqələrinin əhaliyə güclü təsiri var. Bizə bir çox yerlərdə kəndlilər açıq şəkildə deyirdilər: “Əgər siz getmək istəsəniz belə, biz ordunun İran Azərbaycanını tərk etməsinə icazə verməyəcəyik”. Artıq Azərbaycanın bütün bölgələrində əhali İranın dövlət orqanlarının törətdiyi qanunsuzluqlardan bizə şikayət etməyə başlayıb. Biz onları hər cür qoruyuruq. Əhali tərəfindən hərarətlə qarşılanan “Vətən uğrunda” qəzetinin artıq iki nömrəsini Azərbaycan dilində nəşr etmişik. Urmiya və Pəhləvidə Azərbaycan dilində qəzetin nəşrinə böyük ehtiyac var. Təbrizdə 15 il ərzində ana dilində, bir dənə də, olsun elm-texniki nəşrlər çap edilməyib, yazıçı və şairlərin yaradıcılığının inkişafı üçün şərait yaradılmayıb. Zeynal Gənci, Turxan Gənci, Nadir Fitrət, Ruhi, Sadiq Naxçıvan, Qeybullah Cavid və təbrizli başqa şair və yazıçılar əsərlərini çap etdirə bilmirdilər. Məktəblərdə, bir qayda olaraq, rəhbər vəzifələr farslar tərəfindən zəbt edilib. Professor-müəllim heyətinin əsas hissəsi mövcud nizam-intizamın əleyhinə çıxıb, xalq təhsili sistemində köklü dəyişiklik, məktəblərdə dərslərin Azərbaycan dilində keçirilməsini, farslara görə imtiyazların aradan qaldırılması tələblərini irəli sürür. Şəhərlər və kəndlər son dərəcə antisanitariya vəziyyətindədir”.

Arxiv sənədlərinə əsaslanan müəllif Əziz Əliyevin Cənubi Azərbaycanda və Dağıstanda işlədiyi illəri maraqlı rakursdan işıqlandırır, oxuculara o dövrün hadisələrinə yeni baxış bucağı təqdim edir. Xüsusilə, kitabda Əziz Əliyevin Cənubi Azərbaycandakı məhsuldar fəaliyyətindən sonra Dağıstana rəhbər təyin olunmasının səbəbləri barədə, o dövrdə Mərkəzi Komitənin katibi olmuş Mirhəsən Seyidovun xatirələrinə yer verilir (“Tam məxfi – Mirhəsən Seyidov, Xatirələr”. Əlyazma).

M.Seyidov belə qeyd edirdi: “Qohumum, həkim Əliyev Əziz Məmmədkərim oğlunun ailəsi, bizim kimi, 1918-ci ilin mart hadisələri zamanı erməni daşnaklarının türklərə qarşı törətdikləri qırğınlardan qaçaraq, İrəvan şəhərini tərk edib, Naxçıvan vasitəsilə Bakıya köçüb. Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirdikdən sonra həkim, daha sonra Tibb İnstitutunun rektoru, Xalq Səhiyyə Komissarı, MİK Rəyasət Heyətinin katibi olub. Ə.Əliyev M.C.Bağırovun təşəbbüsü ilə Azərbaycan KP MK-nın katiblərindən biri seçilib. Böyük Vətən müharibəsi başlayan kimi Əziz Əliyev Azərbaycanın digər məsul işçiləri ilə birlikdə sovet qoşunlarının tərkibində Cənubi Azərbaycana göndərilib. 1942-ci ildə Krım tatarlarının deportasiyası məsələsindən sonra müharibənin qızğın vaxtında Moskvada müəyyən qüvvələr Qafqaz xalqlarının Orta Asiyaya köçürülməsi məsələsini SSRİ Dövlət Müdafiə Şurası qarşısında qaldırmağa hazırlaşırdılar. İlk seçim Dağıstan xalqlarının üzərinə düşürdü. Dağıstanın rəhbərliyi M.C.Bağırovun onlara xoş münasibətini yaxşı bilirdi. Buna görə də tələsik bir qrup ağsaqqal Bakıya Bağırovla görüşə gəlir. Onlar Bağırovdan xahiş edirlər ki, Dağıstan xalqlarının başına gələ biləcək dəhşətli faciənin qarşısını alsın. Bağırov Stalinə zəng vuraraq ağsaqqallar barədə məlumat vermiş, məsələnin mahiyyətini ətraflı danışmağa başlamış və dərhal anlamışdı ki, bu məsələ hələ Stalinə çatmayıb. O, xalqlarımız arasında tarixən formalaşmış münasibətlərdən danışaraq bildirib ki, dağıstanlı heyvandarlar ailələri ilə birlikdə yüz minlərlə qoyunun qışladığı Azərbaycanda yaşayır və hər dördüncü neft ustası dağıstanlıdır.

O, Stalindən dağıstanlıların doğma yurdlarından köçürülməmələrini xahiş etmiş və onların sədaqətli olacaqlarına dair bütün məsuliyyəti öz üzərinə götürmüşdür. Stalin isə demişdir: “Mənə hələ bu barədə məlumat verilməyib, əgər siz dağıstanlıların sədaqətli olacaqlarına görə bütün məsuliyyəti öz üzərinizə götürürsünüzsə, yaxşı, qoy belə olsun. Onların köçürülməsinə razılıq verməyəcəm, onda bu respublikanı öz himayənizə götürün, rəhbər heyəti etibarlı və yetişmiş kadrlarla əvəzləyin, orda nizam-intizamı bərpa edin”.

Həmin an M.C.Bağırov Dağıstana yeni rəhbər kimi Əziz Əliyevin namizədliyini irəli sürür. O, deyir: “Yoldaş Stalin, siz Əziz Əliyevi tanıyırsınız. O, istər İranda, istərsə də burada Mərkəzi Komitədə təşkilatçı partiya işçisi kimi özünü yaxşı tərəfdən göstərib”. Stalin Bağırovun sözünü bitirməyə imkan vermədən “doğru və düzgün namizəddir”, – deyərək razılığını bildirir.

Beləliklə, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçilən Əziz Əliyevlə birlikdə Azərbaycanın hüquq-mühafizə orqanlarının, komsomolun, həmkarlar ittifaqlarının böyük bir qrupu Dağıstana ezam edilir. Əziz Əliyev başda olmaqla, oraya göndərilən insanların fədakar əməyi sayəsində müharibə illərində və müharibədən sonra bu respublikada heç bir neqativ fakt meydana çıxmadı. Beləliklə, Dağıstan xalqlarının köçürülməsi məsələsi bir daha qaldırılmadı.

Sonda qeyd etmək istəyirəm ki, bu tədqiqat əsəri, həqiqətən də, tariximizin bir çox gizli səhifələrinə işıq salır və gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsində xüsusi əhəmiyyət kəsb edir.

*Vaqif ŞADLİNSKİ,*
*Əməkdar elm xadimi,*
*Rusiya Tibb Elmləri*
*Akademiyasının akademiki*

# KOB-ların iqtisadiyyata önəmli töhfəsi

**Azərbaycanda 2018-ci ildən bəri kiçik və orta biznes (KOB) subyektlərinin sayı 64 faizə yaxın artaraq 401 mini keçib. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov məlumat verib.**



Ötən müddətdə KOB-ların yaratdığı əlavə dəyərin 2 dəfədən çox artaraq 9,8 milyard manatdan 20,1 milyard manata çatdığını bildirən agentlik rəhbərinin sözlərinə görə, ötən il bu kateqoriyadan olan bizneslərin dövriyyəsi 43,8 milyard manat təşkil edib ki, bu da ölkə üzrə qeyri-neft dövriyyəsinin 37,3 faizi deməkdir.

Hazırda ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasının yeni çağırışlar fonunda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirən O. Məmmədov deyib ki, bu məqsədlə ölkədə müxtəlif strateji proqramlar həyata keçirilir, sahibkarlar üçün geniş vergi stimulları tətbiq olunur, real sektora investisiyalar təşviq edilir, bizneslərin inkişafı üçün çoxsaylı dəstək mexanizmləri və yeni təşkilati-hüquqi modellər hazırlanır: "Sevindirici haldır ki, bizneslərin inkişafı sahədə dövlətimizin yaratdığı yeni təşkilati-hüquqi model və dəstək mexanizmləri beynəlxalq səviyyədə nümunəvi təcrübə kimi təqdir olunur".

# Əhalinin gəlirləri 6 faiz artıb

**Bu ilin yanvar–noyabr aylarında Azərbaycan əhalisinin nominal gəlirləri 74 milyard 670,8 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-noyabr aylarında Azərbaycan əhalisinin nominal gəlirləri 74 milyard 671 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 6,3 faiz çox) təşkil edib.

Son 1 ildə ölkədə adambaşına düşən nominal gəlir isə 5,8 faiz artaraq 7 min 319 manata çatıb.

# Azərbaycanın Gürcüstana yatırımı çoxalır

**Ölkəmizdən Gürcüstana yatırılan birbaşa investisiyaların həcmi getdikcə artır. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2024-cü ilin yanvar–sentyabr aylarında qonşu ölkəyə 95 milyon 750 min ABŞ dolları investisiya yönəldilib.**



Bu isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 45 milyon dollar və ya 88,8 faiz çoxdur. Belə ki, 2023-cü ilin müvafiq dövründə Azərbaycandan Gürcüstana 50 milyon 710 min dollar birbaşa investisiya yatırılıb.

Qeyd edək ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycandan xarici iqtisadiyyata yatırılan birbaşa investisiyaların ümumi həcmi 1 milyard 380,6 milyon ABŞ dolları təşkil edib.

# Aqrar büdcə bir az da böyüyür

## *Gələn il bu sahə 1,2 milyard manatdan çox vəsait alacaq*

**Son illər Azərbaycanda aqrar sahənin potensialından səmərəli istifadə olunması məsələsi getdikcə daha çox aktuallıq kəsb edir. Təsadüfi deyil ki, ölkədə kənd təsərrüfatının inkişafının diqqətdə saxlanılması, bu sahədə fəaliyyətin təşviq edilməsi məqsədilə çoxşaxəli dəstək tədbirləri həyata keçirilir.**

Bu baxımdan iqtisadiyyatın mühüm sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorun inkişafını ləngidən problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması istiqamətində reallaşdırılan tədbirlər diqqət çəkir. Ötən müddətdə dövlətin bu sahədə həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı layihələri aqrar sektorda təşəbbüskarlığa geniş meydan açıb. Məhz bunun nəticəsidir ki, son illər iri biznes qruplarının, eləcə də kiçik və orta sahibkarların kənd təsərrüfatı sektorunda xüsusi fəallığı müşahidə olunur.

Azərbaycan əhalisinin təqribən yarısının yaşadığı regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən istənilən tədbir yerlərdə məşğulluğun təminatına mühüm töhfə verir. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da ölkədə bitkiçilk və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Gələn il üçün dövlət büdcəsində kənd təsərrüfatı sahəsinə ayrılması nəzərdə tutulan vəsaitin həcmi də 30 milyon manatdan çox artırılıb. Milli Məclisin birinci və ikinci oxunuşda qəbul etdiyi "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində kənd təsərrüfatı sahəsi üçün 1 milyard 171 milyon 863 min manat vəsait nəzərdə tutulub. Üçüncü oxunuşda Milli Məclisə təqdim edilən layihədə isə bu istiqamət üzrə ayrılacaq vəsaitin 31 milyon 942 min manat artırılacağı, başqa sözlə, aqrar sektorun inkişafına 1 milyard 203 milyon 805 min manat yönəldiləcəyi bildirilib.

Buradan aydın görünür ki, kənd təsərrüfatına ayrılan vəsaitlərin mühüm bir hissəsi 2025-ci ildə əvvəlki dövrlərdə olduğu kimi, ölkənin ərzaq təhlükəsizliyinin təminatına, aqrar sektorun inkişafına yönəldilib. Baş nazir Əli Əsədovun Milli Məclisin dekabrın 16-da keçirilən plenar iclasındakı çıxışında da hökumətin əsas vəzifələrindən birinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxalın əvəzləşdirilməsi və ixrac coğrafiyasının şaxələndirilməsi olduğu bildirilib.



Büdcə sənədinə əsasən, 2025-ci ildə dövlət büdcəsindən ölkədə ərzaq təhlükəsizliyi tədbirləri üçün 527,5 milyon manat vəsait (2024-cü illə müqayisədə 24,6 milyon manat və ya 4,9 faiz çox) proqnozlaşdırılıb. Ərzaq təhlükəsizliyi tədbirləri üçün ayrılmış vəsait hesabına kənd təsərrüfatı istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlərin, kənd təsərrüfatı sahəsində digər tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulub. Əlbəttə, bu zaman aqrar sektorun ayrı-ayrı sahələrinin subsiyalaşdırılması diqqətdə saxlanılıb.

Həyata keçirilən dəstək tədbirlərinin nəticəsidir ki, cari ilin yanvar–noyabr aylarında ölkədə 12 milyard 216 milyon manat dəyərində (ötən ilin eyni dövrü ilə müqayisədə 1 faiz çox) kənd təsərrüfatı məhsulu istehsal edilib. Son bir ildə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 0,6 faiz artaraq 6 milyard 23 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,4 faiz artaraq 6 milyard 192 milyon manat olub.

Dekabrın 1-nə qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 245,9 min ton və yaxud 1 il əvvələ nisbətən 0,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 831,5 min ton (1 faiz çox) tərəvəz, 1 milyon 309,3 min ton (4,8 faiz çox) meyvə və giləmeyvə, 490,4 min ton (11,9 faiz çox) bostan məhsulları, 213,7 min ton (0,1 faiz çox) şəkər çuğunduru, 31,1 min ton (6,3 faiz çox) günəbaxan, 5,9 min ton (12,8 faiz çox) tütün yığılıb.

11 ay ərzində quş əti də daxil olmaqla diri çəkidə 543,6 min ton ət, 2 milyon 80,4 min ton süd, 2 milyon 97,7 milyon ədəd yumurta, 14,8 min ton yun, 239,4 ton barama istehsal olunub, illik müqayisədə ət istehsalı 1 faiz, süd istehsalı 0,9 faiz, yumurta istehsalı 4,8 faiz artıb.

Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta mexanizminin tətbiqi də genişləndirilib. Aqrar Sığorta Fondunun zərər görmüş fermerlərə ödənişləri sürətlə artırılıb.Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin 10 ayında fermer və təsərrüfatlara 4 milyon manat sığorta ödənişi edilib. Ümumilikdə isə, indiyədək fondu tərəfindən fermerlərə 11 milyondan artıq sığorta ödənişi gerçəkləşdirilib.

Aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilə yanaşı, ixrac potensialının da artırılmasına mühüm töhfələr verir. Gələcəkdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında da aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunur.



# İstehlak bazarı 67 milyard manatı ötüb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar–noyabr aylarında Azərbaycanda istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 67,4 milyard manat (keçən ilin müvafiq dövrünə nisbətən 4,8 faiz çox) təşkil edib. Həmin göstəricinin 80 faizi pərakəndə ticarətin, 16,9 faizi ödənişli xidmətlərin, 3,1 faizi isə ictimai iaşənin payına düşüb.**

Qeyd edək ki, qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,7 faiz artaraq 64,7 milyard manata bərabər olub, onun 46,7 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində əldə edilib.

# 24 ölkəyə 21,5 milyon ton neft ixrac olunub

**Cari ilin yanvar–noyabr aylarında Azərbaycan dünyanın 24 ölkəsinə 13 milyard 304 milyon 395,4 min dollar dəyərində 21 milyon 555 min 781,63 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**



Komitənin hesbatına əsasən, bu ilin 11 ayında İtaliyaya 6 milyard 141 milyon 532,2 min dollarlıq 9 milyon 862 min 810,89 ton neft ixrac edilib. Bununla da, İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə birinci olub. Ölkəmizin ümumi neft ixracında ikinci yerdə Çexiya qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 977 milyon 547,28 min dollar dəyərində 1 milyon 583 min 207,32 ton neft ixrac olunub. Siyahıda ilk üçlüyü isə Xorvatiya tamamlayıb. Belə ki, 11 ayda bu ölkəyə 873 milyon 398,61 min dollarlıq 1 milyon 436 min 178,46 ton neft göndərilib.

Xatırladaq ki, hesabatda qeyd olunan göstəricilərdə yanvar–noyabr aylarında gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

# İlin ən fəal sahibkarları

**"Dayaq" mükafatının sahibkarlara təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə mərasim keçirilib. Tədbirdə 2024-cü ildə ölkəmizdə sosial-iqtisadi sahədə, özəl bölmədə qazanılan uğurlar, sahibkarların məşğulluğun təmin olunmasında rolu, növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində yeniliklər barədə məlumat verilib. Eyni zamanda, kiçik və orta biznes (KOB) nümayəndələrinin dayanıqlı və davamlı iqtisadi inkişafda, "yaşıl" keçiddə rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirləri dinlənilib.**



Mərasimdə KOB-ların təhsil, elm-tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA-nın elan etdiyi 6-cı qrant müsabiqəsinin 20 qalibinə qrant mükafatları təqdim olunub. Qeyd edək ki, KOB-ların sadalanan istiqamətlər üzrə layihələrinin maliyyələşdirilməsinə dəstək məqsədilə indiyədək keçirilən 6 qrant müsabiqəsi çərçivəsində 99 layihəyə 1,7 milyon manat həcmində qrant vəsaiti ayrılıb.

Xatırladaq ki, 2022-ci ildə təsis olunan "Dayaq" mükafatının sahibkarlara verilməsi biznesdə innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsalını gerçəkləşdirən, fəal investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun reallaşdırılmasına öz töhfəsini verən şirkətləri mükafatlandırmaqla onları stimullaşdırmaq, eləcə də iş adamlarının qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirmək məqsədi daşıyır. Rəmzi məna ifadə edən bu mükafat həm də dövlətin daim sahibkarların yanında olduğunu göstərir.




# Orta Dəhlizlə daşımalar 63 faiz yüksəlib

**Qazaxıstanın Nəqliyyat Nazirliyinin mediada yayılan məlumatına görə, cari ilin 11 ay ərzində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yük daşımalarının həcmi (ötən ilin eyni dövrü ilə müqayisədə 63 faiz çox) 4,1 milyon tona çatıb. Hesabat dövründə bu marşrutla konteyner daşımaları 50,5 min TEU (1il əvvələ nisbətən 2,6 dəfə çox) təşkil edib.**

Məlumatda Orta Dəhlizin davamlı artım göstəriciləri ilə diqqət çəkdiyi, marşrutun buraxılış qabiliyyətinin ildə 6 milyon tona, o cümlədən 100 min TEU konteyner daşımalarına qədər artması ilə təsdiqləndiyi, ötürücülük qabiliyyətinin artırılmasına və xidmət keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş infrastrukturun modernləşdirilməsinə xüsusi önəm verildiyi qeyd olunub.

Xatırladaq ki, Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə uzanan beynəlxalq nəqliyyat dəhlizidir.

# Sənaye zonaları 2,4 milyard manatlıq məhsul satıb



**Sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılması dövlət dəstəyi tədbirlərindəndir. Bunu iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev sahibkarlara 2024-ci il üzrə "Dayaq" mükafatının təqdim edilməsinə həsr olunmuş mərasimdə bildirib.**

İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən nazir müavini deyib ki, 2024-cü ilin 9 ayı ərzində sənaye zonalarında 2,4 milyard manatlıq satış həyata keçirilib. Bunun da 801,1 milyonluq hissəsi ixracın payına düşür. Onun sözlərinə görə, bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 17,5 faiz, ixracında isə 26 faiz təşkil edib. "Beləliklə, özəl sektor yaradılmış əlverişli imkanlardan səmərəli yararlanmaqla biznes fəaliyyətini genişləndirir, iqtisadi inkişafda mühüm rol oynayır", – deyə o əlavə edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Qırmızı işıq

# Xəzər nərəsiz qalmasın!



**Rusiyanın Balıqçılıq üzrə Federal Agentliyinin rəhbəri İlya Şestakov yerli mediaya verdiyi məlumatda Xəzər dənizində nərə balıqlarının kommersiya ovuna qoyulan qadağanın ləğvinin hələ planlaşdırılmadığını bildirib. İ.Şestakov qadağanın ləğv edilməsi ilə bağlı hələlik elə bir qərar olmadığını, Xəzərdə nərə balığı ehtiyatları ilə bağlı vəziyyətin isə ciddi narahatlıq doğurduğunu qeyd edib.**

Xatırladaq ki, Rusiyanın Balıqçılıq üzrə Federal Agentliyinin rəhbəri bununla əlaqədar komissiyanın cari ilin sonunadək Həştərxanda toplaşacağını, növbəti dəfə nərə balıqlarının kommersiya ovuna məhdudiyyətlərin tətbiq ediləcəyini də diqqətə çatdırıb.

Qeyd edək ki, Xəzər nərəkimilərin yox olması təhlükəsi ilə üz-üzədir. Səbəblər isə müxtəlifdir. Onlardan biri su elektrik stansiyaları, bəndlərin tikintisi və dənizin səviyyəsinin aşağı düşməsi nəticəsində təbii kürünün tökülməsi sahələrinin azalmasıdır. Bu proses sovet dövründən indiyədək dəyişməz qalır. O vaxtdan Volqa və Kama çaylarında bəndlərin tikilməsi səbəbindən nərəkimilərin kürü tökmə yerlərinə keçməsi reallaşmır.

Eyni vəziyyət Kür çayında da müşahidə olunur. Mingəçevir Su Elektrik Stansiyası tikildikdən sonra nərə balıqları kürü tökə bilmir. Coğrafiya elmləri doktoru Səid Səfərov çayın aşağı axarlarında vəziyyətin pisləşdiyini deyir: “2010-cu ildən başlayaraq Kür çayının illik axını getdikcə azalır. Bəzən çay dənizə çatmır. Bu səbəbdən də dəniz suyu Salyana qədər Kürün aşağı axar hissəsini doldurur. Təbii ki, bunun nəticəsində nərə balıqlarının kürüləməsi və təbii çoxalması üçün Kürə girməsi qeyri-mümkün olur. Bu, o deməkdir ki, balıq ehtiyatlarının təbii artırılması mümkün deyil, balıq resursları getdikcə azalır”.

Nərə balığının nəslinin kəsilmə təhlükəsinin səbəblərindən biri də onların qeyri-qanuni ovudur. Brakonyerlik nərə balığının sənaye ovunun dayandırıldığı zaman onu 30 dəfə üstələyirdi. Bu gün də brakonyerlik hallarına rast gəlinir. Həyata keçirilən davamlı tədbirlərə baxmayaraq, balıq ehtiyatlarının qanunsuz ovlanmasının, satışının qarşısının alınması tamamilə mümkün olmur və hələ də belə hallara rast gəlinir.

Bunun qarşısının alınması ilə əlaqədar çətinlik isə bir sıra amillərlə bağlıdır. Aparılan reyd və araşdırmalar göstərir ki, əsasən qanunsuz balıq ovu ilə məşğul olan brakonyerlərə kənardan ayrı-ayrı imkanlı və nüfuzlu şəxslər himayədarlıq edir, onlar iri tutumlu, sürətli və güclü motorlara malik qayıqlarla təmin edilir. Belə qanun pozucuları Xəzər dənizinin sahilindən 10 kilometrlərlə uzağa getmək və orada qanunsuz balıq tutmaq imkanlarına malikdirlər. Texniki təchizatın tələb edilən səviyyədə olmaması səbəbindən həmin sürətli qayıqların saxlanılması və qanun pozucularınının məsuliyyətə cəlbi bir sıra hallarda mümkün deyil.

Qanunsuz ovlanmış balıqların, o cümlədən nərəkimilərin müxtəlif yerlərdə satılmasının qarşısının alınmasında da ciddi çətinliklər var. İstənilən Xəzər regionunda olduğu kimi, Bakı bazarlarında nərə balıqlarının ovuna qadağa qoyulmasına baxmayaraq, həm onu, həm də qara kürünü almaq mümkündür. Satılan balıqların arasında körpə nərə balıqlarına da rast gəlinir. Belə bir hal onsuz da nəsli kəsilməkdə olan bu balıqların tamamilə yox olmasına şərait yaradır.

Digər problem isə dənizin çirklənməsidir. Neftlə çirklənmə Xəzər dənizində fitobentos və fitoplanktonun inkişafına mane olur. Çirklənmənin artması su səthi ilə atmosfer arasında istilik, qaz və nəm mübadiləsinə mənfi təsir göstərir. Neft pərdəsinin geniş əraziləyə yayılması səbəbindən buxarlanma sürəti bir neçə dəfə azalır. Nəticədə biomüxtəliflik pozulur.

Dənizin çiriklənməsinə sənaye müəssisələri də mənfi təsir göstərir. 1980-ci illərdə Volqa sahilində yerləşən kimya zavodlarından birində qəza nəticəsində zəhərli maddələrin böyük bir hissəsi çaya axıb. Zəhərlənmə o qədər güclü olub ki, tutulan balıqların ətləri liflərə parçalanıb. Həmin vaxt çox sayda balıq ölüb. Sağ qalanlar isə özlərində zərərli maddələr toplayıb. Bu da nərə balıqlarının populyasiyasını zəiflədib.

S.Səfərovun sözlərinə görə, Xəzər dənizinin çirklənməsi nadir balıqlarla yanaşı, digər canlı orqanizmlərin ölümünə, ekosistemin ciddi dəyişikliklərə məruz qalmasına səbəb olur. Nəticədə yem ehtiyatı da tükənir. Kilkələrin kəskin azalması onlarla qidalanan nərə və digər balıqların azalmasını şərtləndirir.

Temperatur artımı da təsirsiz ötüşmür. Yüksək temperatur oksigen çatışmazlığı yaradır, biokütləsi azalan Xəzər zooplanktonunun biomüxtəlifliyini məhv edir. Plankton və zoobentos növlərinin yox olması həm də yeni növlərin ortaya çıxmasına səbəb olur. Məsələn, dənizdə “Mne obsis ledi” adlı həşərat əmələ gəlib. Həmin həşəratlar kilkə balıqlarını məhv edir. Əlbəttə, çox yaxın gələcəkdə bu, nəinki nərəkimilərin azalmasına, həm də Xəzər regionunda balıqçılığın sosial-iqtisadi vəziyyətinə təsir göstərəcək.

Yuxarıda göstərilən problemlərin hamısı ciddi nəticələrə, yəni nərə balığının nəslinin kəsilməsinə gətirib çıxarır. Bunu rəqəmlər də təsdiqləyir. Su hövzəsində nərə balıqlarının ovlanması üzrə ən yüksək göstəricilər XX əsrin əvvəllərində 39,4 min ton və 1970-ci illərin sonlarında 27,4 min ton olub. 1991-ci ildən başlayaraq nərə balıqlarının sayında kəskin azalma qeydə alınıb. 1995-ci ildə 5 min 600 ton nərə balığı ovlanıb. Bu rəqəm 2005-ci ildən sonra 1000 ton civarında olub.

Bu, kürünün azalmasında da özünü göstərir. Nəzərə alaq ki, vaxtilə dünyanın ən qiymətli dəniz məhsularından olan qara kürünün 80 faizdən çoxu Xəzər dənizindən əldə olunurdu. Təbii ki, söhbət təmiz qara kürüdən gedir. Hazırda qara kürü əsasən, lüks restoranların menyusunda və xarici qonaqların hədiyyələri arasında öz yerini tutur.

Beləliklə, nərəkimilərin çoxalma qabiliyyətinin zəif olması, çay hövzələrində onların kürü tökmə sahələrinin azalması, təsərrüfat fəaliyyətinin inkişafı XX əsrin sonlarında nərə balıqlarının nəsli kəsilməkdə olan növlərinin inkişafını ləngidib. Qiymətli balığın yox olma təhlükəsi isə bölgədə nərə balıqlarının süni çoxaldılmasına səbəb olub.

Hazırda Xəzər hövzəsində nərə balıqlarının çoxaldılması, əsasən nərə balıqlarının yetişdirilməsi zavodlarının fəaliyyəti hesabına təmin edilir. Azərbaycan, İran, Qazaxıstan və Rusiyada balıqartırma zavodları fəaliyyət göstərir. Bu müəssisələrdən ən böyüyü Neftçala rayonundakı Xıllı Balıqartırma zavodudur. Burada məqsəd təbiətdə nərə balıqlarının təbii populyasiyasının qorunması və ehtiyatının bərpasını təmin etməkdir. Əgər bu fəaliyyət olmasaydı, indi Xəzər dənizində nərə balıqlarının çoxaldılmasını təmin etmək mümkün olmazdı.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# “Yaşıl” layihələrə “manat” istiqrazları

**Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyası (İFC) ölkəmizdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kreditlərə çıxışını genişləndirmək, aztəminatlı ev təsərrüfatlarına dəstək olmaq və “yaşıl” layihələrin maliyyələşdirilməsi məqsədilə Azərbaycan manatı ilə denominasiya olunmuş istiqrazlar buraxıb.**

Beynəlxalq Maliyyə Korporasiyasının bununla bağlı yaydığı məlumata əsasən, dördillik istiqrazlar nəticəsində 34 milyon manat (20 milyon ABŞ dolları ekvivalenti) cəlb edilib. Qurum hesab edir ki, bu, biznes subyektləri və aztəminatlı ev təsərrüfatları üçün iqlim maliyyələşdirməsinə çıxışı artıraraq ölkədə iqlim layihələrinin inkişafına töhfə verəcək. İstiqrazlar Lüksemburq Fond Birjasında ticarət olunur və sosial davamlılığın gücləndirilməsi ilə yanaşı, geniş auditoriya üçün “yaşıl” texnologiyalara çıxışı təmin edir. Emissiyanın dillerliyini “Standard Chartered Bank” həyata keçirib.




Beynəlxalq Maliyyə Korporasiyasının Xəzinə müştəri həlləri departamentinin direktoru Keşav Qaur bildirib ki, kapital bazarlarının imkanlarından istifadə etməklə IFC bizneslərə yerli valyutada maliyyələşmə imkanı yaradır və xarici valyutada borclanma risklərini azaldır. “Bu istiqrazlar təkcə özəl biznesi və ekoloji cəhətdən davamlı layihələri dəstəkləmir, eyni zamanda, Azərbaycanın iqtisadiyyatını şaxələndirir, dayanıqlığı gücləndirir və uzunmüddətli inkişafa zəmin yaradır”, – deyə o əlavə edib.

“Capitulum Fondu”nun idarəçisi Teodor Kirşner isə IFC ilə əməkdaşlığın önəmini vurğulayaraq deyib: “Biz IFC ilə uzunmüddətli əməkdaşlığımızı yüksək qiymətləndiririk. Bu əməkdaşlıq bizə Azərbaycan kimi inkişaf etməkdə olan bazarlarda yerli faiz dərəcələrinə çıxış imkanı verir, eyni zamanda, cəlb edilmiş vəsaitlərin şəffaf və davamlı istifadəsini təmin edir. Biz aktiv sinifimizin inkişafı və davamlı layihələrin irəliləməsi üçün əməkdaşlığımızı genişləndirməyi səbirsizliklə gözləyirik”.

Qeyd edək ki, Beynəlxalq Maliyyə Korporasiyası 2020-ci ildən etibarən bir ildən dörd ilədək müddətə və dövlət etalonundan 300 baza bəndi aşağı faiz dərəcələri ilə 189 milyon manatdan çox məbləğdə istiqrazlar buraxıb. IFC-nin fəaliyyətinə gəldikdə isə, qurum Dünya Bankı Qrupunun üzvü olaraq inkişaf etməkdə olan bazarlarda özəl sektora fokuslanmış ən böyük qlobal inkişaf institutudur. 100-dən çox ölkədə fəaliyyət göstərən IFC, kapital, bilik və təsir imkanlarından istifadə edərək bazarlar və imkanlar yaradır. 2024-cü maliyyə ilində qurum inkişaf etməkdə olan ölkələrdə özəl şirkətləri və maliyyə institutlarını dəstəkləmək üçün rekord həcmdə – 56 milyard ABŞ dolları vəsait ayırıb.

# Bakı konfransı qlobal hədəfləri aktuallaşdırdı

**İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının keçmiş vitse-prezidenti, COP Bürosunun üzvü Andrey Boiç Azərbaycan mediasına müsahibəsində 29-cu iqlim konfransında əldə edilən razılaşmaların ətraf mühitin yaxşılaşmasına mühüm təsir göstərəcəyini, həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə bu istiqamətdə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində əhəmiyyətli rol oynayacağını bildirib.**

Onun sözlərinə görə, Bakı razılaşmaları karbon bazarları sahəsində tarixi nailiyyətdir: “Təxminən 10 illik danışıqlardan sonra ölkələr Paris Sazişi çərçivəsində karbon bazarlarının fəaliyyəti ilə bağlı yekun razılığa gəliblər. Bu isə karbon kreditləri mexanizmini və onların ticarətini işə salmağa imkan verəcək”.



Keçmiş vitse-prezident, həmçin vurğulayıb ki, Bakıda əldə edilən razılaşma karbon emissiyaları və kreditləri üzrə kvotalarla ticarətin koordinasiyasında aydınlığı gerçəkləşdirir, Pais Sazişinin VI maddəsinin qəbulu isə iqlim ambisiyalarını artırmaq və iqlim maliyyəsini səfərbər etmək üçün karbon bazarlarında əməkdaşlığın qurulmasında tarixi mərhələni şərtləndirir.

A.Boiç belə bir əminliyini də diqqətə çatdırıb ki, Pais Sazişinin sözügedən maddəsinin ölkələrə öz iqlim ambisiyalarını daha ucuz və sürətlə həyata keçirməyə və qarşıdakı 10 illik bir dövrdə qlobal emissiyaların 2 dəfə azaldılmasında tərəqqini reallaşdırmağa mühüm təsir göstərəcək.

A.Boiçin fikrincə, indi ölkələr iqlim fəaliyyətlərini sürətləndirmək, eləcə də milli səviyyədə müəyyənləşdirilən töhfələri yerinə yetirmək üçün özəl sektor kapitalını səfərbər edə bilərlər: “Bakıda Pais Sazişinin VI maddəsi üzrə yekdilliklə qəbul olunan qərarlar real emissiya azalmaları hesabına karbon bazarlarının ekoloji bütövlüyünün və şəffaflığının təmin edilməsi, həmçinin qlobal iqlim investisiyalarının stimullaşdırılması üçün böyük potensialın üzə çıxarılmasında əhəmiyyətli rol oynayacaq”.

# TAP hidrogen nəqlinə uyğunlaşdırılacaq

**Trans-Adriatik Boru Kəməri (TAP) özünü Paris Sazişinin məqsədlərinin həyata keçirilməsində mühüm tərəfdaş kimi görür. Bu marşrut potensial olaraq Avropa İttifaqını hidrogen və biometan kimi karbon neytral enerji mənbələri ilə təmin edir.**




TAP-ın icraçı direktoru Luka Skiepatti mediaya məlumatında bildirib ki, məqsəd adıçəkilən boru kəmərini hidrogenin nəqli üçün uyğunlaşdırmaqdır: “Biz mövcud infrastrukturun təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki baxımdan nə dərəcədə mümkün olduğunu yüksək qiymətləndiririk. Bunun üçün orta və uzunmüddətli perspektivdə belə qarışıqların, o cümlədən digər bərpa olunan qaz növlərinin nəqlinə hazırlığı təmin edəcək yol xəritəsi hazırlanıb”.

O xatırladıb ki, 2021-ci ildə aparılan ilkin tədqiqat TAP-ın gələcəkdə təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki potensialını təsdiqləyib. Bu isə boru kəmərinin enerji keçidinin tələblərinə uyğunlaşdırılması üçün əlavə perspektivlər açıb.

“Hazırda boru kəmərinin materiallarının beynəlxalq laboratoriyada sınaqları keçirilir. Dəniz boru kəmərlərinin materiallarına dair nəticələr bu ilin dördüncü rübündə gözlənilir. Bu məlumatlara əsasən, TAP nəticələri qiymətləndirəcək və 2025-ci ildə əlavə sınaqların zəruriliyini müəyyənləşdirəcək. Bununla yanaşı, bu il yerüstü qurğular üçün boşluq analizinə başlanılıb və bu işlər gələn il davam etdiriləcək”, – deyə L.Skiepatti bildirib.

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP kəməri vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstana və Bolqarıstana isə hər birinə 1 milyard kubmetr qaz tədarük edilir.

2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya Azərbaycan qazının nəqli başlanılıb. TAP vasitəsilə Azərbaycan ilk dəfə olaraq tarixdə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına ixrac edib. Dünyanın ən böyük təbii qaz idxalçısı olan Avropa bazarına birbaşa çıxış əldə etməklə Azərbaycan öz ixrac imkanlarını şaxələndirib.

# Qırğızıstanın COP29 uduşu

**Qırğız Respublikasının təbii sərvətlər, ekologiya və texniki nəzarət naziri Meder Maşiyev Azərbaycan mediasına müsahibəsində Bakıda keçirilən COP29 konfransını qlobal iqlim dəyişikliyi ilə mübarizə kontekstində mühüm hadisə olduğunu bildirib.**

Bu konfransda vacib məsələlər müzakirə edildiyini və istixana qazı emissiyalarının azaldılması və ekosistemlərin davamlılığının qorunması sahəsində tədbirlərin gücləndirilməsinə dair önəmli qərarlar imzalandığını deyən M.Maşiyev əldə edilmiş razılaşmaların beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, ölkələrin Paris Sazişinin icrasına əsl sadiqlik nümayişi və bu məsələdə irəliyə doğru atılan mühüm addım kimi dəyərləndirib.

Nazir M.Maşiyev müzakirə olunan mövzular arasında iqlim təşəbbüslərinin maliyyələşdirilməsi ilə bağlı məsələlərin yer almasını Qırğızıstan kimi inkişaf etməkdə olan iqtisadiyyatlar üçün mühüm önəm daşıdığını vurğulayıaraq deyib: “İqlim maliyyələşdirilməsi ilə bağlı əldə edilmiş razılaşmalar, o cümlədən inkişaf etməkdə olan ölkələr üçün onun həcminin 2035-ci ilə qədər 300 milyard ABŞ dollarına çatdırılması Qırğızıstan üçün yeni imkanlar açır.

Qırğızıstan üçün “yaşıl” enerjinin inkişafı, kənd təsərrüfatının iqlim dəyişikliyinə dayanıqlığının artırılması, su ehtiyatlarının qorunması və təbii ekosistemlərin idarə edilməsinin təkmilləşdirilməsi məsələləri xüsusilə vacibdir”.

Onun sözlərinə görə, Qırğızıstan COP29-un çağırışlarının öhdəsindən gəlmək üçün qrant və investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq tərəfdaşlarla fəal şəkildə işləyir, eləcə də səmərəli iqlim strategiyalarının hazırlanması və tətbiqi üzrə daxili mexanizmləri möhkəmləndirir.Eyni zamanda, Mərkəzi Asiyanın gələcək iqlim təşəbbüsləri çərçivəsində öz strateji mövqeyini gücləndirir.

# “Yaşıl” avtomobillər çoxalır

**Azərbaycanda “yaşıl” dövrün avtomobillərinə maraq getdikcə artır. Bu tendensiya cari ilin 11 ayında ölkəyə gətirilmiş elektromobillərin sayında da aydın nəzərə çarpır.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, yanvar-noyabr aylarında Azərbaycana yalnız elektrik mühərriklə hərəkətə gətirilən 2 min 871 nəqliyyat vasitəsi idxal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 134 ədəd çoxdur. Sözügedən avtomobillərin dəyəri 114 milyon 792 min ABŞ dolları təşkil edib. Bu isə ötən ilin 11 ayına nisbətən 3 milyon 745 min dollar və ya 3,4 faiz artıqdır.

Yanvar-noyabr aylarında ölkəyə enerjini xarici mənbədən doldurma qabiliyyətinə malik olanlar istisna olmaqla daxiliyanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən 350 milyon 411 min dollar dəyərində 14 min 176 elektrik nəqliyyat vasitəsi gətirilib. Bundan əlavə, sözügedən dövrdə ölkəyə elektrik enerjini xarici mənbədən doldurma qabiliyyətinə malik olan, daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən 250 milyon 349 min dollarlıq 8 min 478 avtomobil idxal olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Bu dəfə İkinci Qarabağ müharibəsinin qəhrəman zabiti, Azərbaycan Silahlı Qüvvələrinin artilleriya divizionunun qərargah rəisi, "Rəşadət" ordenli mayor Ramil Mərdan oğlu Ağayevdən söhbət açacağıq. O Ramil ki, uğrunda şəhid olduğu Qarabağdan xeyli uzaqda – ucqar Lerikdə dünyaya göz açmışdı. 1984-cü il dekabrın 20-də doğulan igidimizin uşaqlıq illəri Talış dağlarının qoynunda keçmişdi.**

# Lerikin "Rəşadət"li oğlu

## Hərbçi olmaq istəyi

Ramil Milli Qəhrəman, şəhid Valeh Müslümov adına Lerik şəhər 2 saylı tam orta məktəbdə oxuyub. O, Valehdən yaşca çox kiçik olsa da, bir məhəllədə yaşadıqları üçün onu tanıyırdı. Onda Ramilin 8 yaşı vardı. Şəhidliyi ilə Lerikin qüruru olan Valehin dəfn günü atası Mahir müəllimin ağladığını görəndə, onun övladına qıyan namərd ermənilərə qarşı ürəyinə nifrət və qisas toxumu düşmüşdü...

Ramil dərslərini əla oxuyub, sinifdə hamıdan seçilib. Riyaziyyat fənnini çox gözəl bildiyindən iqtisadçı olmağı düşünüb. Amma 11-ci sinifdə fikrini dəyişib. Şəhidin müəllimi Həmid İmanov bu barədə deyir: "Ramil Ağayevin riyaziyyat fənninə böyük marağından xəbərim var idi və iqtisadiyyat yönümlü ali məktəblərə hazırlaşdığını eşitmişdim. Bir gün onların sinifində şagirdlərə Şuşanın işğalı günü ilə bağlı geniş tarixi məlumat verir, Pənahəli xanın saldığı bu şəhərin Azərbaycan üçün nə qədər böyük əhəmiyyət daşıdığının izahını verirdim. Uşaqlar qəfil sual verdilər ki, müəllim, Şuşa nə vaxt azad ediləcək? Cavab verdim ki, "Şuşanın azad edilməsi sizdən asılıdır. Əgər siz savadlı, vətənpərvər olsanız, aranızdan hərbiçi olsa, hərbi xidmət zamanı döyüş vərdişlərini dərindən öyrənsəniz, Vətəni sevsəniz torpaqlarımızı, elə Şuşanı da siz azad edəcəksiz".

Bu məqamda Ramil cəld ayağa qalxıb dedi: "Müəllim sizə söz verirəm ki, mən hərbiçi olacağam. Torpaqlarımızı nəyin bahasına olur-olsun işğaldan azad edəcəyik". Ramil həqiqətən verdiyi vədə əməl etdi".

## Kursant Ramil

Ramil 2001-ci ildə orta təhsilini başa vurduqdan sonra hərbçi olmaq fikrini qəti qərarlaşdırdı. İlk cəhd uğursuz olsa da, 2002-ci ildə yüksək balla Heydər Əliyev adına Ali Hərbi Məktəbə raket-artilleriya ixtisasına qəbul olundu.

Orta məktəbdə ibtidai hərbi hazırlıq müəllimi, Birinci Qarabağ müharibəsi iştirakçısı olan əmisi Araz Ağayev onu təbrikə gələndə ilk sözü bu oldu ki, yaxşı zabit olmaq üçün təkcə cəsarət və mərdlik azdır. Öncə savadlı olmalı, hərbi taktika və strategiyanı yaxşı öyrənməlisən. Ramil əmisinin demək istədiklərini anlamışdı.



İki il Ramil üçün sanki bir göz qırpımında keçdi. Təhsilə başı elə qarışdı ki, vaxtın necə keçdiyini hiss etmədi. Arzuların qanadlandığı belə bir vaxtda, 2004-cü ildə atasının qəfil ölüm xəbəri Ramili sarsıtdı. Bir andaca bütün arzuları çilik-çilik oldu. Həyat yoldaşı Mərdanın ona əmanət etdiyi 4 uşağın taleyi az vaxtda saçları bəyazlamış Şərafət ananın ümidinə qaldı.

İlk günlərin kədər yükü onu arzularının yolundan sapdırmağa başlayanda kursant yoldaşları onun yanında olub özünə qapanmasına imkan vermədilər. Ramil anladı ki, daha böyük məsuliyyətlə oxumalı, atasının ona olan ümidlərini doğrultmalıdır.

## İlk xidmət yerləri

Ramil Ağayev 2006-cı ildə Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirib, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Ehtiyat Zabit Hazırlığı kursunda təlimlər keçir. Gənc leytenant Mingəçevir şəhərindəki "N" saylı hərbi hissəyə xidmətə göndərilir. 2007–2009-cu illərdə ilk təyinat yerində baş leytenant rütbəsi alır. 2010-cu ilin fevralında Gəncə şəhərindəki "N"saylı hərbi hissəyə xidmətə yola düşür. Çox keçmir ki, Ramil özünü cəbhə xəttinin ən qaynar nöqtəsində sınamaq qərarına gəlir və öz xahişi ilə ən ağır bölgələrdən olan Murovdağ silsiləsində xidmətə göndərilir. O, 2012-ci ildə Murovdakı çətin və sərt iqlim şəraitində ilk sınaqdan çıxır.

Ramil Ağayevin dostu, Xüsusi Təyinatlı Qüvvələrin giziri Vüqar Məmmədov o günləri belə xatırlayır:

– 2012-ci ildə Ramil Murovdakı "Sibir" postunun komandiri idi. Orada Aran Qarabağı Dağlıq Qarabağla birləşdirən strateji bir yüksəklik var. Bir gün gecə Ramil kiçik bir dəstə ilə az qala yarım saata həmin yüksəkliyə yürüş edib orda post qurdu və dərhal şəxsi heyəti ora yerləşdirdi. Ermənilər səhər durub bizim bayrağımızı görəndə qorxudan nə edəcəklərini bilmədilər. Dərhal həyəcan siqnalı çalındı. Elə bildilər ki, bizim qüvvələrimiz onların arxasına sızıb. Yüksəkliyə hücum etməyə cürətləri çatmadı. Həmin postda indi də bizim ordunun bölmələri yerləşir...

## Aprel döyüşləri

4 günlük Aprel döyüşləri Ramil Ağayevin artilleriyaçı zabit kimi bacarığını üzə çıxarmaq üçün sanki bir fürsət olur. Aprel döyüşlərində Ramil Ağayev minaatan batareyanın komandiri olub. Həmin günlər ən ağır döyüşlər Talış kəndi istiqamətində gedib. Komandanlıq kapitan Ağayevi yanına çağırıb kordinatları ona göstərib və düşmən mövqelərini ləngimədən susdurmağı tapşırır. Qısa vaxtdan sonra düşmənin atəş nöqtələri həmişəlik susur, çoxlu sayda canlı qüvvəsi və döyüş texnikası məhv edilir. Bu döyüşlərdən sonra bütün şəxsi heyət onunla fəxr edir.

…Goranboyun Tapqaraqoyunlu kəndində XTQ-nin bir qrupu xüsusi tapşırığı yerinə yetirmək üçün düşmənin arxasına keçir. Geri qayıdanda düşmən tərəf onları güclü atəşə tutur. Döyüşçülərimizin güllə yağışı altında çətin duruma düşdüyünü görəndə kapitan Ramil Ağayevə düşmənin atəş nöqtələrinə minaatanlardan zərbə endirmək tapşırılır. Zabit özü minaatanın arxasına keçir. 2–3 dəqiq atışdan sonra düşmənin atəş nöqtələri susur və XTQ-nin diversiya qrupu tapşırığı itkisiz başa vurur.

Cəsur kapitan Ramil Ağayevin döyüş məharətlərini müşahidə edən Aprel döyüşlərinin qəhrəman sərkərdələrindən biri, Milli Qəhrəman general-mayor Polad Həşimov ona şəxsi heyət qarşısında təşəkkür elan edir. Sonra gənc zabitin atəşləri nəticəsində mərmilərin düşmən mövqelərinə necə dəqiq düşdüyünü qeydə alan videogörüntülər komandanlığa nümayiş etdirilir. Korpus komandirinin müavini polkovnik Qiyas Abbasov qəhrəman zabitin vəzifə pilləsində irəli çəkilməsi barədə komandanlıq qarşısında vəsatət qaldırır. Kapitan Ağayevi fəxri fərmanla təltif edilir.

Aprel döyüşlərindən sonra, 2016-cı ilin mayında gənc zabit Naftalan şəhərindəki "N" saylı hərbi hissəyə divizion komandirinin müavin vəzifəsinə təyin olunur. 2017-ci ildə Silahlı Qüvvələr günü Ramil Ağayevə mayor hərbi rütbəsi verilir.

Aprel döyüşlərinin qəhrəmanlarından biri kimi tanınan Ramil Ağayev 2016-cı ilin noyabrında Beyləqan şəhərindəki "N" saylı hərbi hissəyə xidməti təyinat alır. 2017-ci ilin dekabrında Ağcabədi rayonundakı "N" saylı hərbi hissədə artilleriya divizionunun qərargah rəisi vəzifəsində xidmətə başlayır. 2020-ci ilin yanvarında yenidən Beyləqan şəhərindəki "N" saylı hərbi hissəyə göndərilir. İndi artıq o, yüksək komandanlığın nəzərində təcrübəli hərbiçi zabit kimi mühüm döyüş əməliyyatları üçün daim diqqətdə saxlanırdı.

## Vətən müharibəsi

Müharibənin ilk günündəcə mayor Ramil Ağayevin komandanlıq etdiyi artilleriya divizionunun batareyaları tapşırılan istiqamətdə, əsasən, düşmən istehkamlarını və müdafiə xəttini dağıtmaqla, onları atəş altında saxlamaqla məşğul idilər. Füzuli uğrunda döyüşlərdə mayor Ramil Ağayev və onun rəhbərlik etdiyi artilleriya batareyaları sözün əsl mənasında böyük qəhrəmanlıq nümunəsi göstərirdilər.



Müharibə başlayanda mayor Ağayevin komandanlığı altında 4 artileriya batareyası, hər batareyada isə 6 top vardı. Divizyonun qərargah rəisi o qədər narahat adam idi ki, istəyirdi 24 topun hamısına eyni vaxtda rəhbərlik etsin, göstərişlər versin, kordinatların düzgün müəyyənləşdirilməsinə kömək etsin. Toplar onun sayəsində bir an belə sursatsız qalmırdı.

...Dörd günlük ağır döyüşlərdən sonra düşmənin birinci xətdəki mövqeləri darmadağın edildi. Piyada qüvvələr düşməni sürətlə geri çəkilməyə məcbur etdikcə ehtiyat qüvvələr azad edilmiş mövqelərdə yerləşib möhkəmləndirmə işlərinə başlayırdılar. Artileriya qüvvələrinə də dislokasiya yerlərini irəli çəkmək əmri verilmişdi. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından sonra düşmən öz əsgərlərinin meyitlərini belə döyüş meydanlarında qoyub qaçırdı. Müharibənin bu ağlasığmaz dəhşətli mənzərsi ermənilərin öz əsgərlərinə olan iyrənc münasibətini nümayiş etdirirdi. Bütün bunları seyr edən mayor Ağayev sanki özü-özü ilə danışırmış kimi pıçıldayırdı: "Budurmu bunların cəsarətli orduları!? Gəbərmiş əsgərlərinin meyitlərini belə atıb qaçırlar..."

**Ramilin döyüş yoldaşı zabit Elçin İsmayılovun hüznlü xatirəsi:**

– Müharibənin altıncı günü diviziyamızın dislokasiya yerini dəyişdilər. Oktyabrın 4-də bizə Horadizə yola düşmək əmri verildi. Artıq silahlı qüvvələrimiz düşmənin güclü istehkamlarını darmadağın edib sürətlə irəliləməyə başlamışdı. Hava çox yağışlı idi. Ətraf erməni əsgərlərinin leşləri ilə dolu idi. Bir də baxdıq ki, qarşıdakı dağın arxasından bir nəfər bizə tərəf gəlir. Yaxınlaşanda gördük ki, gələn mayor Ramil Ağayevdir. Açığı bizi burada hər an təhlükə gözləyirdi.

Mayor vəziyyəti qiymətləndirəndən sonra zirehli texnika, BMP və BTR-lər gətirdi və gecə səhərə qədər 6 top və 60 nəfər şəxsi heyəti həmin palçıqlı xəndəkli yoldan çıxartdı. Səhərə qədər gözünü belə qırpmayan bu insanın üzündə bir anlıq da olsun gərginlik görmədik.

Komandirimiz son dərəcə həyatsevər insan idi. Mühasirədən çıxandan sonra özümü çox üzgün hiss edirdim. Bir tərəfdən yorğunluq, bir tərəfdən batareyanın şəxsi heyətində itkilər, bir tərəfdən də yaralıların olması mənə çox ağır təsir etmişdi. Bu məqamda Ramil gülə-gülə mənə yaxınlaşıb dedi: "Niyə üzülürsən, rəisin ölməyib ki, gör sənə nələr gətirmişəm". Baxdım ki, mənə isti alt paltarları, hətta haradansa çox sevdiyim feyxoa meyvəsi tapıb gətirib. Deyə bilərəm ki, şəxsən mən xidmətdə olduğum müddətdə belə bir zabitə rast gəlməmişəm.

…Cəbrayılın Daşkəsən kəndi istiqamətində hərəkət edəndə texnika karvanı düşmən tərəfindən artilleriya atəşinə tutulur. Şəxsi heyət pərən-pərən düşür. Bir tağım çox çətin duruma düşür. Onlara yaxınlaşmaq hədsiz təhlükəli olduğundan hər zabit ora gedib şəxsi heyəti oradan çıxartmağa cürət etməzdi. Amma mayor Ağayev heç nədən çəkinmədən çevik hərəkətlərlə özünü tağıma çatdırır. Qəfil artilleriya atəşi altına düşüb pərən-pərən düşən şəxsi heyəti bir yerə toplayır və çox böyük fədakarlıqla tağımı düşmənin artilleriya atəşi altından sağ-salamat çıxararaq təhlükəsiz yerə keçirə bilir.



## Son döyüş – əbədiyyət qapısı

**Kiçik çavuş İlkin Əhmədov Ramilin son anını gözləri önündə canlandırıb deyir:**

– Hadisədən yarım saat əvvəl komandir bizə bildirdi ki, gedim baxım o biri batareyanın uşaqları necədir, nə problemləri var. Təminatları varmı, yoxmu? Yoluna qoyum, qayıdıram. Bu, onun son gedişi oldu. Oktyabrın 8-də saat 11–12 radələri olardı. Qəfildən elə bil yer-göy lərzəyə gəldi. Hadrut istiqamətindən namərd ermənilər "Smerç" reaktiv yaylım atəşi sistemi ilə bizim mövqeləri güclü atəşə tutdular. Mayor Ramil Ağayev, hətta, belə bir atəş altında da özünü deyil, texnikanı xilas etməyin qayğısına qalaraq onları çıxarmağa atıldı. Raketlərdən biri ondan bir qədər aralı düşüb partladı. Mayor Ramil Ağayevlə bərabər 5 MAXE-miz və bir çavuşumuz elə oradaca qəhrəmancasına şəhid oldular. Biz təkcə komandirimizi deyil, dostumuzu, qardaşımızı, böyük bir dayağımızı itirdik. Amma o qəlbimizdə əbədi yaşayacaq.

**Gözlərində təbəssümün kölgəsi belə görünməyən Şərafət xanım o məğrur duruşu, kədərini büruzə verməməsi ilə insanı heyran edir. Dərdi, ağrı-acısı ilə ürəyində götür-qoy edən şəhid anası qubarını içində boğub danışır:**

– Ramil uşaqlarımın içində ən kövrəyi, mehribanı və ürəyiyananı idi. Atasının vəfatından sonra məni heç vaxt tək buraxmazdı. Uzaqda olsa da, mənə telefon açıb hal-əhval tutmadığı elə bir gün olmazdı. Bəzən yalvarırdı ki, gedib onlarla qalım. Bilirdi onun üçün çox narahat oluram. Müharibə başlayanda da mənə zəng vurmuşdu. Dedi, "Ana, nəhayət ki, gözlədiyimiz gün gəlib çatdı. Ali Baş Komandan əmr verib, hücuma keçirik". Nə qədər narahat olsam da büruzə vermədim, sadəcə dedim, "Oğlum ehtiyatlı ol, özünü qoru". Ölüm Allahın əmridir. Balama ən gözəli düşdü. Şəhidlik hər insana nəsib olmur.

Ramil ailəli idi, onun Aysu və Zəhra adında iki qız balası Vətənə əmanət qalıb.

**İgidimizin ömür-gün yoldaşı Sevil Ağayeva xoşbəxt olduğu günlərə qayıdır:**

– 2006-cı ildə toyumuz olub. 15 illik ailə həyatımızın elə bir anı yoxdur ki, Ramillə bağlı isti bir xatirəmiz olmasın. O, çox məsuliyyətli ailə başçısı, övladlarına bağlı ata idi. Amma ürəyinin yarısı anasının yanında idi. Məzuniyyətə çıxan kimi, gedəcəyimiz ilk ünvanı Lerik olurdu. Həmişə deyirdi ki, anamın üstümüzdə haqqı böyükdür, o haqqı heç nə ilə ödəyə bilmərik.

Ramil həmişə deyirdi ki, mən 35 yaşında şəhid olacağam. Ona deyirdim ki, Allaha ibadət elə, namaz qıl. Çünki o dünyada bizi çox sorğu-sual edəcəklər. Mənə baxıb gülürdü və deyirdi: "Elə bilmə mən ölümdən qorxuram. Allah mənə elə ölüm qismət edəcək ki, məni sorğu-sual etməyəcəklər".

Sentyabrın 25-də Ramil axşam evə çox yorğun gəlmişdi və bir qədər də qayğılı görünürdü. Söhbət əsnasında dedi ki, sabah tezdən ön cəbhəyə gedirik. Təlimlərə tez-tez getdiyindən onun həmin sözlərinə o qədər diqqət etmədim. Sentyabrın 26-da sübh tezdən durub yola hazırlaşdı. Pal-paltarını hazırladığım vaxtda qəfil qayıtdı ki, "Sevil, müharibə başlayır. Mən orada olmalıyam. Uşaqlar sənə əmanətdir". Nə deyəcəyimi bilmədim. Gülə-gülə ürək-dirək verdi ki, darıxma, hər şey yaxşı olacaq.

Ramilin bu gedişi əvvəlkilərdən çox fərqli oldu. Uşaqları bağrına basıb çoxlu öpdü. Tez-tez söylədiyi "mən 35 yaşımda şəhid olacağam" sözləri yadıma düşdü. Elə bil içimdə nəsə qırıldı. Amma büruzə vermədim ki, gözü geridə qalmasın. Bircə onu dedim ki, tez-tez əlaqə saxla, uşaqlar xiffət çəkməsinlər.

Həmişə danışanda ona deyirdim ki, Ramil ehtiyatlı ol, Aysu ilə Zəhranı fikirləş. Bizim iki qızımız var, onlara ata daha çox lazımdır. Deyirdi, " biz elə uşaqları fikirləşdiyimiz üçün buradayıq..."

Cəbrayılın alınmasından 4 gün sonra, oktyabrın 8-də Ramilin sübh tezdən zəngini gözləməyib özüm ona zəng etdim ki, bir xəbər öyrənim. Dedi: "Sevil narahat olma, torpaqları azad etdikcə biz irəli gedirik. Hər şey yaxşıdır. Əgər mənə zəng çatmasa, bundan narahat olma, vaxt olan kimi özüm əlaqə saxlayacağam". Saat 11-də bir də ona zəng etdim ki, narahatam, amma sənə mane olmaq istəmirəm, sən özün vaxt olanda mənə zəng vur". Vəssalam…

Bununla da Ramilsiz həyatımız başladı. Uşaqların ata yolu gözləməsi, onları ovutmaq, sevdiyin insanla yalnız xəyallarda və yuxularda görüşmək çox ağırdır. Amma dözməli, onun yadigarlarını Vətənə sevgi ruhunda böyütməyi, şəhidin xanımı adını qürurla daşımağı bacarmalıyam.

Azərbaycan Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Silahlı Qüvvələrin hərbi qulluqçusu, Diviziyanın qərargah rəisi, mayor Ramil Mərdan oğlu Ağayev ölümündən sonra 2-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib. Ruhun şad olsun, igid! Azad etdiyin torpaqlarda indi həyat qaynayır.



*Zərifə HÜSEYNOVA*
*XQ*

Ədəbi məclis

# "O gözəl, yenilməz Ukrayna"



**Bakı Kitab Mərkəzində Azərbaycan Yazıçılar Birliyi və Ukraynanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ukrayna mədəniyyətinin yeni üfiqləri: Ədəbiyyat günləri" layihəsi çərçivəsində "Ukrayna şeiri gecəsi" keçirilib.**

İctimai-siyasi xadimlərin, yazıçıların, ədəbiyyatsevərlərin qatıldığı mərasimdə "Mücrü" nəşriyyatının çap etdiyi "O gözəl, yenilməz Ukrayna" poeziya antologiyası, eləcə də gənc yazar Mixaylo Qusevin "Deraviya: kvant sıçrayışı" romanı təqdim olunub. Topluya Taras Şevçenko, Qriqori Koçur, Lina Kostenko, Boris Oleynik, Vasıl Stus, Pavlo Movçan kimi klassiklər və müasir şairlərin şeirləri daxil edilib. Repressiya qurbanları olmuş Mikayıl Müşfiqin, Əhməd Cavadın, həmçinin mərhum Xalq şairlərimiz Süleyman Rüstəm və Rəsul Rzanın tərcümələrindən örnəklərin yer aldığı antologiyada Siyavuş Məmmədzadə, Elxan Zal, Qismət, Günel Mövlud, Günel Şamilqızı, Könül Həsənqulu, Şəfiqə Şəfa və Səlim Babullaoğlunun tərcüməsində çoxsaylı nümunələr də verilib. Romanı isə dilimizə Rəbiqə Nazimqızı tərcümə edib.

Kitab Azərbaycan–Ukrayna ədəbi əlaqələrində ardıcıl xidmətləri olan iş adamı Möhlət Hüseynovun dəstəyi ilə ərsəyə gəlib. Antologiyanın tərtibçiləri Azərbaycan Yazıçılar Birliyinin katibi, şair Səlim Babullaoğlu ilə Ukrayna Yazıçılar Birliyinin katibi Dmitro Drozdovski, məsləhətçiləri Taras Şevçenko Milli Muzeyinin baş direktoru Dmitro Stus və Ceyhun Kəsəməndir.

AYB-nin beynəlxalq məsələlər üzrə katibi Səlim Babullaoğlu çıxışında iki ölkə arasındakı ədəbi əlaqələrin əhəmiyyətindən danışıb. "Bu əlaqələrin tarixi 130–140 mindən artıqdır. 1991-ci ildən ölkələrimiz arasında əlaqənin keyfiyyəti dəyişdi və iki müstəqil dövlət kimi daha da yaxınlaşdıq. Xüsusilə, Ukrayna və Azərbaycan ədəbi əlaqələri möhkəmləndi. Yeni kitablar bu dostluğa yeni töhfələrdir".

Kitabın ön sözünün müəllifi, Ukraynanın ölkəmizdəki səfiri Yuri Qusev deyib: "Azərbaycan və Ukrayna arasında bir körpü qurulub. Bu körpünü həm azərbaycanlıların, həm də ukraynalıların böyük bir nəsli qurub. Əlaqələrimizin inkişafında Səlim Babullaoğlunun, Elmira Axundovanın və digər yazıçıların rolu böyükdür".

Gecədə antologiyaya daxil olan poeziya nümunələri səsləndirilib. Azərbaycan, Ukrayna və Avropanın klassik və çağdaş bəstəkarlarının əsərləri səslənib. Musiqiləri gənc pianoçular Fidan Yunus və Humay Qasımzadə ifa ediblər.

*XQ*

# Fəvvarələr meydanında "Nargis"in "Qış nağılı"

**Artıq 11 ildir ki, "Nargis" Fondunun Fəvvarələr meydanında təşkil etdiyi "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası paytaxtımızın sakinlərinə və qonaqlarına əsl Yeni il ovqatı və sirli-sehirli əhvali-ruhiyyə bəxş edir.**




Builki yarmarka 4 gündür ki, açılıb. Tədbirin rəsmi tərəfdaşları Bakı Şəhər İcra Hakimiyyəti, "Azərişıq", Bakı Abadlıq Xidməti, Azərbaycan Dövlət Reklam Agentliyi, Azərbaycan Hava Yolları, "E-point", "Strafor Kəsim", "Hazır Cavab"dır. "Soyuq Əllər, İsti Ürək" xeyriyyə yarmarkası Pasha Holding, Azercell, Coca-Cola, Birbank, R Group Holding, Haribo, Ozmo, Tess, Lays, Nesquik, Pampers, Eatme, Chocolatier, Fettycheese, Vyana Şokolad Evi, Xırta-Xırt, Corndogs, Atabey Çiğköfte şirkətlərinin dəstəyi ilə keçirilir. Yarmarka ərazisində quraşdırılmış iki böyük monitorda məkanla tanışlıq məlumatı və yarmarkanın xəritəsi nümayiş olunur.




Əlvan işıq və bayraqlarla, göz oxşayan aksesuarlarla bəzədilmiş "möcüzələr adası"nda Şaxta babanın, müxtəlif nağıl qəhrəmanlarının xoş təbəssümləri və şən söhbətləri məxsusi bir aura yaradır. Hər iki tərəfdə quraşdırılmış balaca satış köşkləri də sanki gerçək nağıl təsiri bağışlayır. Evcik-köşklərdə alıcılara çeşidli məhsullar – Yeni il hədiyyələri, suvenirlər, kitablar, paltarlar, şirniyyatlar təklif olunur. Həm kiçikyaşlı ziyarətçilər, həm də onların valideynləri, eləcə də Bakının xarici qonaqları yarmarkadakı ayaqüstü kafelərdə bir fincan isti çay və ya qəhvə içə, təam və şirniyyatlardan dadır, şən əyləncələrin şahidi, iştirakçısı olurlar.

Yarmarkada restoranlar, oyun zonası, fotozona, 4D kinoteatrı, labirint və qorxu otaqları, müxtəlif tematik guşələr, Santa evi də var. Qarşısında hər kəsin şəkil çəkdirdiyi möhtəşəm "Yeni il" şam ağacının ətrafı daim adamla dolu olur. Biz də oraya yaxınlaşıb ziyarətçilərdən müsahibələr aldıq.

**Sualımıza həvəslə cavab verən türkiyəli gənc turist Hasan Büyük dedi:**

– Doğrudan da, heyrətamizdir. Adam burada dünyanın qayğılarını unudur. Öyrəndiyimə görə, isti ürəklər bu möhtəşəm yarmarkanı xeyriyyə məqsədilə təşkil ediblər. Burada toplanan vəsait xəstəliklərə düçar olmuş uşaqların müalicəsinə xərclənəcək. Allah yardımçıları olsun!

Qonağın sözünə qüvvət üçün əlavə edək ki, yarmarka Azərbaycanın müxtəlif guşələrindən Fonda müraciət edən ailələrə bol ümid bəxş edir. Hər il olduğu kimi, builki yarmarkada da sponsorların maliyyə dəstəyi və burada qurulan evciklərin kirayəsindən toplanan vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf ediləcək.

İnternat, uşaq evləri, sığınacaqlar, müxtəlif sosial xidmət müəssisələrinin azyaşlı sakinləri yarmarkanın fəxri qonaqlarıdır.

**Balaca Mustafa Məmmədli bizə yaxınlaşıb özünü təqdim etdi. Bakıdakı 263 nömrəli məktəbin 4-cü sinfində oxuyan balaca soydaşımız təəssüratlarını belə ifadə etdi:**

– Səhərdən burdayıq. Hədiyyələr almışıq, xırt-xırt kartof və şokolad yemişik. Santa Klausla da xatirə şəkli çəkdirdik. Oyun zonasında keçirilən yarışda həvəslə iştirak elədik.

**Mustafanın anası Günay xanım da söhbətə qoşuldu:**

– Uşaqları ötən il də bura gətirmişdim deyə, elə hey soruşurdular ki, "Qış nağılı"na haçan gedəcəyik. Nəhayət, bu gün gəldik. Həm doyunca oynayıb əyləndilər, həm də "atışdırma" deyilən yeməklərdən daddılar. Bir sözlə, yarmarka balacalara ayrı bir zövq verdi.

Göründüyü kimi, hər kəs nəcib missiya daşıyıcısı olan "Soyuq əllər, isti ürək" yarmarkasını ürəkdən təriflədi.

Nəhayət, qeyd edək ki, əyləncələrlə dolu xeyriyyə yarmarkası yanvarın 15-dək davam edəcək. Havalar soyuq olsa da, qəlblərimiz daim isti olsun!

*Ə.ƏLİYEV*
*XQ*



Yeni nəşrlər

# Özbəkistanla dostluğun rəmzi

**Azərbaycan Milli Kitabxanasında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə həsr edilən "Şavkat Mirziyoyev Fenomeni" kitabının təqdimat mərasimi keçirilib.**





Milli Məclisin deputatları, özbəkistanlı qonaqlar, elm və mədəniyyət xadimləri, həmçinin Azərbaycan Yazıçılar Birliyinin (AYB) rəhbərliyi, yazıçı və şairlər, elm və mədəniyyət xadimlərinin iştirak etdikləri mərasimi Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq qonaqları salamladı. Tədbirin moderatoru – AYB-nin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid çıxışında Yeni Özbəkistanın qurucusu, qardaş ölkənin Prezidenti Şavkat Mirziyoyevin fəaliyyətinin beynəlxalq ictimaiyyət arasında böyük maraq doğurduğunu qeyd etdi. O, bu yaxınlarda özbək siyasətşünası Qüdrətulla Rəfiqovun yazdığı "Şavkat Mirziyoyev fenomeni" adlı kitabın dilimizə uyğunlaşdırılaraq, Bakıda çap olunmasını görkəmli şəxsiyyətə Azərbaycan ziyalılarının da böyük ehtiram bəslədiklərinin nəticəsi olduğunu bildirdi.

Kitabın ön söz müəllifi olan Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin xeyirxah səyləri və şərəfli zəhmətləri sayəsində çoxəsirlik dostluq və qardaşlıq əlaqələrinin ən yüksək mərhələyə qalxdığını bildirdi. Özbəkistanın prezidenti Şavkat Mirziyoyevin uğurlu siyasətindən bəhs edərək, onun Prezident İlham Əliyevlə dostluğunun ölkələrarası əlaqələrə müsbət təsirindən, Özbəkistanın zəngin tarixi və mədəniyyəti, İslam dünyasına bəxş etdiyi din alimlərindən danışdı. Şeyxülislam yeni kitabı ortaq mədəni-mənəvi irsə töhfə adlandırdı.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar özbək yazıçı və şairlərin bədii nümunələrinin ümumtürk ədəbiyyatında xüsusi yeri olduğunu vurğuladı. O qeyd etdi ki, iki xalqın ədəbi əlaqələrinin belə sıx olmasının ümumtürk ədəbiyyatının inkişafına müsbət təsiri var. 85 illiyində Şavkat Mirziyoyevin onu "Dostluq" ordeni ilə təltif etməsini xüsusi minnətdarlıqla xatırlayan yazıçı bunu Özbəkistan Prezidentinin Azərbaycan ədəbiyyatına diqqətinin nümunəsi kimi qiymətləndirdi.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirinin müavini, Xalq artisti Murad Hüseynov xalqlarımızı dərin köklərə malik qardaşlıq əlaqələrinin birləşdirdiyini, bu gün həmin əlaqələrin uğurla inkişaf etdirildiyini söylədi. Nazir müavini ortaq mənəvi dəyərlərimizin tədqiqi və təbliği istiqamətində həyata keçirilən tədbirlərin bizi bir-birimizə daha da yaxınlaşdıracağını dedi.

Mərasimdə Özbəkistanın ölkəmizdəki səfiri Baxrom Aşrafxanov, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu, Özbəkistanın əməkdar jurnalisti, yazıçı Xurşid Dostmuhammad, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Özbəkistan xalq şairi, Senat üzvü Mahmud Toir, Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan–Özbəkistan parlamentlərarası dostluq qrupunun rəhbəri Eldar İbrahimov, Özbəkistan Yazıçılar Birliyi sədrinin müavini Qayrat Məcid, Azərbaycan Milli Məclisinin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, "Şavkat Mirziyoyev Fenomeni" kitabının tərcüməçiləri şair Akif Azalp və ədəbiyyatşünas Yaşar Qasımbəyli və başqaları çıxış edərək kitabın siyasi publisistikada özünəməxsus yenilik olduğunu, eləcə də Azərbaycan oxucuları və siyasətçiləri üçün vacib bir vəsait rolunu oynayacağını söylədilər.

Sonda "Şavkat Mirziyoyev Fenomeni" kitabının tərcüməçiləri şair Akif Azalp və ədəbiyyatşünas Yaşar Qasımbəyliyə Özbəkistanın milli geyimləri, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirova isə Özbəkistan mədəniyyətinə aid xatirə əşyası hədiyyə edildi.

*Ə.DOSTƏLİ*
*XQ*

# İki xalqın ortaq şairi



**Yazıçılar Birliyinin "Natəvan" klubunda Azərbaycan, Gürcüstan və Rusiya Yazıçılar birliklərinin üzvü, şair-tərcüməçi Giya Paçxataşviliyə həsr olunmuş "Azərbaycan ədəbiyyatında Giya Paçxataşvilinin yeri" adlı kitabın təqdimatı olub.**

Qeyd edək ki, 1961-ci ildə Qax rayonunun Qax-Gürcü kəndində dünyaya göz açan, milliyyətcə gürcü olan Giya Paçxataşvili ədəbiyyata 15 yaşında ikən "Səni sevməyimi..." əsəri ilə gəlib. Onun məşhur "Oğul ata itirdi", "Zülmətdən gələn işıq" şeirləri oxucuların diləzbərinə çevrilib. O, 9 kitabın müəllifidir, 65-ə yaxın kitabın (rus və gürcü dillərinə) isə tərcüməçisi kimi tanınıb.

Tədbirdə iştirak edən söz və sənət adamları – AYB sədrinin müavini, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Əsəd Cahangir, Xəyal Rza, Xatirə Fərəcli, Rauf Aslanov, Arifə Əliyeva, Eldost Bayram, Nazir Rüstəmov, Mahcamal Babayeva, İbrahim İlyaslı, Arzu Nehrəmli, Aləmzər Sadıqqızı, Xəqani Abbasəli, Rəfail İncəyurd, Hafiz Rüstəm, Zemfira Məhərrəmli, Tamxıl Ziyəddinoğlu, Şəmsiyyə Kərimova Giyanın həyat və yaradıcılığından, onun insani keyfiyyətlərindən, həyata baxışından da söz açıb, onun bədii portreti olan kitabın məziyyətlərini qeyd ediblər.



Kitabın müəllifləri – Azərbaycan radiosunun veteran əməkdaşı, Əməkdar jurnalist Qənbər Ağayeva və tədqiqatçı-alim, filologiya elmləri doktoru, professor Nizami Tağısoy, eləcə də tərtibatçı rəssamı Sehran Allahverdi də ürək sözlərini söyləyiblər.

Natiqlər günün qəhrəmanı Giya bəyə və onun cəfakeş ömür-gün yoldaşı, rəssam Xatirə Paçxataşviliyə ən xoş arzularını bildiriblər. Beləcə, qeyri-adi işıq səhrinə düşən giyasevərlər tədbirdən xoş təəssüratlarla ayrılıblar.

*XQ*

# Trampın vədi Kanadanı qarışdırıb

**Castin Trüdo hökumətdə dəyişiklik edəcək. Buna səbəb çərşənbə günü ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın Kanada mallarına 25 faizlik rüsum tətbiq etmək hədəsinə Ottavanın mümkün cavabı ilə bağlı fikir ayrılıqları fonunda baş nazirin müavini Kristi Frilandın mübahisəli istefa verməsidir. Ölkənin həm müxalifət, həm də hakim Liberal Partiyasının aparıcı siyasətçiləri Kanada baş nazirinin istefaya getməsi ehtimalı barədə danışmağa başlayıblar. Ona qarşı irəli sürülən ittihamları rədd edən Castin Trüdo vəzifəsində qalacağını açıqlayıb.**



Kanadanın Nazirlər Kabinetindəki dəyişikliklər barədə CTV telekanalı Ottavadakı hökumət dairələrindəki mənbələrə istinadən məlumat verib. Buna səbəb Kristi Frilandın vəzifəsini tərk etməsi səbəb olub. Xanım Friland bazar ertəsi X sosial şəbəkəsində paylaşdığı müraciətində Castin Trüdo ilə işləmək istəmədiyini bildirib: "Dekabrın 13-də siz mənə dediniz ki, artıq maliyyə naziriniz olmağımı istəmirsiniz, mənə Nazirlər Kabinetində başqa vəzifə təklif edirsiniz. Düşündükdən sonra kabineti tərk etmək qərarına gəldim".

Baş nazir ilə uzun müddətdir davam edən fikir ayrılıqlarının olduğunu xatırladan xanım Friland hesab edir ki, Castin Trüdonun mövqeyi ABŞ ilə mümkün tarif müharibəsi ərəfəsində ölkənin maliyyə təhlükəsizliyinə təhdid yaradır. Kristi Friland müraciətində özünü ABŞ-la "mümkün tarif müharibəsi üçün maliyyə ehtiyatlarının qorunmasının" tərəfdarı adlandırıb və büdcə xərclərində təmkin nümayiş etdirməyi mühüm vəzifə adlandırıb.

Ukrayna kökləri olan, uzun illər Rusiyaya qarşı ən barışmaz mövqe tutan və eyni zamanda, Ottavada əsas siyasi fiqurlardan biri sayılan xanım Frilandın qalmaqallı gedişi Kanadada ciddi daxili siyasi təlatümlərə səbəb olub. Müxalifətdəki Mühafizəkarlar Partiyasının lideri Pyer Pualyevr bazar ertəsi Kanada parlamentindəki dinləmələrdə deyib ki, Castin Trüdo "öz hökumətinə nəzarəti itirib": "Baş nazir nəzarəti itirib, lakin hakimiyyətdən yapışmağa davam edir. Biz bilirdik ki, o, seçicilərə, müqrasiyaya, xərclərə, inflyasiyaya və mənzil xərclərinə nəzarəti itirib, lakin indi öz ofisinə də nəzarəti itirib. Bizdə seçkilər nə vaxt olacaq?".

Onu müxalifətdəki Yeni Demokratik Partiyasının rəhbəri Caqmit Sinq də dəstəkləyib və o, birbaşa rəqiblərindən Castin Trüdonun nə vaxt istefa verəcəyini soruşub. Hakim Liberal Partiyasının da müəyyən hissəsinin müxalifəti dəstəkləməsindən sonra vəziyyət daha da gərginləşib. "Partiyamızın bir sıra üzvləri hesab edirlər ki, bizə rəhbərlik dəyişikliyinə ehtiyac var və mən də onlardan biriyəm. Bizim üçün irəliyə doğru yeganə yol yeni lider seçməkdir", – Liberal Partiyasının deputatı Çad Kollinz bazar ertəsi Kristia Frilandın istefasından sonra partiya üzvlərinin qapalı iclasından sonra bildirib.

Castin Trüdo isə istefa verməyəcəyini deyib: "Kanadadan başqa olmaq istədiyim digər yer yoxdur. Sizin baş naziriniz kimi xidmət etmək mənim həyatımın mütləq imtiyazıdır. Kanada Yer kürəsinin ən yaxşı ölkəsidir, lakin mükəmməl deyil və buna görə də mən hər gün bu ölkənin bütün kanadalılar üçün daha yaxşı işləməsini necə təmin etmək barədə düşünürəm".

Rəy sorğuları göstərir ki, Kanadada iqtidarda olan partiya 2023-cü ildən bəri qiymətlərin artmaqda davam etməsi və yaşayış xərclərinin artması səbəbindən dəstəyini itirir. Güclənən hökumət böhranı və ölkənin inkişafının əsas məsələləri üzrə fikir ayrılıqları kontekstində Kanada siyasətçiləri ən yaxın müttəfiqi ABŞ ilə ticarət müharibəsi təhlükəsinə necə cavab verməklə bağlı konsensusa gələ bilmirlər. "The Globe and Mail" qəzetinin Kanada hakimiyyətinin yüksək səviyyəli nümayəndəsinə istinadən verdiyi məlumata görə, Amerika ilə ticarət müharibəsi başlayarsa, Kanada hökuməti ABŞ-a neft, uran və kalium (kalium karbonat) tədarükünə ixrac rüsumları tətbiq edə bilər: "Kanada Trampın vədlərinə necə cavab verməsi ilə bağlı strategiya hazırlayır və strateji əhəmiyyət kəsb edən mallara ixrac vergisinin tətbiqi variantlardan biridir".

Bununla belə, regional hakimiyyət orqanlarının reaksiyası göstərir ki, ABŞ ilə genişmiqyaslı ticarət müharibəsinə qoşulmaq zərurəti ilə bağlı fikirlər haçalanır. Albert əyalətinin rəhbəri Daniel Smit deyib ki, ixrac vergisi "Amerikalılarla bizim üçün ən vacib olan münasibətlərdə böhranla yanaşı, milli birlik böhranı da yaradacaq". Neft, uran və kaliumun hasil edildiyi Saskaçevan əyalətinin rəhbəri Skott Mo daha da irəli gedərək bildirib ki, belə cavab tədbirləri regionu və bütün Kanadanı məhv edə bilər. Kvebek əyalətinin rəhbəri Fransua Leqo isə ABŞ ilə ticarət müharibəsinin qarşısını almağa, Donald Trampın israr etdiyi sərhəddə giriş rejimini gücləndirməyə çağırıb.

Ancaq ABŞ ilə tarif müharibəsinə hazır olan kanadalı siyasətçilər də az deyil. Məsələn, Ontario rəhbəri Daq Ford açıqlayıb ki, Donald Trampın Kanada mallarına 25 faizlik rüsum tətbiq edəcəyi təqdirdə ABŞ-a elektrik enerjisinin verilməsini dayandırmağa hazırdır: "Əgər bu çox uzağa getsə, biz həddindən artıq tədbirlər görəcəyik. Biz o yerə çatacağıq ki, ABŞ-a elektrik enerjisinin verilməsini dayandıracağıq". Məlumatlara görə, 2023-cü ildə Ontario ABŞ-dakı 1,5 milyon evi elektrik enerjisi ilə təmin edib. Kanadanın bu əyaləti Nyu-York, Miçiqan və Minnesota ştatlarına elektrik enerjisinin əsas ixracatçısıdır. Bundan əlavə, "The Washington Times"ın Ontario hökumətindəki mənbəyə istinadən verdiyi məlumata görə, Kanadanın bu əyaləti Amerika spirtinin idxalını və elektromobillər üçün akkumulyator istehsalı üçün lazım olan metalların ABŞ-a ixracını qadağan edə bilər.

***SE LAY***
***XQ***

**Suriyada Bəşər Əsədin ölkəni tərk etməsindən (8 dekabr) sonra həyatın normal məcraya qayıtması üçün addımlar atılmaqdadır. Bu addımlar təkcə siyasi sahələrdə deyil, ictimai proseslər çərçivəsində də özünü göstərir. Dünən aldığımız məlumata görə, artıq paytaxt Dəməşqdə yenidən fəaliyyətə başlayan hava limanından ilk sərnişin təyyarəsi havaya qalxıb. Təyyarə ölkənin şimalındakı Hələb şəhərinin hava limanına uğurla eniş edib.**

# Suriyanın suverenliyi və ərazi bütövlüyünə dəstək artır

Məlumatda bildirilib ki, Suriya Hava Yollarına məxsus təyyarənin uçuşunu 7 min nəfər izləyib və bu, bütün zamanların ən çox izlənən uçuşu olub. Bu, eyni zamanda, artıq Suriyada silahdan və sözdən işə keçildiyini, mülki həyatın nizama düşmək üzrə olduğunu göstərir.

Dünən Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen də Avropa Parlamentində çıxışı zamanı təmsil etdiyi təşkilatın Suriyanın bərpasına öz töhfələrini verməyə hazır olduğunu bildirib. O qeyd edib ki, ölkənin yeni rəhbərliyinin atdığı addımlar ümidvericidir. Belə ki, inklüziv hökumət yaradılması, milli azlıqların müdafiəsi və İŞİD terror təşkilatı ilə mübarizənin davam etdirilməsi kimi addımlar əhəmiyyətlidir: "Mən İordaniya və Türkiyədən yenicə qayıtmışam. Bu ölkələrlə regionda sabitlik yaradılması üçün nə kimi birgə işlər görülməsini müzakirə etdim".



Siyasi müstəvidə isə ölkənin suverenliyi və ərazi bütövlüyünün təminatı ilə bağlı addımlar atılmaqda, bəyanatlar səslənməkdədir. İllərdən bəri bu ölkənin ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyən əsas ölkə Türkiyə olub. Maraqlıdır ki, bu mövqeni getdikcə daha çox ölkə müdafiə edir. Hazırda Suriyada sabitliyin yaranması və təhlükəsizliyin təmin olunması üçün ən çox çalışan da Türkiyədir, Prezident Rəcəb Tayyib Ərdoğandır. Bunu ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp da təsdiqləyib: "Suriyada qeyri-müəyyənlik çoxdur. Ancaq bu ölkədə baş verəcək hadisələrin açarı Türkiyənin əlindədir".

Dünən Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının (BMT TŞ) üzvləri də Suriyanın suverenliyinə, müstəqilliyinə, birliyinə və ərazi bütövlüyünə sadiqliklərini təsdiqləyib və bütün dövlətləri bu prinsiplərə hörmət etməyə çağırıblar. BMT TŞ-yə 15 üzv dövlətin bununla bağlı birgə bəyanatı elan edilib. Şura üzvləri BMT baş katibinin Suriya üzrə xüsusi nümayəndəsi Geir Pedersenin bu prosesin asanlaşdırılması istiqamətində səylərini dəstəklədiklərini də bir daha təsdiq etdilər.

Bəyanatda bütün suriyalıların qanuni istəklərinə cavab verən, onları qoruyan və gələcəklərini sülh yolu ilə, müstəqil və demokratik şəkildə müəyyən etməyə imkan verən bir prosesin zəruriliyi vurğulanır. Bundan əlavə, qeyd olunur: "Suriya və onun qonşularının bir-birinin təhlükəsizliyinə xələl gətirə biləcək hər hansı hərəkət və müdaxilədən qarşılıqlı şəkildə çəkinməsi vacibdir".

BMT Təhlükəsizlik Şurasının üzvləri Suriyada terrorla mübarizənin vacibliyini, İŞİD və digər terror təşkilatlarının öz imkanlarını bərpa etməsinin yolverilməzliyini vurğulayıblar. Eyni zamanda, bildirilir ki, ölkədə insan hüquqlarına, o cümlədən ədaləti axtarmaq hüququna, beynəlxalq humanitar hüquqa bütün hallarda qəti şəkildə riayət edilməlidir. Bundan başqa, diplomatik və konsulluq binalarının və personalının toxunulmazlığına hörmət edilməsinin zəruriliyi xatırladılır.

BMT-nin Baş katibi Antonio Quterreş isə Suriyada fəaliyyətə başlamış müvəqqəti hökumətin mülki şəxsləri, o cümlədən humanitar yardım işçilərini qorumaq öhdəliyinə sadiqliyini alqışladığını bildirib. Suriyadakı vəziyyətlə bağlı yazılı açıqlamasında Quterreş humanitar məsələlər üzrə müavini və fövqəladə hallar üzrə koordinator Tom Fletçeri humanitar yardımların genişləndirilməsi ilə bağlı danışıqlar aparmaq üçün Dəməşqə göndərdiyini, onun "Həyat Təhrir əl-Şam" (HTŞ) lideri Əhməd əl-Şaraa (Əbu Məhəmməd əl-Culani) və müvəqqəti hökumətin baş naziri Məhəmməd əl-Bəşirlə görüşlər keçirdiyini bəyan edib: "Mən müvəqqəti hökumətin mülki insanları, o cümlədən humanitar işçiləri qorumaq öhdəliyini alqışlayıram".

Quterreş müvəqqəti hökumətin bütün sərhəd-keçid məntəqələri vasitəsilə tam humanitar çıxışın təmin edilməsi, humanitar missiyalar qarşısında bürokratik maneələrin aradan qaldırılması və əsas səhiyyə və təhsil xidmətlərinin davamlılığının təmin edilməsi ilə bağlı razılaşmalarını da yüksək qiymətləndirib: "Beynəlxalq ictimaiyyət Suriya xalqını daha yaxşı gələcək qurmaq axtarışında dəstəkləməlidir", – deyə BMT rəhbəri əlavə edib.

Suriyanın gələcək taleyi ilə bağlı məsələlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani arasında görüşdə də müzakirə olunub. Prezident Ərdoğan Türkiyənin Suriya xalqının və administrasiyasının yanında olduğunu, Suriyanın ərazi bütövlüyünün, birliyinin və unitar quruluşunun qorunmasını müdafiə etdiyini, beynəlxalq ictimaiyyətin ölkənin yenidən qurulması prosesində əməkdaşlıq etməli olduğunu bildirib.

Prezident Ərdoğan qeyd edib ki, Türkiyə milli təhlükəsizliyini qorumaq və Suriyadakı qeyri-sabitliyə dərhal son qoymaq üçün bütün terror təşkilatlarına qarşı mübarizə aparır və bu proses davam edəcək.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Zurabişvilinin Strasburq səfəri ölkəsinin maraqlarına zərbədir

## *İrakli Kirtsxalia: "Ondan ölkənin xeyrinə nə isə eşitmək mümkün deyil"*

**"Gürcü Arzusu–Demokratik Gürcüstan" partiyasının anti-Avropa hərəkətləri, parlament seçkilərinin saxtalaşdırılması və təkrar səsvermənin keçirilməsi zərurəti" Gürcüstan prezidentinin Avropa Parlamentinin deputatları qarşısında çıxışında qaldırdığı əsas məsələlərdir. Avropa Parlamentində çıxış edən Salome Zurabişvili deyib: "Hakim partiya Rusiya yolunu tutur və özünü elə aparır ki, sanki Avropaya doğru irəliləmək istəyir...".**

Zurabişvili seçki saxtakarlığı məsələsinə toxunaraq iddia edib ki, guya hakim partiya seçkilər zamanı qeyri-qanuni üsullardan istifadə edib. Ölkə boyu keçirilən etiraz aksiyalarına gəlincə, Gürcüstan prezidenti vurğulayıb ki, əhali sosial problemlərə görə deyil, "dövlətin müstəqilliyinə və Avropa yoluna təhlükə olduğuna görə nümayişlər təşkil edir": "Etirazçılar yalnız iki şey – Avropa gələcəyinin qaytarılması və yeni seçkilərin keçirilməsini tələb edirlər. Etiraz aksiyası təkrar seçkilərlə bağlıdır və bu, inqilabi hərəkat deyil".

O, Qərbi qətiyyətsizlikdə ittiham edib: "Gürcülər gecə-gündüz döyüşəndə Avropa oyanmaqda və reaksiya verməkdə ləng idi. Gürcülər hələ də Brüssel və Vaşinqtondan təsirli tədbirlər gözləyirlər".



Zurabişvilinin Avropa parlamentində çıxışı "Gürcü Arzusu–Demokratik Gürcüstan" partiyasında xoş qarşılanmayıb. Bu partiyadan deputat İrakli Kirtsxalia bildirib ki, Salome Zurabişvilinin Strasburqa səfərinin ölkəyə heç bir faydası yoxdur: "Bu səfərin bizim üçün və xüsusən də ölkəyə heç bir faydası yoxdur. Çünki ondan dövlətinin başçısından ölkənin xeyrinə nə isə eşitmək mümkün deyil. Mən buna əminəm. Onun çıxışında milli və ölkənin rifahı naminə nəsə eşidəcəyimizdən söhbət gedə bilməz. Əksinə, biz xanım Salomenin son illərdə və xüsusən də son aylarda məşğul olduğu partiya qiymətləndirmələrini və çıxışlarını eşitdik". Onun sözlərinə görə, bu gün küçələrdə etiraz aksiyaları zəifləyib, müxalifətinin məğlubiyyəti labüddür və tezliklə etiraz aksiyaları başa çatacaq. "Biz onların ruhunu, üzünü çox yaxşı tanıyırıq, başlarında nələr olduğunu bilirik".

Bu arada Baş nazir İrakli Kobaxidze Zurabişvilinin dəstəklədiyi müxalifətin ölkənin iqtisadi vəziyyətinə təsirinə toxunub. Qeyd edib ki, radikal müxalifət hərəkətləri ilə Gürcüstan iqtisadiyyatı üçün problemlər yaradır: "Radikal müxalifətin məqsədlərindən biri ölkəmiz üçün qısamüddətli iqtisadi problem yaratmaqdır. Onlar hakimiyyəti devirə bilmədilər, amma iqtisadiyyatda qısamüddətli problemlər yaratdılar. Xarici ölkə vətəndaşı Gürcüstanda müharibə imitasiyasını görəndə ölkəmizə səfər etmək və buraya sərmayə qoymaq istəmir. Lakin bu, qısamüddətlidir".

Eyni vəziyyət larinin məzənnəsində də özünü göstərib. O deyib: "Etiraz aksiyaları fonunda milli valyuta olan lari ucuzlaşmağa başladı. Cəmi 6 gün ərzində, noyabrın 28-dən dekabrın 4-dək lari 4,8 faiz ucuzlaşdı. Küçə etirazlarının başladığı gün, noyabrın 28-də larinin dollara nisbətdə məzənnəsi 2,742 lari/1 dollar olub, dekabrın 4-də isə lari 2,874 lari/1 dollara düşüb. Siyasi vəziyyət sabitləşən kimi Gürcüstan valyutası möhkəmlənməyə başlayıb və dekabrın 17-də larinin dollara nisbətdə məzənnəsi 2,816 lari/1 dollar səviyyəsində müəyyən edilib. Ümumilikdə, noyabrın 28-dən bəri 20 gün ərzində lari 2,6 faiz ucuzlaşıb. Radikal müxalifət öz ölkəsinə qarşı törətdiyi təxribatı dayandıran kimi hər şey sabitləşəcək.

Əslində, bu günlər ərzində kiçik müdaxilə edilməli idi. Mən yalnız bunu deyə bilərəm. Milli Bank təfərrüatları verəcək. Milli Bank heç bir ciddi müdaxilə etmədən də larinin məzənnəsinin sabitliyini təmin etməyə nail olur".

Ümumiyyətlə, baş nazirin qeyd etdiyi kimi, Gürcüstanda çox yaxşı iqtisadi tendensiyalar var. Bu ilin 10 ayında iqtisadi artım 10 faiz olub. Onun sözlərinə görə, bu tendensiya qorunmalıdır: "Bizim çox yaxşı iqtisadi göstəricilərimiz var və buna görə də bütün hökumət diqqəti iqtisadi artım tempini nəinki saxlamaq, hətta artırmaq üzərində cəmləyəcək".

Akademik Avtandil Silagadze də baş nazirlə həmfikirdir. Onun sözlərinə görə, kiçik uğursuzluqlar olacaq, lakin ölkə kritik həddə çatmayacaq."Qısa müddətdə ciddi pozulma olacağı öz-özünə aydındır, amma uzunmüddətli perspektivdə ümid edirəm ki, vəziyyət tənzimlənəcək və işlər yaxşılığa doğru inkişaf edəcək. Biz əlimizdən gələni etməliyik ki, Qərblə münasibətləri normallaşdıraq, Rusiya ilə münasibətləri çətinləşdirməyək, müharibəyə qarışmayaq". O bildirirb ki, nəzəri cəhətdən xarici investisiyalar və Qərblə ticarət olmasa, iqtisadiyyatda vəziyyət çətinləşəcək, lakin ölkə belə kritik həddə çatmayacaq.

Baş nazir sonda bildirib ki, Zurabişvilinin prezidentlik müddəti ilin sonunda başa çatır. Onu dekabrın 14-də Gürcüstanın prezidenti seçilən Mixail Kavelaşvili əvəz edəcək: "Prezident seçkiləri Amerika modeli üzrə keçirilib - o, seçki kollegiyasından 224 səs toplayıb. And içmə dekabrın 29-da baş tutacaq. ".

***P.ƏFƏNDİYEV***
***XQ***

# Türkiyə ilə sosial müdafiə əməkdaşlığı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin rəhbəri İbrahim Esenkarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub. Məclisdə Türkiyənin ölkəmizdəki səfirliyinin əmək və sosial məsələlər üzrə müşaviri Fatih Bilal Alodalı da iştirak edib.**

Azərbaycanla Türkiyənin dövlət başçılarının səyləri ilə ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayan əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov əmək, məşğulluq və sosial müdafiə, əməyin mühafizəsi sahələrində də əlaqələrin daim genişləndiyini qeyd edib. O, qonaqlara Azərbaycanda əmək münasibətləri sahəsində aparılan islahatlar, bu sahədə innovativ həllərin geniş tətbiqi işləri barədə məlumat verib. Nazir müavini Beynəlxalq Əmək Təşkilatının 60-dək konvensiyasının, o cümlədən əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı sənədlərinin ölkəmiz tərəfindən ratifikasiya edildiyi bildirib. Görüşdə Dövlət Əmək Müfəttişliyi Xidmətinin tabeliyindəki Əməyin Mühafizəsi Mərkəzinin fəaliyyətindən bəhs olunub. Əməyin mühafizəsi və iş yerlərinin attestasiyası sahələrində işəgötürənlərə dəstək tədbirləri diqqətə çatdırılıb.



İ.Esenkar ölkələrimiz arasında sosial sahədə daim genişlənən əlaqələrdən məmnunluğunu, əmək münasibətləri, iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması ilə bağlı son illər qarşılıqlı faydalı təcrübə mübadilələrinin həyata keçirildiyini bildirib.

***Z.BAYRAM***
***XQ***

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

*aşağıdakı fakültə və kafedralarda boş olan və seçki müddəti başa çatacaq vəzifələri tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR:

**I. Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Rus dilçiliyi kafedrası | Kafedra müdiri | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Kafedra müdiri | 1 |
| İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrası | Kafedra müdiri | 1 |

**II. Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Maddə quruluşu kafedrası | Professor | 1 |
| Nəzəri fizika kafedrası | Müəllim | 1 |
| Bərk cisimlər fizikası kafedrası | Müəllim | 0,5 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Müəllim | 1 |
| Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrası | Müəllim | 1 |
| Politologiya və sosiologiya kafedrası | Müəllim | 1 |
| Beynəlxalq münasibətlər kafedrası | Professor | 1 |
| İngilis dili (təbiət fakültələri üzrə) kafedrası | Müəllim | 0,5 |
| Coğrafi ekologiya kafedrası | Baş müəllim | 1 |
| Zoologiya və fiziologiya kafedrası | Baş müəllim | 1 |

**Qeyd: Müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən 1 ay müddətində, 7 avqust 1996-cı il tarixli 401 saylı "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.**

**Ünvan – AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

# Mayot cəhənnəmə dönüb

## *"Şido" qasırğası adanı ciddi sınağa çəkib*

**Mayot Fransanın ən kasıb departamentidir. Əhalinin üçdə biri gecəqondularda və daxmalarda yaşayır. Departamentdə qanunsuz məskunlaşan miqrantların sayı isə 100 min nəfərdən çoxdur. Əhalinin 77 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Departament əhalisinin təxminən, 30 faizinin daimi işi var. Sosial problemlərin çoxluğu son 10 ildə bu adada cinayətkarlığın da artmasına səbəb olub. Uzun illərdir ki, miqrasiya böhranı yaşanan Mayot indi də təbii fəlakətlə üz-üzədir. Güclü siklon adada ciddi dağıntı törədib, həlak olanların sayının isə yüzlərlə olduğu iddia edilir.**



Parisdən 8 min kilometr məsafədə yerləşən və 374 kvadratkilometr ərazisi olan Mayot adasında 310 mindən çox insan yaşayır. Dekabrın 14-nə keçən gecə baş verən və böyük dağıntılara səbəb olan "Şido" siklonunun təsirindən sonra adada təbii fəlakət böhranı müşahidə edilir. Minlərlə evin elektriksiz qaldığı, kiçik binaların dağıldığı və çox sayda ağacın yıxıldığı bildirilir. Fransanın meteorologiya xidməti "Şido"nun bölgədə son 90 ilin ən güclü qasırğa olduğunu bildirib. Küləyin sürəti saniyədə 60 metrə çatıb.

Son məlumatlara görə, qasırğa zamanı 22 nəfər ölüb, ən azı 250 nəfər yaralanıb. Ancaq həlak olanların sayının həddən artıq çox olduğu güman edilir. Mayot prefekti Fransua-Xavier Byevil də yerli mətbuata bildirib ki, ölənlərin sayı xeyli arta bilər.

Mayot millət vəkili Estelle Yusuffa onun fikri ilə razılaşıb və "itkilərin böyük olacağını" söyləyib. O qeyd edib ki, kommunikasiyanın olmaması və adanın yarısından çoxuna çıxış əldə etmək mümkün olmadığı üçün vəziyyət kritikdir.

Ölənlərin sayı ilə bağlı suala Fransa Daxili İşlər Nazirliyi isə belə cavab verib ki, "indiki mərhələdə bütün qurbanları saymaq çətindir və dəqiq statistika gələn həftə məlum olacaq".

Ərazinin paytaxtı Mamudzu şəhərinin meri Ambdilvahed Sumaylanın sözlərinə görə, adada yollar, demək olar ki, tamamilə bağlanıb. Su və qidaya böyük ehtiyac var. Bir çox yerli sakinlər yemək və içməli su çatışmazlığından şikayətlənir. Mamudzu sakinlərindən biri BBC-ə deyib ki, kömək üçün növbəyə dayanıb: "Üç gündür suyumuz yoxdur, ona görə də daha dözə bilmirik. Heç olmasa nəsə almağa çalışırıq ki, yaşaya bilək, çünki suyun bir də nə zaman veriləcəyini bilmirik".

RFI-nin verdiyi məlumata görə, Mayotda fəlakətdən əvvəl məktəblərdə 70-ə yaxın müvəqqəti yerləşdirmə mərkəzi açılsa da, yalnız bir neçə min insan onlara sığınıb. Digərləri isə ya evlərini tərk etmək istəməyiblər, ya da fəlakət baş verənə qədər vaxtları olmayıb.

Hazırda xəbərdarlıq səviyyəsi bənövşəyidən qırmızıya endirilib. Lakin yerli hakimyyət orqanları əhalini evlərini tərk etməməyə çağırır.

Sonda bildirək ki, COP29-un ada dövlətlərin təbii fəlakətlər qarşısında dözümsüzlüyü barədə ciddi xəbərdarlığı əbəs deyilmiş.

***SE LAY***
***XQ***

# Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

*Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamənin tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:*

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddələrində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən. |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsinə əsasən |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələrinə əsasən. |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li Qanununun 16-cı və 17-ci maddələrinə əsasən. |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə. |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsinə əsasən |
| 10. | Publik Hüquqi Şəxslər | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik Hüquqi Şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsinə əsasən. |
| 11. | Siyasi Partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən. |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı Qanunun 5.4-cü maddəsinə əsasən. |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı Qanunun 13-cü maddəsinə əsasən. |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı Qanunun 61-ci maddəsinə əsasən. |
| 15. | Nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman, Sərəncamlarına və digər sənədlərə əsasən. |

## İzahedici qeydlər:

Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi və digər hallarda isə könüllüdür.

Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilərlər.

Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.

Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyat naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;

İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə etmək olar:

**https://audit.gov.az/Az/page/5 (auditor təşkilatları)**
**https://audit.gov.az/Az/page/6 (sərbəst auditorlar)**

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri kömək göstərməyə hazırdır.

***Azərbaycan Respublikasının Auditorlar Palatası***

# Həmyerlimiz "Rus mükafatı" ədəbi müsabiqəsinin qalibləri sırasında



**Dekabrın 11-də Moskvada Rusiya Yazıçılar Birlikləri Assosiyasiyası tərəfindən Rusiyadan kənarda yaşayan və rus dilində yazan müəlliflərin "Rus mükafatı" adlı Beynəlxalq Ədəbi Müsabiqəsi təşkil edilib.**

Müsabiqədə həmyerlimiz, şair Ədalət İsmayılov (Mədədoğlu) da iştirak edib. Onun "Daltonik" ("Rəngbilməz") poeması "Poeziya" kateqoriyasında münsiflər tərəfindən ikinci yerə layiq görülüb. İkinci yerin qalibini təqdim etmək üçün səhnəyə çıxan münfislər heyətinin üzvü, şair Dmitri Vodennikov Ədalət Mədədoğlunun poetik əsəri haqqında danışarkən "möcüzəyə səs verdiyini" etiraf edib.

Qeyd edək ki, Beynəlxalq Ədəbi Müsabiqənin mükafat fondu 5 milyon rubl təşkil edir. Bu il müsabidə 55 ölkədən 591 müəllif iştirak edib. Qaliblər birinci yer üçün 1 milyon, ikinci yer üçün 800 min və üçüncü yer üçün 700 min rublla mükafatlandırılıb.

**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 280 (30684) 19 dekabr 2024-cü il, cümə axşamı

İdman

# “Atletiko” fanatlarının özbaşınalığı



**İspaniyanın “Atletiko” klubunun 16 azarkeşi polis tərəfindən saxlanılıb.**

İspaniya mətbuatının verdiyi xəbərə görə, buna fanatların La Liqanın XVII turunun “Xetafe” ilə oyunundan sonrakı davranışları səbəb olub. Tərəfdarlar "Metropolitano" stadionunun yaxınlığında yerləşən bazara soxularaq iğtişaşlar törədiblər. 16-25 yaş arası gənclər şüşələri sındırıb, sahibkarlara və ziyarətçilərə hədə-qorxu gəliblər. Onların həmin ərazidə rəqib komandanın azarkeşlərini axtardıqları güman edilir. Ümumilikdə hadisədə 50-yə yaxın adam iştirak edib.

Saxlanılan şəxslər ictimai asayişi pozmaqda və insanlara maddi ziyan vurmaqda ittiham olunurlar.

# “Milan” Xavi ilə danışıq aparır

**İtaliya təmsilçisi "Milan" "Barselona"nın sabiq futbolçusu və baş məşqçisi Xavi ilə danışıqlara başlayıb. Bu barədə "El Nacional" nəşri məlumat yayıb.**



"Rossoneri"lər ona hazırkı baş məşqçiləri Paulo Fonsekanın əvəzləyicisi kimi baxırlar. Milanlılar komandada radikal dəyişikliklər etməyi planlaşdırırlar.

Qeyd edək ki, “Milan” A Seriyasında 23 xalla səkkizinci sırada qərarlaşıb.

*XQ*

Sağlamlıq

# Çayı isti içərsən – xərçəngə tuş gələrsən



**Artıq günümüzün xəstəliyinə çevrilmiş xərçəng yaranma səbəbilə elm adamlarını təəccübləndirməkdə davam edir. Tehran Universitetinin alimləri elmi araşdırmalarla sübut ediblər ki, müntəzəm olaraq 60 dərəcədən yuxarı istilikdə çay içməyi sevənlərdə qida borusu, qırtlaq xərçənginin yaranma riski digər insanlara nisbətən 80 faiz artır.**

Alimlər İranın 50 min sakininin tibbi məlumatlarını təhlil ediblər. Müayinə və həyat tərzinə uyğun toplanan həmin məlumatları təhlil edilənlərin yaşı 40–75 arası olub. 10 il ərzində onlardan 456 nəfərində qida borusu karsinoması aşkarlanıb.

Təhlillər göstərib ki, gündə 60 dərəcədən yuxarı 700 millilitr (3–4 stəkan) çay içən və gündə həmin miqdardan çox (təxminən 5 stəkan) çay içənlərdə xərçəngin bu növü daha çox müşahidə edilib.

Alimlər bununla bağlı jurnalistlərə açıqlamalarında bildiriblər ki, çox insanlar isti çay, qəhvədən ləzzət alır, ılıq olanda içmir. Lakin qaynar içkilər qarşısıalınmaz nəticələr verə bilər. Ona görə də məsləhət görürük ki, çayı soyudub için.

*Z.HÜSEYNLİ*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Sumqayıt – Saray körpüsü yenilənəcək



**Sumqayıt şəhərini Saray qəsəbəsi ilə birləşdirən və 1970-ci illərdə inşa edilmiş körpü keçidinə aidiyyəti qurumların mütəxəssisləri tərəfindən birlikdə baxış keçirilib. Nəticədə məsələ Nəqliyyatı Əlaqələndirmə Şurasında müzakirəyə çıxarılıb. Körpüdə aparılmış müayinə və sınaqların nəticəsinə əsasən, konstruksiyada yükgötürmə qabiliyyətini aşağı salacaq qüsurların mövcudluğu və körpünün qəzalı vəziyyətdə olduğu aşkar edilib.**

Nəqliyyatı Əlaqələndirmə Şurasında mütəxəssis rəyləri və müzakirələrin nəticəsi nəzərə alınaraq, körpünün sökülməsi və yerində yeni körpünün inşa edilməsi barədə qərar qəbul olunub.

Yeni körpünün inşası zamanı avtomobil yolunun tamamilə bağlanılması və hərəkətin dayandırılması nəzərdə tutulur. Söküntü və təmir işləri ilə əlaqədar AYNA ərazidə müntəzəm sərnişin daşımalarını yerinə yetirən 8 avtobus marşrutunun hərəkət sxemi müvəqqəti olaraq dəyişdirir.

*Qəzənfər QASIMOV*
*XQ*

Gəlin, görün

# Zülmətdən doğan işıq

## *Novxanıdakı Neon Sənəti Muzeyinin nağıllar dünyası*

**Hər hansı bir görüntü işığa möhtacdır. Novxanıdakı Neon Sənəti Muzeyində isə əksinədir. Burdakı gözəlliyi görmək, duymaq və zövq almaq üçün işıqdan çox, qaranlığa ehtiyac duyulur.**

Qapıdan içəri girən kimi müxtəlif naxışlarla qarşılaşırsan. Hətta giriş qapısı və divarlar da rəngarəng təsvirlərdən ibarətdir. Bayırda isə general Həzi Aslanovun, memar Əcəmi Naxçıvaninin, Xalq yazıçısı İlyas Əfəndiyevin heykəlləri ilə üzləşirsən. Ev olsa da, qeyri-adiliyi, həm də sənət ocağı olduğu elə bu ilk tanışlıqdan da hiss edilir.

Paytaxtın Novxanı qəsəbəsində fəaliyyət göstərən ev-muzeyin yaradıcısı nəqqaş-rəssam Fərid Ələkbərov öz ideyasının başlanğıcından danışaraq dedi:

– İşləmək üçün məni Laplandiyaya dəvət etmişdilər. Orada olarkən qütb işıqlarını gördüm. Şimal işıqlarının şüaları altında ətrafda hər şey əsrarəngiz görünürdü. Onda ağlıma gəldi ki, rənglərin və işıqların köməyi ilə belə bir sənət əsəri yaratmaq olar. O vaxtdan qaranlıqda işıq mövzusunun aludəçisi oldum. Uzun müddət qaranlıqda parıldayan rəngləri axtarmağa başladım.

Neon piqmentlərinin müxtəlif istehsalçıları ilə işlədim və Qırmızı dənizin qaranlıqda parlayan orqanik mərcanları əsasında hipoallergik boya yaratdım. Boya son dərəcə ekolojidir, iysiz və rəngsizdir, üstəlik, qeyri-adi dərəcədə dayanıqlıdır. Muzeyin yaradılmasına 7 il vaxt sərf etdim və artıq uzun illərdir ki, art-muzey öz qapılarını sənətsevərlərin üzünə açıb.

Fərid Bakıda rəssam ailəsində doğulub. Onun atası Kamal Ələkbərov Xalq rəssamıdır. Böyük qardaşı Camal da ata sənətinin davamçısıdır. O, gözünü dünyaya açanda evdə rənglər görüb. İlk dəfə əlinə fırça götürəndə 3 yaşı olub. Bu sahədə təhsil alıb, rəsm və rəsmxət müəllimi, şüşə və keramika ustasıdır. Şərqdə incəsənətin bu unikal istiqamətində işləyən yeganə rəssamdır.

Muzeyə daxil olan kimi divarda çərçivə içində rəsmlər və güzgü, güzgüdən baxanda qarşıdakı divarda ingilis dilində yazılmış sözlər diqqəti çəkir. “Sehrə inanmayanlar onu heç vaxt tapmayacaqlar”.

Neon sənəti özündə təsviri sənətin müxtəlif növlərini – heykəltaraşlıq,



metal üzərində naqqaşlıq, rəssamlıq və s. birləşdirir. Bu sənət neon boyasının parlaq işıqları altında əks olunması effektinə əsaslanan boya sənətidir. Burada işıq illüziyası və 3D effektinin köməyi ilə divarda əks olunan şəkillər canlandırılır.

Birinci mərtəbədəki otaqlardan biri uşaq otağı adlanır. Burada gül, balina təsvirləri, müxtəlif mistik obrazlar nümayiş olunur. Venera, Merkuri, Mars və Günəş təsvirləri də qaranlıqda xüsusilə baxımlı görünür. Tavanda səma və ulduz təsvirləri, döşəmə də bir növ elə şimal qütbündəki əsrarəngiz mənzərəni xatırladır. Rəssamın oğlu Rəhimin 6 yaşında ikən çəkdiyi ürək, qızı Jasminin əl işi olan fil təsvirləri də otaqda nümayiş olunur. Burada rəssamın tələbələrinin də əl işləri var.

Psixoloji otaqda da çoxlu təsvirlər nümayiş olunur. Ozon dəliyi, abstrakt formada çəkilmiş tısbağa təsviri ultrabənövşəyi şüaların altında çox maraqlı görünür. Otaqdakı “Limonlar” əsəri isə bir növ psixoloji test xarakteri daşıyır. Həmin şəklə baxanlar limonların düzülüşünü sabit vəziyyətdə görürlərsə, bu, onlarda əsəblərinin sakitliyini, hərəkətli şəkildə görürlərsə, əsəbi olduqlarını bildirir. Şəkillərdən birində qaranlıqda gecə peyzajı təsiri oyadırsa, işıqları yandıranda gündüz təsviri göz önünə gəlir.

Mətbəx otağında döşəmə xalça formasında trafaretlərlə, şkafların üzəri isə ornamentlərlə işlənib. Məişətdə istifadə edilən əşyaların hamısı neon rəngdədir. Seramik qablar üzərindəki rəsmlər isə adi işıqda görünməsə də, qaranlıqda gözəl mənzərə yaradır. Soyuducunun qapısı üzərində dəniz krablarının neon boyaları ilə işlənmiş təsvirləri var. Uşaqlar otaqda fosforlu fonda öz siluetlərini və ya əllərinin formasını çıxara bilərlər.

Hamam otağında dekorativ rəsmlər daha çoxdur. Uşaqların diqqətini cəlb etmək üçün parlaq şar, top və müxtəlif dekorasiyalardan istifadə olunub. Hətta vanna, unitaz və zibil qabı üzərində də ultrabənövşəyi şüaların altında maraqlı təsvirlər görünür.

Dəhlizdə ikinci mərtəbəyə çıxmaq üçün olan pilləkənlər də neon boyalarla rənglənib və işıq saçır. Təbiət otağında rəssamın akril və neon boyaları ilə gözəllik yaradan fırçaları da eksponatlar arasındadır. Otaqda başqa təsvirlər də var. Divarlarda təbiət lövhələri, ağaclarda meyvə, çiçək təsvirləri, Qobustan qayaları, yapon heroqrifləri...

Enerji otağında əsasən qadın obrazları üstünlük təşkil edir. Burada rəssamın atasının gipsdən ürək formasında hazırladığı heykəl nümayiş olunur, ürəyin içərisində o, öz həyat yoldaşının üzünü təsvir edib. Divarda isə iki qadın təsviri var – biri mələyi, digəri şeytanı təmsil edir. Dua edən qadının obrazı da çox baxımlı və təsirlidir. Otaqda son dərəcə canlı təsir bağışlayan 3D effektində işlənmiş çiçək təsviri çox baxımlıdır. Qəhvə dənələri ilə işlənmiş dünya maketi də bu otaqdadır. Enerji otağının digər romantik tərəfi isə yerdə payız yarpaqlarının əks olunmasıdır.

“Farhouse” - Neon Sənəti Muzeyinin ən alt mərtəbəsi bir növ emalatxananı xatırladır. Cins şalvarlardan hazırlanmış divan üzlüyü, rəngli kağızlardan hazırlanmış saat təsviri, eləcə də kətan üzərində işlənmiş nar təsviri işıq yandırıb baxanda heyva təsviri kimi göz oxşayır. Gipslə işlənmiş rəsmlər də neon işığı altında çox baxımlı təsir oyadır. Keramikdən hazırlanmış daş, cam, bardaq və digər məişət əşyaları və onların üzərindəki təsvirlər, qədimi əşyaların, yazı makinası, telefon, radio və televizorların üzərində neon boyalarla müəyyən elementlər də heyrətamizdir. Rəssam işini bitirdikdən sonra əllərindəki boya izlərini pərdələrə hopdurur və maraqlıdır ki, onun özü də qeyri-adi görünüş yaradır.

“Farhouse”də hazırda 348 eksponat nümayiş olunur. Lakin onların sırasına tez-tez yeni əsərlər əlavə edilir, fərqlilik olsun deyə bəzi eksponatların yerləri dəyişilir. Burada rəssamın dostlarının çəkdiyi rəsmlər də var. Muzeydə orta məktəb şagirdləri və azyaşlı uşaqlar üçün hər gün ustad dərsləri təşkil olunur və onlar keramika, taxta və kətan üzərində rəsmlər çəkməyi öyrənirlər.

*Süleyman QARADAĞLI*

# Yağıntı, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 19-da Bakıda və Abşeron yarımadasında arabir yağıntılı olacağı gözlənilir.**

Gecə yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, sulu qara keçəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 3-5°, gündüz 5-7° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4° , gündüz 6-9° isti, dağlarda gecə 3-8° , gündüz 0-3° şaxta olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00